ISSN 2521-1331

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası

# MİLLİ TƏHLÜKƏSİZLİK VƏ HƏRBİ ELMLƏR

elmi-praktik jurnal



№ 2(6)

Bakı – 2020

ISSN 2521-1331

Azərbaycan Respublikası Müdafiə Nazirliyi
Silahlı Qüvvələrin Hərbi Akademiyası

# MİLLİ TƏHLÜKƏSİZLİK VƏ HƏRBİ ELMLƏR

Elmi-praktik jurnal

Cild 6, №2, 2020-ci il

Azerbaijan Republic Ministry of Defense
War College of the Armed Forces

# NATIONAL SECURITY AND MILITARY SCIENCES

Scientific-practical journal

Volume 6, №2, 2020

Bakı – 2020

## "MİLLİ TƏHLÜKƏSİZLİK VƏ HƏRBİ ELMLƏR" JURNALININ REDAKSİYA HEYƏTİ:

**Baş redaktor** – m.t.h.e.d., professor, e.o. polkovnik Həşimov Elşən Qiyas oğlu;
**Məsul katib** – mayor İskəndərov Xəyal İbrahim oğlu;
**Dil və üslub üzrə redaktor** – fil.e.d., dosent Nuriyev Sədi Şəvaqət oğlu;
**Texniki redaktor –** Mirzəliyeva Aytən Akif qızı.

### Redaksiya heyətinin üzvləri:

– general-leytenant Nizam Osmanov;
– general-leytenant, dosent Heydər Piriyev;
– general-mayor Azər Əliyev;
– akademik Rasim Əliquliyev;
– akademik Telman Əliyev;
– akademik Ramiz Məmmədov;
– siy.e.d., professor Elman Nəsirov;
– tex.e.d., professor Əsgər Tağızadə;
– f.-r.e.d., professor Mirzə Qurbanov;
– tex.e.d., professor Nadir Ağayev;
– tex.e.d., professor Vaqif Qasımov;
– psi.e.d., professor Elnarə Şəfiyeva;
– bio.e.d., professor Elimxan Cəfərov;
– hüq.e.d., professor, polis polkovniki Etibar Əliyev;
– fəl.ü.f.d., professor, polkovnik Bəbir Quliyev;
– m.t.h.ü.f.d., dosent, polkovnik Arif Həsənov;
– tex.e.d., professor Bayram İbrahimov;
– f.-r.e.d., professor Tahir Pənahov;
– tar.e.d., professor Nurulla Əliyev;
– tar.e.d., dosent Mehman Süleymanov;
– f.-r.ü.f.d., dosent Elxan Səbziyev;
– f.-r.ü.f.d., dosent Ədalət Paşayev;
– f.-r.ü.f.d., dosent Arzuman Həsənov;
– siy.e.ü.f.d. Vüqar Məmmədzadə;
– tibb.ü.f.d. Surxay Məmmədov.

### "Milli Təhlükəsizlik və Hərbi Elmlər" jurnalının beynəlxalq redaksiya heyəti:

– tex.e.d., prof. Georgiy A. Kuçuk (Ukrayna);
– tex.e.d., prof. George Akhras P. (Kanada);
– tex.e.d., dosent Valeriy P. İrxin (Rusiya);
– hərb.e.d. Sergey P. Yaroş (Ukrayna);
– tex.e.d., prof. Oleq Fiqovski (İsrail);
– sos.e.ü.f.d., prof. Vojieç Quzeviç (Polşa);
– siy.e.ü.f.d., dosent Pyotr Qavliçek (Polşa);
– ped.ü.f.d., dosent Andrey Pieçivok (Polşa);
– tex.ü.f.d. İqor Linkov (ABŞ);
– tar.ü.f.d. Svetlana Pavlovskaya (Ukrayna).

"Milli təhlükəsizlik və hərbi elmlər" jurnalında verilmiş materiallardan istifadə zamanı mütləq jurnala istinad edilməlidir.

Jurnal 09.07.2015-ci il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınıb. Qeydiyyat nömrəsi: 3991.

"Milli təhlükəsizlik və hərbi elmlər" jurnalı elmi tədqiqatların əsas müddəalarının nəşr edilməsi üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan nəşrlər siyahısına daxil edilmişdir.

**Təsisçi:** Silahlı Qüvvələrin Hərbi Akademiyası.

**Ünvan:** AZ1065, Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, akademik Şəfaət Mehdiyev küçəsi 136, "Qırmızı Şərq" hərbi şəhərciyi, Silahlı Qüvvələrin Hərbi Akademiyası, Adyunktura və elm şöbəsi.

**NATIONAL SECURITY AND MILITARY SCIENCES
JOURNAL EDITORIAL BOARD:**

**Editor-in-chief** – ScD in national security and military sciences, professor, reserved colonel Hashimov Elshan Giyas;
**Executive secretary** – major Iskandarov Khayal Ibrahim;
**Language and stylistic editor** – ScD in philology, assoc. prof. Nuriev Sadi Shavagat;
**Technical editor** – Mirzalieva Aytan Akif.

**Editorial Board:**

– lieutenant-general Nizam Osmanov;
– lieutenant-general, assoc. prof. Heydar Piriev;
– major-general Azer Aliev
– academician Rasim Aliguliev;
– academician Telman Aliev;
– academician Ramiz Mammadov;
– ScD in pol. sc., prof. Elman Nasirov;
– ScD in tech. sc., prof. Asgar Taghizadeh;
– ScD in phys.-math., prof. Mirza Gurbanov;
– ScD in tech. sc., prof. Nadir Aghaev;
– ScD in tech. sc., prof. Vagif Gasimov;
– ScD in psych., prof. Elnare Shafieva;
– ScD in biology, prof. Elimkhan Jafarov;
– ScD in law sc., prof., colonel Etibar Aliev;
– PhD in philos., prof., colonel Babir Guliev;
– PhD in n.s.m. sc., assoc. prof. colonel Arif Hasanov;
– ScD in tech. sc., prof. Bayram Ibrahimov;
– ScD in tech. sc., prof. Tahir Panahov;
– ScD in history, prof. Nurulla Aliev;
– ScD in his., assoc. prof. Mehman Suleymanov;
– PhD in phys.-math., assoc. prof. Elkhan Sabziev;
– PhD in phys.-math., assoc. prof. Adalet Pashaev;
– PhD in phys.-math., assoc. prof. Arzuman Hasanov;
– PhD in pol. sc. Vugar Mammadzada;
– PhD in medic. sc. Surkhay Mammadov.

**“National Security and Military Sciences” journal
International Editorial Board**

– ScD in technical sciences, prof. Georgiy A. Kuchuk (Ukraine);
– ScD in technical sciences, prof. George Akhras P. (Canada);
– ScD in technical sciences, assoc. prof. Valeriy P. Irhin (Russia);
– ScD in military sciences Sergey P. Yarosh (Ukraine);
– ScD in tech. sciences, prof. Oleg Figovski (Israel);
– PhD in social sciences, professor Wojciech Guzewicz (Poland);
– PhD in political sciences, assoc. prof. Piotr Gawliczek (Poland);
– PhD in pedagogical sciences, assoc. prof. Andrzej Pieczywok (Poland);
– PhD in technical sciences Igor Linkov (USA);
– PhD in history Svetlana Pavlovskaya (Ukraine).

While using any kind of material given in “National Security and Military Science” you should refer to the journal.

The journal was registered on 09.07.2015 in the Ministry of Justice of the Republic of Azerbaijan. Registration Number: 3991.

“National security and military sciences” journal has been included in the list of recommended publications by Higher Attestation Commission under the President of the Republic of Azerbaijan for the publication of main theses of scientific researches.

**CEO:** War College of the Armed Forces.

**Address:** AZ1065, Republic of Azerbaijan, Baku, Yasamal district, str. Shafaet Mehdiev 136, “Red East” military settlement, War College of the Armed Forces, Adjuncture and science department.

## MÜNDƏRİCAT

***HƏRBİ-NƏZƏRİ ELMLƏR***

**Kəşfiyyat məlumatın doğruluğunun müəyyən edilməsi üsulu**
*Vüqar Məmmədov, Azad Bayramov* ........ 7

**Azərbaycanda interaktiv geoinformasiya mərkəzinin yaradılması**
*İlqar Musayev, Elşən Həşimov* ........ 13

***HƏRBİ-XÜSUSİ ELMLƏR***

**Gəncə xanlığının çar Rusiyası tərəfindən işğalı Türkiyə tarixşünaslığında**
*Vidadi Umudlu* ........ 19

**Azərbaycan Ordusunda kadr təminatı və texnologiyaları**
*Möhübbət Rəsulov* ........ 25

**Heydər Əliyev irsində liderlik xüsusiyyətləri**
*Rəşad Tahirov* ........ 32

**Ailə faktorunun kursantların müvəffəqiyyət göstəricilərinə təsiri**
*Reyhan Maniyeva* ........ 39

**"Koroğlu" dastanının hərbi leksikası**
*Elnarə Cavadova* ........ 45

***MİLLİ TƏHLÜKƏSİZLİK***

**Avtomatlaşdırılmış idarəetmə sistemlərinin kiber təhlükəsizliyi**
*Elçin Kərimov, Sevinc Musayeva* ........ 49

**Cənubi Qafqazda enerji təhlükəsizliyi hibrid təhdidlər kontekstində**
*Xəyal İskəndərov* ........ 57

## CONTENTS

*MILITARY THEORETICAL SCIENCES*

**Determination of the correctness of intelligence data**
*Vugar Mammadov, Azad Bayramov* .......... 7

**Establishing a common geographic information space in Azerbaijan**
*Ilgar Musayev, Elshan Hashimov* .......... 13

*MILITARY SPECIAL SCIENCES*

**The conquest of the Ganja Khanate by tsarist Russia in the historiography of Turkey**
*Vidadi Umudlu* .......... 19

**Personnel support and technologies in the Azerbaijani Army**
*Mohubbat Rasulov* .......... 25

**Features of leadership in the legacy of Heydar Aliyev**
*Rashad Tahirov* .......... 32

**The influence of the family factor on student performance**
*Reyhan Manieva* .......... 39

**The military vocabulary of “Koroglu” epos**
*Elnara Cavadova* .......... 45

*NATIONAL SECURITY*

**The cyber security of military-oriented Automated Management Systems**
*Elchin Kerimov, Sevinj Musayeva* .......... 49

**Energy security in the South Caucasus in the context of hybrid threats**
*Khayal Iskandarov* .......... 57

**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№2 (6)/2020, səh. 7-12**
***HƏRBİ-NƏZƏRİ ELMLƏR*** ***MILITARY THEORETICAL SCIENCES***

UOT 355/359

# KƏŞFİYYAT MƏLUMATIN DOĞRULUĞUNUN MÜƏYYƏN EDİLMƏSİ ÜSULU

**polkovnik Vüqar Məmmədov**
**f.-r.e.d., professor Azad Bayramov**
*Silahlı Qüvvələrin Hərbi Akademiyası*
E-mail: vuqar70mm@mail.ru

***Xülasə.*** Məqalədə kəşfiyyat məlumatının doğruluğunun müəyyən edilməsi, onun müqayisələrə uyğun olaraq qiymətləndirilməsi, cəmləşdirilməsi və informasiya entropiyasını nəzərə alaraq, onun kəmiyyətcə hesablanması təklif olunur. Kəşfiyyat məlumatının doğruluğunun kəmiyyətcə müəyyən edilməsi üsulunun kəşfiyyat məlumatlarının emalı prosesində istifadəsi məqsədəuyğundur.

**Açar sözlər:** kəşfiyyat, məlumatın doğruluğu, məlumat mənbəyinin etibarlılığı, məlumatın doğruluğunun qiymətləndirilməsi üsulu, məlumatın informasiya entropiyası.

## Giriş

Taktiki fəaliyyətlərin planlaşdırılması və aparılması zamanı kəşfiyyat məlumatlarının əldə olunması, toplanması və emalı prosesində kəşfiyyat orqanlarından, ümumiyyətlə qoşunlardan alınan kəşfiyyat məlumatlarının doğruluğu mühüm əhəmiyyət kəsb edir. Çünki həmin məlumatlara əsasən, komandirlər tərəfindən müvafiq qərarlar qəbul edilir.

Məlumatların doğruluğunun müəyyən edilməsi sualı mütəxəssislər tərəfindən daima araşdırılır və öyrənilir. Məlumatların doğruluğu qrafiki olaraq tam doğrudan qeyri-doğruya qədər bütün dərəcələri göstərmək və hər dərəcəyə müvafiq tərif vermək üçün, Şerman Kent, doğruluq dərəcəsi nöqteyi-nəzərindən məlumatların əyani təsnifatını vermişdir [1] (Şəkil 1).




**Şəkil 1. Məlumatın doğruluq dərəcəsini əks etdirən sxem.**
**Kəşfiyyat məlumatlarının doğruluğu müəyyənetmə üsulu**

Kəşfiyyat sahəsi üzrə mütəxəssislər tərəfindən məlumatların doğruluğunun həmin mövzu ilə əlaqəli digər məlumatlarla tutuşdurulması, həmin sahə üzrə ekspert təsəvvürləri (rəyi) ilə uyğunluğu və mənbə etibarlılığı nəzərə alınmaqla qiymətləndirilməsi təklif olunur [2].

Məlumatlar göstərilən qaydada müqayisə edilir ($m_s$) və kəmiyyətcə qiymətləndirilir:

– həmin mövzu haqqında digər məlumatlarla uyğunluğu: uyğun gəlir (*0,9*), qismən uyğun gəlir (*0,5*), digər məlumat yoxdur (*0,3*), uyğun gəlmir (*0,1*);

– təsvir olunan mövzuya aid həmin növdə mövzu haqqında ümumi təsəvvürlərlə uyğunluğu: uyğun gəlir (*0,9*), qismən uyğun gəlir (*0,5*), uyğun gəlmir (*0,1*);

– mənbəyin etibarlılığı: tam etibarlı mənbə (*0,9*), adətən, etibarlı mənbə (*0,8*), kifayət qədər etibarlı mənbə (*0,6-0,7*), hər zaman etibarlı olmayan mənbə (*0,4-0,5*), etibarsız mənbə (*0,2-0,3*), mənbəyin etibarlılığını müəyyən etmək mümkün deyil (*0,1*).

Göstərilən müqayisələrin və mənbə etibarlılığının göstəriciləri toplanır:

$$\boldsymbol{m_s} = \sum S + M_e \tag{1}$$

Burada, $m_s$ – müqayisələrin cəmi, $S$ – müqayisələrin göstəriciləri, $M_e$ – mənbəyin etibarlılığıdır.

Məlumatların doğruluğunun ($M_d$) yuxarıda göstərilən müqayisələrə uyğun olaraq kəmiyyətcə qiymətləndirilməsi, cəmləşdirilməsi və alınan kəşfiyyat məlumatının informasiya entropiyasını nəzərə alaraq hesablanması təklif olunur:

$$\boldsymbol{M_d} = \frac{m_s}{s} - H_A \tag{2}$$

Burada, $s$ – müqayisələrin sayı, $H_A$ – məlumatın informasiya entropiyasıdır.

Kəşfiyyat mənbəyinin etibarlılığının ($M_e$) müəyyən edilməsi, onun xüsusiyyətlərinin qiymətləndirilməsi ilə həyata keçirilir və aşağıdakı kimi təklif olunur:

– Kəşfiyyat məlumat mənbənin mümkün xüsusiyyətləri ($m_x$) [3]: səriştəlilik (*0,9 – tam səriştəli; 0,5 – qeyri-kifayət qədər səriştəli; 0,1 – səriştəsiz*); məlumatların detalları ilə (xırdalıqla) verilməsi (*0,9 – tam; 0,5 – orta; 0,1 – natamam*); verilən məlumatların tamlığı (*0,9 – tam; 0,5 – orta; 0,1 – natamam*); təqdim edilən məlumatların gecikdirilməsi (*0,9 – vaxtında verilib; 0,5 – müəyyən etmək mümkün deyil; 0,1 – gecikdirilib*); mövzu sahəsinin əhatə genişliyi (*0,9 – tam əhatəli; 0,5 – natamam əhatə edir; 0,1 – əhatə etmir*); mətnlərin informasiya ilə dolğunluğu (*0,9 – tam dolğun; 0,5 – müəyyən etmək mümkün deyil; 0,1 – dolğun deyil*); mətnlərin keyfiyyəti (mətnlərdə olan diqqətsizlik, onların yanlış qavranmasına gətirib çıxara bilər) (*0,9 – tam aydın; 0,5 – tam aydın deyil; 0,1 – aydın deyil*); mənbəyinin öz maraqları və məlumata təsiri (*0,9 – öz marağındadır; 0,5 – neytral; 0,1 – öz marağında deyil*).

Kəşfiyyat mənbəyinin xüsusiyyətlərinin yuxarıda göstərilən kimi kəmiyyətcə qiymətləndirilməsi və sonradan cəmləşdirilməsi təklif olunur:

$$\boldsymbol{m_x} = \sum g \tag{3}$$

Burada, $g$ – mənbə xüsusiyyətlərinin göstəriciləridir.

Səriştəlilik – müəyyən bilik sahəsində peşəkarlıq (ixtisas) dərəcəsidir. Səriştəlilik dərəcəsinin kəmiyyət qiymətləndirilməsi üçün səriştəlilik əmsalından istifadə edilir. Səriştəlilik əmsalının müxtəlif hesablama metodları mövcuddur [2]. Kəşfiyyat mənbəyinin səriştəlilik səviyyəsinin hesablanması üçün həmin mənbənin qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirilməsinin nisbəti və kəşfiyyat sahəsində xidməti (stajı) nəzərə alınaraq aşağıda göstərilən düstur hesablanması təklif olunur.

$$\boldsymbol{K_i} = \frac{N_i^u}{N_i^c} K_t \tag{4}$$

Burada, $i$ – mənbə, $N_i^u$ – kəşfiyyat tapşırıqlarının uğurlu nəticələrinin sayı, $N_i^c$ – kəşfiyyat tapşırıqlarının ümumi sayı, $K_t$ – kəşfiyyat stajının əmsalıdır.

Kəşfiyyat mənbəyinin kəşfiyyat stajı əmsalı (KSƏ):

$$K_t = \frac{T_i}{T_v} \quad (5)$$

Burada, $T_i$ – kəşfiyyat mənbəyinin xidmət müddətinin cəmi, $T_v$ – qanunla (qərarla) müəyyən olunmuş ümumi xidmət müddətidir.

Kəşfiyyat mənbəyinin etibarlılığının müəyyən edilməsi təklif olunur:

$$M_e = \frac{m_x}{x} \quad (6)$$

Burada, $x$ – xüsusiyyətlərin sayıdır.

Kəşfiyyat mənbəyinin etibarlılığının ($M_e$) kateqoriyalara bölünməsi V.Plett tərəfindən təklif olunmuşdur [4]. Əlavə olaraq, mənbə etibarlılığının hesablamalarda istifadəsi məqsədilə kəmiyyətcə qiymətləndirilməsi təklif olunur: tam etibarlı mənbə (*0,9*); adətən, etibarlı mənbə (*0,8*); kifayət qədər etibarlı mənbə (*0,6-0,7*); hər zaman etibarlı olmayan mənbə (*0,4-0,5*); etibarsız mənbə (*0,2-0,3*); mənbənin etibarlılığını müəyyən etmək mümkün deyil (*0,1*).

Qeyd etmək lazımdır ki, müxtəlif kəşfiyyat informasiya mənbələrinin məlumatları arasında həddindən artıq oxşarlıq və ya fikir ayrılığı kimi xüsusiyyətlər, həmçinin məlumatın mənbə imkanlarında uyğunsuzluq şübhə üçün əsas ola bilər.

Kəşfiyyat məlumatlarının entropiyasının müəyyənləşdirilməsi üçün amerikalı riyaziyyatçı Klod Şennonun (Claude Elwood Shannon) nəzəriyyəsinə uyğun hesablaması aparmaq təklif olunur [3]:

$$H_A = -p_1 \log_2 p_1 - p_n \log_2 p_n \quad (7)$$

Burada, $H$ – Şennon entropiyası, $A$ – hadisə (hal), $p_n$ – hadisənin (hal) ehtimalıdır.

Şennonun entropiyası kəmiyyət olaraq ötürülən məlumatların etibarlılığını xarakterizə edir və məlumatın qeyri-müəyyənlik miqdarını hesablamaq üçün istifadə olunur. Alınan məlumatların miqdarı nə qədər çox olarsa, hadisə (hal) haqqında daha əhatəli informasiya olur və bununla da qeyri-müəyyənlik azalır. İnformasiya miqdarını aydınlaşdırmaq üçün nəzərdə tutulan hadisə (hal) barədə məlumatının entropiyasında azalma təbiidir. İstənilən hadisə (hal) ilə bağlı əldə olunan məlumatın entropiyasını müəyyən etməklə onun doğruluğunu bilmək olar. Entropiyanı hesablayarkən bu hadisə ilə bağlı digər məlumatlar və mümkünlük (ehtimal) nəzərə alınmalıdır. Kəşfiyyat məlumatının informasiya entropiyasının ifadəsi aşağıdakı kimidir: məlumatda qeyri-müəyyənlik yoxdur (0-0,1); məlumatda qeyri-müəyyənlik çox azdır (0,1-0,3); məlumatda qeyri-müəyyənlik azdır (0,3-0,5); məlumatda qeyri-müəyyənlik çoxdur (0,5-0,7); məlumatda qeyri-müəyyənlik yüksəkdir (0,7-0,9); tam qeyri-müəyyən məlumatdır (0,9-1). Qeyd etmək lazımdır ki, təqdim olunan məlumatın informasiya entropiyası sıfıra yaxınlaşdıqca məlumatın doğruluğu yüksəlir.

Məlumatların doğruluğu amerikalı briqada generalı Vaşinqton Plett (Washington Platt) tərəfindən göstərilən kateqoriyalara bölünmüşdür [4] və bizim tərəfimizdən yuxarıda göstərilən qaydada (1) hesablama aparılmış, alınan nəticəyə uyğun müəyyən edilməsi təklif olunmuşdur: – məlumatın doğruluğu digər mənbələrin məlumatları ilə təsdiq olunur; – məlumat çox ehtimalla, doğrudur; məlumat ola bilsin ki, doğrudur; – şübhəli məlumat; – məlumat doğru deyil; – məlumatın doğruluğunu müəyyən etmək mümkün deyil.

Yuxarıda göstərilənlərə uyğun, məlumatın doğruluğunu ($M_d$) müəyyənetmə alqoritmini hazırlayaq. İlkin məlumatları müəyyən edək:

– müqayisə (S1) – mövzu ilə əlaqəli digər məlumatlarla tutuşdurulma səviyyəsi, misal üçün – qismən uyğun gəlir (0,5);

– müqayisə (S2) – təsvir olunan mövzuya aid həmin növdə mövzu haqqında ümumi təsəvvürlərlə uyğunluq səviyyəsi, misal üçün – uyğun gəlir (0,9);

– müqayisə (S3) – kəşfiyyat mənbəyin etibarlılığı ($M_e$), misal üçün – kifayət qədər etibarlı mənbədir (0,7);

– kəşfiyyat məlumatının informasiya entropiyası, misal üçün $H_A = 0{,}3$ – *məlumatda qeyri-müəyyənlik çox azdır*.

Verilənlərə əsasən, mümkün nəticələri nəzərə alaraq kəşfiyyat məlumatının doğruluğunu müəyyənetmə alqoritminin proqram blok-sxemini yaradaq (Şəkil 2).



**Şəkil 2. Kəşfiyyat məlumatın doğruluğunu müəyyənetmə alqoritminin proqram blok-sxemi**

Kəşfiyyat məlumatının doğruluğunun ($M_d$) qiymətləndirilməsinin mümkün nəticələri:

S – məlumatın doğruluğunu müəyyən etmək mümkün deyil (0-0,2);
Z – məlumat doğru deyil (0,2-0,4);
Q – şübhəli məlumat (0,4-0,6);
E – məlumat, ola bilsin ki, doğrudur (0,6-0,8);
C – məlumat böyük ehtimalla, doğrudur (0,8-0,9);
F – doğru məlumat (0,9-1);

Beləliklə, verilənlərə uyğun, kəşfiyyat məlumatının doğruluğu ($M_d = 0{,}7 - 0{,}3 = 0{,}4$) - $Z$ – *məlumat doğru deyil* müəyyən olunur. Bu məlumat təkrar dəqiqləşdirilməlidir.

## Nəticə

Nəticədə qeyd etmək olar ki, kəşfiyyat məlumatının doğruluğunun kəmiyyətcə qiymətləndirilməsi və təqdim edilən müəyyənetmə üsulunun kəşfiyyat məlumatlarının emalı prosesində tətbiqi məqsədəuyğundur.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Davis, J. The Sherman Kent and the Profession of Intelligence Analysis // Occasional Papers, – 2002. Volume 1, Number 5.
2. Мамедов, В.М., Байрамов, А.А. Применение экспертного оценивания при обработке разведывательных данных. // – Kiev: Modern Information Technologies in the Sphere of Security and Defense, – 2019. № 2 (35), – с. 71-76.
3. Mammadov, V.M., Bayramov, A.A. The expert evaluation and informational entropy in reconnaissance data processing // – Kharkov: Advanced İnformation Systems, – 2019, vol 3, №2. (in press).
4. Плэтт, В. Стратегическая разведка. Основные принципы / В.Плэтт. – Москва: Издательский Дом “Форрум”, – 1997. – 376 с.

## Аннотация
**Определение достоверности разведывательных сведений**
**Вюгар Мамедов, Азад Байрамов**

В статье предлагается способ количественного определения достоверности разведывательных сведений на основе оценки и суммирования их сравнительных характеристик, надежности источника информации а так же учитывая информационную энтропию этих сведений. Считается целесообразным использование предлагаемого способа количественного определения достоверности разведывательных сведений в процессе их обработки.

**Ключевые слова:** разведка, достоверность разведывательных сведений, надежность источника информации, метод количественного определения достоверности разведывательных сведений, информационная энтропия сведений.

## Abstract
**Determination of the correctness of intelligence data**
**Vugar Mammadov, Azad Bayramov**

The article proposes a method for quantitatively determining the reliability of intelligence information based on the assessment and summation of their comparative characteristics, the reliability of the source of information and also considering the informational entropy of this

information. It is recommended to use the proposed method for quantitatively determining the reliability of intelligence in their processing.

**Keywords:** intelligence service, reliability of intelligence, reliability of the source of information, method of valuing of the correctness of the information, information entropy.

*Məqalə redaksiyaya daxil olmuşdur: 08.02.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 06.03.2020*
*Çapa qəbul edilmişdir: 11.04.2020*

**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№2 (6)/2020, səh. 13-18**
***HƏRBİ-NƏZƏRİ ELMLƏR*** ***MILITARY THEORETICAL SCIENCES***

UOT 912

# AZƏRBAYCANDA İNTERAKTİV GEOİNFORMASİYA MƏRKƏZİNİN YARADILMASI

**e.o. polkovnik İlqar Musayev**[1]
**m.t.h.e.d., professor, e.o. polkovnik Elşən Həşimov**[2]
[1]*Azərkosmos ASC*
[2]*Silahlı Qüvvələrin Hərbi Akademiyası*
E-mail: ilqar-refiler@rambler.ru

***Xülasə.*** Coğrafi informasiya sahəsində bütün səylərin birləşdirilməsi, təkrarçılığa yol verilməməsi və daha effektiv istifadənin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının müdafiə, təhlükəsizlik digər dövlət qurumlarının, eləcədə mülki əhali və təşkilatlarının marağında vahid geoinformasiya məkanının yaradılması və sonrakı inkişafı günümüzün aktual, eyni zamanda zəruri məsələlərindəndir.

Məqalədə geoinformasiya məlumatlarının istifadəsi üzrə hazırkı vəziyyət təhlil edilərək, dünya təcrübəsinin öyrənilməsi ilə ölkədə vahid geoinformasiya məkanının formalaşdırılması üçün İnteraktiv Geoinformasiya Mərkəzinin yaradılması mümkün variant kimi təklif edilir.

**Açar sözlər:** coğrafi informasiya sistemi, vahid geoinformasiya məkanı, interaktiv geoinformasiya mərkəzi, geoportal.

## Giriş

Dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda vüsət alan sosial-iqtisadi inkişaf bütün sahələrlə yanaşı ordu quruculuğuna da müsbət təsirini göstərir. Azərbaycan Ordusunda baş verən yeniliklər ölkədə həyata keçirilən iqtisadi islahatlar nəticəsində qazanılmış uğurlarla bağlıdır. 2016-cı ilin aprel ayında keçirilən uğurlu əks-həmlə əməliyyatı buna əyani sübutdur.

Son illər respublikamızda elektron xidmətlərin mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi istiqamətində aparılan institusional islahatlar idarəetmənin optimallaşdırılması, şəffaflığın artırılması və dövlət idarəetmə sektorlarına aid ümumi məlumatlara əlyetərliliyin əlverişli olmasına səbəb olmuşdur. Bu nailiyyətlər “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərinin vahid məkanda birgə fəaliyyəti nəticəsində qazanılmışdır.

“ASAN xidmət” təcrübəsinin coğrafi informasiya (bundan sonra – geoinformasiya) xidmət sahəsində də tətbiqi artıq günümüzün tələbinə çevrilmişdir.

## Vahid geoinformasiya məkanının yaradılmasının zəruriliyi

Elmi tədqiqatlar göstərir ki, dünyada tələb olunan informasiyanın 80%-i coğrafi məkanla bağlıdır. İnformasiyalar coğrafi məkana bağlı olmadıqda öz dəyərini itirir, ondan istifadə çətinləşir, qeyri-müəyyənlik yaranır [1, s.124]. Coğrafi məkan informasiyalarının bir-biri ilə bağlantısı olmayan ayrı-ayrı mərkəzlərdə saxlanılması isə onların daha səmərəli istifadəsində problem yaradır ki, bu problemin həllinin yeganə yolu həmin məlumatların vahid bir mərkəzdə cəmləşdirilməsi, təhlili, təsnifatlaşdırılması, emal olunması, qəbul olunmuş standartlar əsasında istifadə və mübadiləsinin təmin edilməsidir.

Azərbaycan Respublikasının güc nazirliklərinin və digər dövlət qurumlarının geoinformasiya bazalarının birgə fəaliyyətini təşkil etmək və bu sahədə göstərilən xidmətləri vahid sistemdə və əlaqələndirilmiş şəkildə həyata keçirmək məqsədilə respublikamızda vahid geoinformasiya məkanının formalaşdırılması və geoinformasiya məkanın fəaliyyətini həyata keçirən İnteraktiv Geoinformasiya Mərkəzinin (İGM) təsis edilməsi zərurəti yaranmışdır.

İGM-in yaradılması ilə bu vaxtadək müxtəlif müəssisələrdə (güc nazirliklərində) toplanmış coğrafi məkan məlumatlarının mütəşəkkil idarə olunması təmin edilər və mərkəz özfəaliyyəti ilə ölkəmizin müdafiə və iqtisadi qüdrətinin daha da inkişaf etdirilməsinə xidmət göstərər.

Vahid geoinformasiya məkanının formalaşdırılmasında ilk addım ölkədəki geoinformasiya xidmətlərinin mövcud vəziyyətinin təhlil edilməsidir.

**1. Azərbaycanda geoinformasiya xidmətlərinin cari vəziyyətinin qiymətləndirilməsi**

Dövlət qurumlarında geoinformasiya xidmətlərindən istifadə ilə bağlı məlumatlılıq azdır. Bəzi təşkilatlarda coğrafi məlumat sisteminin (GIS) elektron bazalarının olmaması, hələ də kağız daşıyıcılardan istifadə etməklə müasir texnologiyaların imkanlarına üstünlük verməmək və yenilənməyən məlumatlardan istifadə məhsuldarlığın davamlı artmasına mane olur.

Dövlət təşkilatlarında müasir logistika təchizatı geoinformasiya xidmətlərindən istifadə üçün yetərli deyil. Maddi-texniki təchizatın azlığı hazırda ölkəmizdə istehsal olunmayan və xarici ölkələrdən satın alınan, kartoqrafik materialların və aerokosmik görüntülərin emalı üçün nəzərdə tutulmuş bahalı ixtisaslaşdırılmış avadanlıqların və xüsusi lisenziyalı proqram təminatının olmaması deməkdir.

Geodeziya, kartoqrafiya, topoqrafiya, fotogrammetriya və geomatika sahələrində ixtisaslı mütəxəssislər çatışmır. Müasir kompüter kartoqrafiya proqramlarında işləmək təcrübəsi və bacarığı olan mütəxəssislərin sayı azdır.

Bəzi dövlət qurumlarında eyni geoinformasiya məlumatlarını ayrı-ayrı mərkəzlərdə saxlayırlar ki, bu da onların daha səmərəli istifadəsində üçün problem yaradır. CİS məlumatları üçün vahid bazanın olmaması müxtəlif qurumlar tərəfindən oxşar layihələrin həyata keçirilməsinə səbəb olur. Xəritə üzərindəki vektor məlumatlar (relyef və relyef elementləri, yaşayış məntəqələri, sosial-mədəni obyektlər, dəmir yolları, avtomobil yolları, magistral yollar, bitki örtüyü, hidroqrafiya, hidrotexniki qurğular, körpülər, elektrik ötürücü və rabitə xətləri, küçələr, ünvanlar və s.) CİS topoqrafik məlumat bazasına (TMB) mərkəzləşdirilmiş şəkildə daxil edilmir. Eyni layihələrin əlaqələndirilməsində çətinlik yaranır.

Dövlət qurumları arasında məlumat mübadiləsinin aşağı səviyyədə olmasının əsas səbəblərindən biri də innovativ konservatizmdir. Onun həlli isə ümumi normativ bazanın və sənədlərin qəbulu ilə əlaqədardır. Hazırda Silahlı Qüvvələrdə, o cümlədən Azərbaycan Ordusunda, dövlət təhlükəsizlik orqanlarında və respublikanın bır sıra digər qurumlarında istifadə edilən topoqrafik məlumat bazası “CK-42” koordinat sistemində tərtib edilmiş topoqrafik xəritələrdən təşkil edilmişdir. CK-42 koordinat sistemi (“Pulkovo koordinat sistemi”), WGS-84 (World Geodetic System) Ümumyer referens ellipsoidi əsasında deyil Sovet geodeziyaçısı Fyodor Krasovcki adına Referens-ellipsoidi əsasında hesablanmışdır [2, s.39].

CK-42 koordinat sistemi müasir Ümumyer koordinat sistemləri (Beynəlxalq GRS-80 və WGS-84, Rusiyanın ПЗ-90 və ГСК-11) ilə müqayisədə həndəsi deformasiyalara malikdir və bu səbəbdən dəqiq deyil (Cədvəl). Müasir dövrdə dünyanın əksər ölkələrində, xüsusilə NATO ölkələri və Rusiya Federasiyasında, topoqrafik xəritələrin tərtibi zamanı yüksək dəqiqliyə malik Ümumyer geosentrik ellipsoidinə əsaslanan WGS-84 və ГСК-2011 (Геодезическая Система Координат 2011 года) koordinat sistemlərindən istifadə edilir [3, s.2].

Nəzərə alsaq ki, hazırda geodezik və hədəfgöstərmə ölçmələri çox hallarda peyk ölçmələrinə əsaslanır, CK-42 koordinat sistemində yeni topoqrafik xəritələrin istehsal olunması və həmin xəritələrin geoinformasiya bazası kimi CİS sistemlərinin yaradılmasında istifadəsi məqsədəuyğun deyil. Çünki xarici ölkələrin ordularında mövcud olan və yeni istehsal edilən bütün müasir hərbi texnika və silah sistemlərində yuxarıda adıçəkilən müasir Ümumyer koordinat sistemləri tətbiq olunur. CK-42 koordinat sisteminin tətbiqi davam etdirilərsə, o zaman respublika ərazisinin iki $6^0$-lik coğrafi zonada (8-ci zona $42^0$–$48^0$ coğrafi uzunluğu və 9-cu zona $48^0$–$54^0$ coğrafi uzunluğu aralığında) yerləşməsi səbəbindən zona daxilində, bir zonadan digərinə keçid zamanı CK-42 sisteminə yüklənmiş yeni silah sistemlərinin vəziyyətinə (koordinatlarına) düzəlişlər etmək məcburiyyətində qalacağıq.

**Cədvəl. Yerin fırlanma ellipsoidləri**

| **Ellipsoidin adı** | **Hesablan-ma ili** | **Böyük yarımox – a (metrlə)** | **Kiçik yarımox – b (metrlə)** | **İstifadə edən ölkələr və beynəlxalq təşkilatlar** | **Ellipsoid növü** |
|---|---|---|---|---|---|
| Bessel | 1841 | 6 377 397 | 6 356 082 | Avropa, Asiya | referens – ellipsoid |
| Eyr | 1849 | 6 377 563 | 6 356 255 | Böyük Britaniya, Şimali İrlandiya | referens – ellipsoid |
| Delamber | 1810 | 6 376 428 | 6 355 958 | Belçika | referens – ellipsoid |
| Danimarka | | 6 377 104 | 6 355 847 | Danimarka, İslandiya | referens – ellipsoid |
| Plessisa | | 6 376 523 | 6 355 860 | Fransa | referens – ellipsoid |
| Sruve | | 6 378 298 | 6 356 655 | İspaniya | referens – ellipsoid |
| Heyford | 1909 | 6 378 388 | 6 356 912 | Avropa, Asiya, Cənubi Amerika, Antarktida | referens – ellipsoid |
| Everest | 1830 | 6 377 276 | 6 356 075 | Hindistan, Pakistan, Nepal, Şri-Lanka | referens – ellipsoid |
| Klark | 1858 | 6 378 293 | 6 356 620 | Avstraliya, İrlandiya | referens – ellipsoid |
| Klark | 1866 | 6 378 206 | 6 356 585 | Şimali və Mərkəzi Amerika | referens – ellipsoid |
| Klark | 1880 | 6 378 249 | 6 356 517 | Afrika, Barbados, Yamayka, İsrail, İordaniya, İran | referens – ellipsoid |
| **Krasovski (СК-42)** | **1940** | **6 378 245** | **6 356 863** | **Keçmiş sosialist ölkələri, MDB-yə daxil respublikalar** | **referens – ellipsoid** |
| Avstraliya | 1984 | 6 378 160 | 6 356 771 | Avstraliya, Papua-Yeni Qvineya | referens – ellipsoid |
| **GRS 80** | **1980** | **6 378 137** | **6 356 752,314** | **Beynəlxalq Geofizika və Geodiziya Assosasiyası** (IUGG) | **Ümumyer ellipsoid** |
| WGS-72 | 1972 | 6 378 135 | 6 356 753 | ABŞ (80-cı illərədək) | **Ümumyer ellipsoid** |
| **WGS-84** | **1984** | **6 378 137** | **6 356 755** | **ABŞ və NATO blokuna daxil olan dövlətlər** | **Ümumyer ellipsoid** |
| **ПЗ-90** | **1990** | **6 378 136** | **6 356 754** | **Rusiya Federasiyası** | **Ümumyer ellipsoid** |
| **ГСК-2011** | **1990** | **6 378 136, 5** | **6 356 754** | **Rusiya Federasiyası** | **Ümumyer ellipsoid** |

Zonadan asılı olaraq CK-42 koordinat sistemi ilə müasir Ümumyer koordinat sistemləri arasında planimetrik koordinat fərqlənməsi x oxu üzrə 1800m, y oxu üzrə 90m arasında dəyişir. Təbii ki, koordinatdan-koordinata keçid avtomatik yerinə yetirilsə belə, zaman alacaq və dəqiqliyə mənfi təsir göstərəcəkdir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, CK-42 koordinat sistemindən imtina edilməməsinə baxmayaraq, hazırda respublikamızda bütün topoqrafiya, geodeziya və kadastr işləri WGS-84 koordinat sistemində yerinə yetirilir [4, s.31].

**2. İnteraktiv Geoinformasiya Mərkəzinin yaradılmasının mahiyyəti**

İGM-nin yaradılmasında başlıca məqsəd – Azərbaycan Respublikasının müdafiə, təhlükəsizlik və digər dövlət qurumlarında CİS-in birgə istifadəsini təmin etmək, qarşılıqlı təhlükəsiz informasiya mübadiləsini həyata keçirmək və ölkədə vahid geoinformasiya məkanının yaradılmasından ibarətdir. Bu mərkəz – məlumatların vahid bazada fiziki olaraq saxlanması və qorunmasını deyil, hər bir müdafiə və təhlükəsizlik qurumunda mövcud olan coğrafi informasiya sistemlərinə digər qurumlar üçün əlyetərlilik təmin edən mərkəzi interfeys – Qapalı Geoportalın fəaliyyətini nəzərdə tutur.

Mərkəzin yaradılması üzrə işlərin mahiyyəti beynəlxalq təcrübənin öyrənilməsi, konkret texniki təkliflərin və məsələlərin həlli yollarının hazırlanması, lazımi avadanlıqların və proqram təminatlarının alınması və quraşdırılmasından ibarətdir.

**3. Provayder və istifadəçilər**

Azərbaycan Respublikasında vahid geoinformasiya məkanının formalaşdırılması məqsədilə yaradılacaq İGM Beynəlxalq standartlaşdırma təşkilatı ISO (International Organization for Standardization) və NATO-nun geoməkan və coğrafi informasiya standartlarına cavab verməklə, ölkəmizin müdafiə, təhlükəsizlik və digər dövlət qurumlarının tələbatını ödəyəcəkdir. Bu qurumlar həm İGM-nin provayderləri, həm də istifadəçiləri olacaqlar.

İGM-də informasiyalara əlyetərlilik təhlükəsizlik səviyyələri üzrə həyata keçiriləcəkdir. Bununla belə mərkəz mülki əhali və təşkilatlar üçün də açıq olacaqdır [4, s. 37].

**4. Geoportal**

İGM-in geoportalı geoməkan məlumatlarına daxilolma, istifadəetmə və yayımlama üçün hazırlanan və yüksək təhlükəsizliyi təmin edəcək bir interfeysdir. Geoportal üzərindən təsvirlərə, elektron xəritələrə, qatlara və metaməlumatlara giriş mümkün olacaqdır. Geoportal, mərkəzin interfeysi rolunu yerinə yetirməklə aşağıdakı funksiyaları daşıyır:

– mənbələr, informasiyalar, material və xidmətlər elektron kataloq və ya reyestrlərdə qeydiyyatdan keçirildikdən sonra təqdim olunur.

– istifadəçi məlumatları və ya xidmətləri veb-səhifəyə yerləşdirilmiş kataloqlarda və ya reyestrlərdə axtarır.

– istifadəçi axtarışlar nəticəsində əldə edilməyən məlumatlar barədə məlumat və ya xidmətləri təqdim edənə (tədarükçüyə) sorğu göndərə bilər.

**5. İdarəetmə və koordinasiya**

İGM üzrə strateji qərarların qəbul edilməsi, sistemin idarə olunması, qurumlar arasındakı fəaliyyətlərin koordinasiyası, zəruri yoxlama və nəzarət prosedurlarının həyata keçirilməsi məqsədilə idarəetmə qrupunun yaradılması tələb olunur. İdarəetmə qrupunun tərkibinin nazirliklər, dövlət təşkilat və qurumlarının təqdimatı əsasında təsdiq olunan heyətdən təşkil olunması təklif edilir. İdarəetmə qrupu İGM üzrə həyata keçirilən fəaliyyətlər barədə nazirliklərin işçi komissiyasına hesabatlar təqdim edir.

İdarəetmə qrupunun vəzifəsinə:

1. İGM-nin idarə olunması;
2. Koordinasiya qrupunun yaradılması;
3. İGM-in fəaliyyətinə nəzarət daxildir.

İGM-nin koordinasiya qrupu, idarəetmə qrupunun qərarlarını dövlət nazirlik, təşkilat və qurumlar səviyyəsindəki əlaqələndirmə orqanları ilə koordinasiya edir.

Koordinasiya qrupu müxtəlif nazirlik və dövlət təşkilatlarının nümayəndələrindən təşkil olunur və sahələr üzrə işçi qruplarına ayrılır. İşçi qrup texniki prinsiplərin işlənilməsinə, biliklərin mübadiləsinə, ideya və fikirlərin razılaşdırılmasına, həmçinin elm və iqtisadi məsələlərin koordinasiya edilməsinə köməklik göstərir.

İGM-in fəaliyyəti aşağıdakı tələbləri təmin etməlidir:

– operativ uyğunluğu – standartlaşdırma interfeysləri üzərindən ümumi məlumatların mübadiləsini;

– genişlənməni – yeni yaradılan komponentlər hesabına genişlənməni;

– universallıq – bütün dövlət idarəetmə səviyyələrindəki orqanların, həmçinin elm və iqtisadiyyatın ixtisaslaşdırılmasından asılı olmayaraq tətbiq edilə bilər;

– əlyetərliliyi – hüquqi şərtlər, norma və standartlar əsasında istehlakçıların əlverişli istifadə imkanlarını;

– effektivliyi – istifadəçilərin hüquqi şərtləri və imkanları əsasında verilən sorğuların sürətli emalını;

– testləşdirmə imkanlarını – xüsusi proqramlarının köməkliyi ilə uyğunluluq səviyyəsinin yoxlanılmasını;

– miqyaslılığı – yetərli istehsal imkanlarının təmin edilməsi üçün sistemin ayrı-ayrı komponentlərinin paylaşma və genişlənmə imkanlarına malik olmasını;

– təhlükəsizliyi – məkan məlumatlarının və xidmətlərinin etibarlı qorunması və onlardan daima istifadəni.

## Nəticə

İnteraktiv Geoinformasiya Mərkəzinin yaradılması və fəaliyyətə başlaması ilə ölkənin müdafiə, təhlükəsizlik və digər dövlət qurumlarında, həmçinin mülki əhali və təşkilatlarında aşağıdakı nəticələr əldə edilə bilər:

1. NATO, ISO və OGC (Open Geospatial Consortium) standartlarına cavab verən, müasir koordinat sistemi əsasında işləyəcək bu mərkəz, hesablama, planlaşdırma və qərarların dəqiqliyini artırmaqla Ordunun və Silahlı Qüvvələrin döyüş hazırlığını və əməliyyat imkanlarını daha da yüksəldəcək.

2. Mərkəzin geoportalına əlyetərliliyinin "generaldan əsgərədək" texniki cəhətdən təmin olunması sayəsində hərbi əməliyyatların gedişatında vəziyyətdən asılı olaraq ortaya çıxan problemlərin daha operativ həll edilməsi mümkün olacaq [5, s. 4].

3. Analiz, optimallaşdırma, simulyasiya və planlaşdırma imkanlarına malik olacaq, taktiki, operativ və strateji səviyyədə planlaşdırma imkanlarını genişləndirəcək.

4. Mərkəzin birgə istifadəsi sayəsində onun geniş geoinformasiya məlumat bazasının resurs və imkanlarından daha səmərəli istifadə ediləcək, qurumlararası koordinasiya artacaq, qurumların bir-birini tamamlayıcı funksiyaları güclənəcək, ümumi döyüşün (əməliyyatın) planlaşdırılması və idarəsi asanlaşacaq.

5. Mərkəzin fəaliyyəti sayəsində ayrı-ayrı qurumlarda eyniməqsədli layihələrin təkrarlanmasının qarşısı alınmaqla maliyyə vəsaitlərinin qənaət edilməsinə səbəb olacaq.

6. Mülki təyinatlı məkan məlumatlarına nisbətən daha yüksək ayırdetməli təsvirlərə, daha dəqiq, yeni və ətraflı məlumatlara, geniş təhlil imkanlarına malik olan mərkəzdən mülki məqsədlər üçün də geniş istifadə ediləcək. Belə ki, məzmunundakı məxfilik qrifi götürülmüş hərbi təyinatlı geoinformasiya material və məlumatlar mülki qurumların və əhalinin istifadəsinə açıq olacaq (Spin-off, əsas məhsuldan ikincidərəcəli məhsulların yaradılması).

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Musayev, I., Gojamanov, M. Spacial base of military geoinformation system // Eurasian GİS conference, Collected papers, – 2018, – p. 123-126.

2. Musayev, İ.F. Müasir Peyk-naviqasiya cihazları ilə 1942-ci il koordinat sistemli topoqarfik xəritələr üzrə iş prosesində ortaya çıxan xətalar // Milli Təhlükəsizlik və Hərbi Elmlər, – 2015. №1(1), – s. 34-41.

3. Постановление Правительство Российской Федерации Об установлении государственных систем координат, государственной системы высот и государственной гравиметрической системы. От 24 ноября 2016 года, № 1240, Москва.

4. Musayev, İ.F., Qocamanov, M.H., Həşimov, E.Q. Azərbaycanda İnteraktiv geoinformasiya mərkəzinin yaradılması // Hərbi İcmal, – 2019, №1 (4), – s. 29-39.

5. Hendricks, M. Army Geospatial Organizations & Systems: [Electronic resource]. – 2005. URL: https://bit.ly/2DrRPdj.

**Аннотация**

**Создание единого геоинформационного пространства в Азербайджане**

**Ильгар Мусаев, Эльшан Гашимов**

Создание и развитие единого геоинформационного пространства в Азербайджанской Республике в интересах обороны и безопасности в силовых структурах, а также в гражданских целях является одним из актуальных и необходимых вопросов современности. Это позволить объединить всех специалистов и учреждений в области геоинформации, избежать повторения создание ГИС в одной и той же сфере разными организациям и обеспечить более эффективное использования геоданных.

В статье подробно анализируя существующую ситуацию по использованию геоинформационных данных государственными органами республики и после изучения мирового опыта в области геоинформации предлагается создание Интерактивного геоинформационного центра для формирования единого геоинформационного пространства в Азербайджане.

**Ключевые слова:** географическая информационная система, единое геоинформационное пространство, интерактивный геоинформационный центр, геопортал.

**Abstract**

**Establishing a common geographic information space in Azerbaijan**

**Ilgar Musayev, Elshan Hashimov**

In order to unite all efforts in the field of geo-information, to avoid repetition and ensure more efficient use of geodata, the establishing and further development of the common geo-information space in the Republic of Azerbaijan in the interests of defense, security, other state bodies, and the civilian population is one of the topical and necessary issues our days.

In the article, analyzing in detail the existing situation on the use of geo-information by state bodies of the republic and after studying world experience in the field of geo-information, it is proposed to create an Interactive Geo-information Center to form a common geo-information space in the country.

**Keywords:** geographic information system, common geo-information space, interactive geo-information center, geoportal.

*Məqalə redaksiyaya daxil olmuşdur: 18.01.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 22.02.2020*
*Çapa qəbul edilmişdir: 04.04.2020*

**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№2 (6)/2020, səh. 19-24**
***HƏRBİ-XÜSUSİ ELMLƏR*** ***MILITARY SPECIAL SCIENCES***

UOT 94 (479.24)

# GƏNCƏ XANLIĞININ ÇAR RUSİYASI TƏRƏFİNDƏN İŞĞALI TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

**tar.ü.f.d, dosent Vidadi Umudlu**
*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu*
E-mail: v.umudlu@yahoo.co.uk

***Xülasə.*** Məqalədə qədim Azərbaycan torpağı olan Gəncə xanlığının XIX əsrin əvvəllərində çar Rusiyası tərəfindən işğalının türk tarixşünaslığında işıqlandırılmasında bəhs edir. Həmçinin Cavad xanın başçılıq etdiyi Gəncə xanlığının Rusiya işğalına qarşı qəhrəman mübarizəsi ilə bağlı Türkiyə tarixşünaslığında aparılan tədqiqat işləri təhlil edilir. Tədqiq olunan problemə münasibətdə öz obyektivliyi ilə fərqlənən türk tarixçiləri, arxiv sənədlərinə əsasən, mülahizə yürütməyə çalışmışlar. Məqalədə arxiv sənədlərindən və arxiv sənədlərinə əsaslanan kitablardan da istifadə edilmişdir.

**Açar sözlər:** Şimali Azərbaycan, çar Rusiyası, Gəncə xanlığı, Cavad xan, işğal, türk tarixçiləri.

## Giriş

Qədim Azərbaycan torpağı olan Gəncə diyarı çox əsrlik tarixə malikdir. Mühüm coğrafi və strateji mövqeyinə görə Gəncə qədim zamanlardan Azərbaycan və Rusiya, o cümlədən Dağıstan və Şimali Qafqaz arasında bir növ körpü rolunu oynayırdı. Nadir şah Əfşarın vəfatından sonra Azərbaycanın digər bölgələri kimi Gəncə də müstəqil xanlığa çevrildi. XIX əsrin əvvəllərində xeyli güclənən Gəncə xanlığı Cavad xan başda olmaqla nəhəng Rusiya imperiyasına qarşı ciddi müqavimət göstərdi. Tədqiq olunan məsələ türk tarixçilərinin də diqqətini çəkmiş və məsələ Türkiyə tarixşünaslığında da geniş şəkildə işıqlandırılmışdır.

Türkiyə tarixşünaslığında problemin tədqiqi səviyyəsi öyrənilərkən çox saylı monoqrafiyaya və elmi məqalələrə müraciət edilmişdir. Bu əsərlər elmi dəyər və obyektivlik baxımından qruplaşdırmış, ilkin mənbələrə istinad olunaraq təhlil edilmişdir. Tədqiqat işində türk tarixçilərinin elmi axtarışlarından geniş şəkildə istifadə olunmuşdur.

Görkəmli türk tarixçiləri Mehmet Saray [1; 2], Cemal Gökce [3], Mufit Sadik Bilge [4; 5], Cemalettin Taşkıran [6], Celalettin Yücel [7], Naki Keykurun(Şeyhzamanlı) [8], Muharrem Yıldız [9], Anıl Çeçen [10] və başqalarının Qafqaz və Şimali Azərbaycanla bağlı araşdırmalarında Gəncə xanlığının işğalı məsələsi də özünəməxsus yer tutur.

Gəncə mövzusu ilə bağlı arxiv fondlarında da xeyli materiallara rast gəlinir. Bu baxımdan Başbakanlıq Osmanlı Arxivlərinin (BOA) sənədləri arasında Xətti-Humayun (HAT) fondu üstünlük təşkil edir [11]. Problemin araşdırılmasında arxiv sənədləri əsasında hazırlanan kitablar da mühüm əhəmiyyətə malikdir. Bu kitablar arasında ikicildlik “Osmanlı Dövləti İlə Azərbaycan Türk Xanlıqları Arasındakı Münasibətlərə Dair Arxiv Sənədləri” [12; 13], "Osmanlı Dövləti ilə Qafqaz, Türkmənistan və Kırım Xanlıqları Arasındakı Münasibətlərə Dair Arxiv Sənədləri (1687–1908)” [14] kitablarında Gəncə xanlığının tarixinin müəyyən məqamları təsvir edilir.

## Gəncə xanlığının işğalı türk tarixçilərinin əsərlərində

Məlumdur ki, Gəncə xanlığının çar Rusiyası tərəfindən işğalı hələ 1801-ci ildə Şərqi Gürcüstanın Rusiyaya ilhaq edilməsi ilə başlamışdır. Belə ki, xanlığa aid olan Qazax, Şəmşəddil, Borçalı sultanlıqları Gürcüstanla birlikdə Rusiya ya birləşdirilmiş və həmin sultanlıqlara rus qoşunları yeridilmişdir. Bu hadisə Gəncə xanı Cavad xanın narazılığına səbəb olmuş, qoşunların həmin sultanlıqların ərazisindən çıxarılmasını tələb etmişdir. Lakin buna məhəl qoymayan çar hökuməti işğalçılıqda israrlı olduğunu göstərmiş və nəticədə, işğal faktı ilə barışmayan yerli əhali sultanlıqların

ərazisini tərk etməyə məcbur olmuşdur. XIX əsrin əvvəllərində baş verən bu hadisələr Türkiyə tarixşünaslığında da geniş şəkildə öz əksini tapmışdır.

Başbakanlıq Osmanlı Arxivlərinin sənədlərində hələ 1800-ci ildə Rusiyanın Tiflis, Şuşa, Gəncə tərəflərində İrana qarşı fəallaşdığı qeyd olunur [11, s.7081]. XIX əsrin əvvəlində başlayan rus işğallarını öz əsərlərində ətraflı şəkildə işıqlandıran müasir dövrün görkəmli türk tarixçisi Mehmet Saray Gəncə xanlığının qəhrəman müdafiəsinə, Cavad xanın göstərdiyi igidliklərə xüsusi yer vermişdir. Müəllif bu barədə ilkin qaynaqların verdiyi bilgiləri türk oxucusuna çatdırmışdır [2]. Müəllifin “Azərbaycan Türkləri Tarixi” adlı əsərində də Gəncə xanlığının qəhrəman müdafiəsi və Cavad xanın rolu xüsusilə qeyd olunaraq, ermənilərin Rusiyanın Qafqaz siyasətindəki yeri məsələsi də tədqiq edilmişdir. Bu zaman müəllif qeyd edir ki, ermənilərin bir qismi könüllü şəkildə Rusiya qüvvələrinin xeyrinə casusluq fəaliyyəti ilə məşğul olmuşdusa, digər hissəsi buna zorla vadar edilmişdi. Qeyd etmək lazımdır ki, Cənubi Qafqazın işğalının gedişində xristian amilindən kifayət qədər ustalıqla yararlanan Rusiya gürcülərlə yanaşı, ermənilərdən də bir vasitə kimi istifadə etmişdir. Müəllifin fikrincə, həmişə Rusiyanın timsalında özünə hami axtaran ermənilər, demək olar ki, işğal prosesinin gedişində çarizmin sadiq buyruq qulları kimi çıxış etmiş və onları bu işə xüsusi olaraq məcbur etməyə ehtiyac olmamışdır [1]. Doğurdan da, Gəncə xanlığının işğalında ruslarla əlbir olan ermənilərin rolu danılmazdır. Bu haqda Azərbaycan tarixşünaslığında kifayət qədər məlumat vardır. Göründüyü kimi, bu məqam türk tarixçilərinin də diqqətindən yayınmayıb.

Gəncə xanlığının əlverişli mövqeyindən bəhs edən M.Saray əsərində onu da qeyd edir ki, Gəncə, şimaldan Azərbaycana gələn hərbi və ticarət yollarının birləşdiyi əsas məntəqə idi. Rusiya qoşunlarının Azərbaycanda hücum etdiyi ilk xanlıq da Gəncə olmuşdur. Müəllif, həmçinin ölkəni məharətlə idarə edən Cavad xanın idarəçiliyindən, 1804-cü ildə Rusiyanın Gəncəyə hücumu zamanı xanlığı qəhrəmancasına müdafiə etməsi barədə məlumat verir [1, s.17]. Məlum olduğu kimi, Gəncə xanlığı bir ay mühasirə vəziyyətində olaraq nəhəng imperiyaya müqavimət göstərmiş, bütün hədə-qorxulara baxmayaraq, Cavad xan təslim olmağı ağlından belə keçirməmişdir.

Çar qoşunlarının amansız həmlələrindən bəhs edən M.Saray yazır: *“Cavad xanın bütün səylərinə baxmayaraq, 1804-cü ildə Gəncə ruslar tərəfindən işğal edildi. Gəncə adı rus çarının həyat yoldaşının şərəfinə Yelizavetpol adlandırıldı və məscidlər kilsəyə çevrildi. Osmanlı dövləti bu qanlı rus istilasına ümumiyyətlə cavab vermədi”* [1, s.17]. Onu da qeyd edək ki, Gəncənin işğalından az sonra Qacar İranı Rusiya ilə müharibə elan etdi. Amma müharibənin əsas qüvvəsi Azərbaycan xanlıqları idi.

Türk tarixçisi Abdullah Saydam “Kırım ve Kafkas Göçleri (1856-1876)” adlı əsərində 1801-ci ildə Qazax və Şəmşəddilin işğalı ilə başlayan rus istilasından, Azərbaycan və Dağıstanın təhdidindən bəhs etmişdir. Əsərdə Sisyanovun işğalçı siyasəti, onun Bakı yaxınlığında öldürülməsi, Gəncəli Cavad xanın dastan olan müqaviməti və digər xanlıqların işğalı yer almışdır [15]. Tarixçi Celalettin Yücel “Dış Türkler” adlı əsərində Gəncə xanlığının işğalı ilə bağlı bir sıra məqamlara toxunmuşdur. Tarixçi, həmçinin rusların Azərbaycanda hədəf olaraq seçdikləri ilk xanlığın Gəncə olduğunu qeyd edir [7, s.77-78]. Müəllifin adıçəkilən əsərində, son hökümdar Cavad xanın Gəncəni qəhrəmancasına müdafiə edərkən şəhid olması, şəhərin 2000 şəhid və 18000 əsir verməsi, həmçinin Gəncənin adının I Aleksandrın arvadının şərəfinə Yelizavetpol olaraq dəyişdirilməsi öz əksini tapmışdır [7, s.78].

Osmanlı İmperiyasının Qafqaz siyasətindən bəhs edən tarixçi Camal Gökçe əsərində Gəncə xanlığının işğalına da yer vermişdir. 1804-cü ildə Rusiyanın Gəncə xanlığına işğalçı yürüşündən bəhs edən müəllif yazır: *“Gəncə xanı Cavad xanda daxil olmaqla bir çoxları ruslara qarşı çıxaraq canlarını fəda etdilər. Gəncə xanlığı ruslar tərəfindən işğal edildi”* [3, s.189-190]. Onu da qeyd edək ki, tarixçi C.Gökçe yanlış olaraq əvvəl Şirvanın, sonra isə Şəkinin ruslar tərəfindən 1804-05 illərdə tutulduğunu qeyd edir. Eləcə də o, Sisyanovun 1805-ci ildə Bakıya girməsindən bəhs edir.

Osmanlı İmperiyasının Qafqazla əlaqələrindən bəhs edən, sanballı bir monoqrafiyanın müəllifi olan tarixçi Müfit Sadık Bilge qeyd edir ki, 1803-cü ilin noyabrında Gəncə rus qoşunlarının Qafqazdakı baş komandanı Sisyanov tərəfindən mühasirəyə alındı. Yalnız, 1804-cü il yanvarın 3-də Gəncə xanı Cavad xan və oğlu Hüseyqulunun şəhid olmasından sonra Gəncə işğal edildi. Ruslar

tərəfindən talan edilən Gəncənin adı dəyişdirilərək çariçanın şərəfinə Yelizavetpol adlandırıldı [4, s.167]. Məlumdur ki, əvvəlki illərdən Qacarlar sülaləsinin xanları tərəfindən idarə edilən, fəqət 1804-ci ildə ruslar tərəfindən işğal olunaraq rus çarı I Aleksandrın arvadının şərəfinə Yeizavetpol adlandırılan və rus hərbi idarəsi qurulan Gəncədə xalq, Abbas Mirzənin komandanlığında ruslara qarşı mühüm döyüşlərə qatıldı [16, s.28-29].

Türkiyə tarixşünaslığının digər nümayəndəsi Anıl Çeçen “Türk Devletleri” adlı tədqiqat əsərində qeyd edir ki, Qafqazı istila etməyə çalışan Rusiya Gəncə və Qarabağ xanlıqlarında daha ciddi müqavimətlə üzləşmiş, Gəncə qalası uzun müddət işğalçılara müqavimət göstərmişdi [10, s.286]. Daha sonra müəllif yazır ki, çətin və qanlı döyüşlərdən sonra Azərbaycanın çar Rusiyasının nəzarəti altına keçməsi hüquqi baxımdan bir ölkənin müstəqilliyinə zorla son qoyularaq həyata keçirilən hərbi işğaldır. Müəllif fikrincə, *“ermənilərlə gürcülərin ruslarla müharibədən çəkilməsi Qafqaz və Azərbaycan üçün cəsarət qırıcı bir hadisə olmuşdur”* [10, s.287]. Müəllifin “ermənilərlə gürcülərin ruslara qarşı müharibədən çəkilməsi Qafqaz və Azərbaycan üçün cəsarət qırıcı olmuşdur” tezisi fikrimizcə tənqidi yanaşma tələb edir. Çünki çar Rusiyasını Qafqaza məhz gürcülər dəvət etmişdilər və belə olan halda onların Rusiyaya qarşı hansısa müqavimət hərəkatında iştirakından söhbət gedə bilməzdi. Ermənilərə gəldikdə isə bəhs olunan dövrdə onların bir güc olaraq göstərilməsi düzgün deyil.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə əks-inqilab ilə mübarizə təşkilatının rəisi və bu dövlətin süqutundan sonra mühacir həyatı yaşamağa məcbur olan tarixçi Nağı Keykurunun (Şeyxzamanlı) fikrincə, ruslar ən çətin mübarizəni Gəncə xanlığı ilə edərək çoxlu itkilər vermişdir. Müəllif “Azerbaycan İstiklal Mücadelesinden Hatıralar (1905-1920)” adlı əsərində yazır: *“Şəhərə girən vəhşi rus əsgərləri qarşılarına çıxan hər canlını qəddarcasına məhv edirdilər. Bu rus çarının onlara icazə verdiyi qələbə haqqıdır”* [8, s.5]. Həqiqətən də, Gəncənin süqutundan sonra şəhərdə baş verənlər çox dəhşətlidir və əhalinin kütləvi məhvi tarixçinin diqqətindən yayınmayıb. N.Keykurun yazır: *“Çar qoşunlarının Gəncə və Azərbaycan xalqına etdikləri vəhşət və qəddarlıq unudulmayacaq qədər ağırdır... xalqımız heç bir zaman ruslara isınmamış, onlara həmişə nifrət və kin dolu nəzərlərlə baxmışdırlar. Özünə inanan kənd gəncləri fürsət düşdükcə rus idarəçi jandarmlarını öldürür, sonra da silahlarını alıb dağa çıxardılar”* [8, s.7]. Müəllifin gəldiyi qənaətə görə, baş verənlər heç bir zaman unudulmayacaq faciəvi bir tarixdir. Artıq şərhə ehtiyac qalmır.

Qafqaz tarixinin tədqiqinə həsr olunmuş “Dünden Bugüne Kafkasya” adlı akademik araşdırmanın müəllifi Muharrem Yıldız, böyük əksəriyyəti türk-oğuz boylarına mənsub olan Azərbaycan türklərindən, Gəncə xanlığından sonra digər xanlıqların da zorla Rusiyanın tərkibinə daxil edilməsindən bəhs edir. Müəllifin fikrincə, xanlıqlar arasındakı ziddiyyətlərdən doğan bu böyük fəlakətin acı nəticələrini vaxt keçdikcə anlayan Azərbaycan türkləri yurdlarını, tarixin, taleyin ağrılı oyunlarından, rus zülmündən qorumaq və ondan xilas olmaq üçün qəhrəmancasına mübarizə aparsalar da, baş vermiş fəlakətdən qurtula bilmədilər [9, s.79].

Müəllif C. Taşkıranın fikrincə, Gəncə xanlığının süqutundan sonra digər bütün xanlıqlar bərabər olmayan güc tarazlığı və müxtəlif hiylə yolları ilə süqut etdilər. Qarabağlı İbrahim xan 1805-ci ilin mayında ruslarla anlaşmaq məcburiyyətində qaldı [6, s.68]. Gəncə xanlığının süqutu digər Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalını asanlaşdırdı [17, s.74]. Tarixçi N.Keykuruna görə məğlubiyyətin səbəbi xanlıqlar dövründə Azərbaycanda birliyin olmamasıdır, bu səbəbdən rus imperializmi bunları tək-tək uda bilmişdir. Bununla yanaşı, müəllif, ancaq başlarına gələn bu fəlakətdən sonra xanlıqların öz xalqları ilə birlikdə ruslara qarşı amansız bir mübarizəyə başladığını qeyd edir [8, s.5]. Həqiqətən də, xanlıqların işğala və onların birləşməsinə razılıq verməmələri məğlubiyyətin əsas səbəblərindən biridir. Xanların bu həqiqəti vaxtında başa düşməməsi onların faciəsi oldu.

Azərbaycan əsilli türk tarixçisi Mirzə Bala Məmmədzadə İslam Ensiklopediyasında “Gəncə” adlı maddəsində qeyd edir ki, Gəncəni qırğınlar törədərək işğal edən ruslar, ətrafdan, xüsusilə Osmanlı Dövləti ilə İrandan təsirli bir təzyiq olmadığını görüncə istila hərəkətinə davam etdi [18, s.762-766]. Bu hadisədən sonra Qacarlar Rusiyaya müharibə elan etsə də, bu vəziyyətə elə bir ciddi

təsir göstərmədi və tədricən digər Azərbaycan xanlıqları da zəbt olundu. 1813-cü ildə Qacar İranı və Rusiya arasında imzalanan Gülüstan müqaviləsi Gəncə xanlığının Rusiya tərəfindən işğalını rəsmiləşdirdi.

Osmanlı dövlətinin bu hadisələrə münasibətinə gəlincə, bu dövrdə Osmanlı dövlətinin getdikcə zəifləməsi və bütün cəbhələrdə müharibəyə cəlb olunması təhlükəsi, onun Cənubi Qafqazdakı hadisələrə səssiz qalmasına səbəb oldu. Türk tarixçisi M.S.Bilge qeyd edir ki, Rusiya ilə müharibədən məğlub və yorğun ayrılan Osmanlı dövləti, nə Rusiya, və nə də İranla üz-üzə gəlmək istəməyərək Qafqazdakı hadisələrə müdaxilə etmədi. Onlar sadəcə rusların Qafqazdakı hərəkətini müşahidə edən sərhəd vilayətləri hakimlərinin göndərdikləri hesabatlarla kifayətlənməli oldular [5, s.306].

Göründüyü kimi, Gəncə xanlığı bir ay müddətində imperiyaya ciddi müqavimət göstərdikdən və yalnız ağır artilleriya atəşlərindən sonra şəhər ələ keçirildi. Bütün təfərrüatlara baxmayaraq, Türkiyə tarixşünaslığında Cavad xan başda olmaqla Gəncə xanlığının qəhrəmancasına müdafiəsinin Azərbaycan xalqının tarixində mühüm əhəmiyyət kəsb etməsi qeyd olunur.

## Nəticə

Beləliklə, 1804-cü ildə Gəncə xanlığının rus qoşunları tərəfindən işğalı türk tarixçilərinin araşdırmaları nəticəsində qardaş ölkənin elmi ictimaiyyətinin diqqətinə çatdırılmışdır. Ümumilikdə, tarixi faktlara əsaslanan Türkiyəli müəlliflər hadisələrə obyektiv yanaşaraq çarizmin iç üzünü açmış, onun işğalçı siyasətini tam mənası ilə ortaya qoya bilmişlər. Cənubi Qafqazda baş verən vəhşiliklərə Osmanlı Dövlətinin fəal müdaxilə edə bilməməsi və onu sükutla qarşılaması da tarixçilərin diqqətindən yayınmamışdır. Onu da qeyd edək ki, türk tarixçilər SSRİ-nin dağılmasından sonra araşdırılan mövzuya daha geniş şəkildə təmas edə bilmişlər.

Tədqiqat mövzusundan bəhs edən türk tarixçiləri, Gəncə xanlığının zəbt olunmasının əsas səbəbini birbaşa çarizmin yeritdiyi işğalçı siyasətin nəticəsi kimi dəyərləndirirlər. Məğlubiyyətin səbəbinə gəldikdə isə, tarixçilərin fikrincə bu, işğal ərəfəsində xanlıqların birləşə bilməməsi və özlərini qorumaları üçün ciddi tədbirlər görməməsi, Qacar İranı və Osmanlı Türkiyəsinin bu hadisələrdən çox uzaqda qalması ilə bağlı idi. Digər tərəfdən isə əlbəttə ki, güc tarazlığının Gəncə xanlığının xeyrinə olmaması və yerli ermənilərin təxribatı nəticəsində xanlığın yaranan daxili gərginlik üzündən işğalçılara qarşı tam qüvvəsi ilə çıxa bilməməsi bura daxil edilməlidir. Məlumdur ki, işğal nəticəsində Gəncə xanlığı çar Rusiyasının ucqar bir vilayətinə çevrildi və Gəncə şəhəri Yelizavetpol adlandırıldı.

Türk tarixçilərinin gəldiyi qənaətə görə, Gəncə xanlığının müdafiəsi Azərbaycan xalqının qəhrəmanlığını bir daha sübut edən mühüm tarixi hadisələrdən biridir. Problemin araşdırılmasının tarixşünaslığımız üçün başlıca elmi əhəmiyyəti də bundan ibarətdir.

## İstifadə edilmiş ədəbiyyat

1. Saray, M. Azerbaycan Türkleri Tarihi / M.Saray. – İstanbul: İstanbul Matbaası, – 1993. – 149 s.
2. Saray, M. Yeni Türk Cumhuriyetleri Tarihi / M.Saray. – Ankara: Türk Tarih Kurumu, – 2014. – 514 s.
3. Gökçe, C. Kafkasya ve Osmanlı İmparatorluğunun Kafkasya Siyaseti / C.Gökçe. – İstanbul: Şamil Eğitim ve Kültür Vakfı, – 1979. – 253 s.
4. Bilge, M.S. Osmanlı Devleti ve Kafkasya – Osmanlı Varlığı Döneminde Kafkasyanın Siyasi-Askeri Tarihi ve İdari Taksimatı (1454-1829) / M.S.Bilge. – İstanbul: Eren Yayınçılık, – 2005. – 295 s.
5. Bilge M.S. Osmanlı Çağında Kafkasya (1454-1829) / M.S.Bilge. – İstanbul: Kitapevi, – 2012. – 306 s.
6. Taşkiran, C. Keçmişten Günümüze Karabağ Meselesi / C.Taşkıran. – Ankara: Genelkurmay Basımevi, – 1995. – 258 s.

7. Yücel, C. Dış Türkler / C.Yücel. – İstanbul: Hun Yayınları, – 1976. – 174 s.
8. Keykurun, N. Azerbaycan İstiklal Mücadelesinden Hatıralar (1905-1920) / N.Keykurun. – Ankara: İlke Kitabevi Yayınları, – 1998. – 217s.
9. Yıldiz, M. Dünden Bugüne Kafkasya / M.Yıldiz. – İstanbul: Yitik Hazine Yayınları, – 2006. – 384 s.
10. Çeçen, A. Türk Devletleri / A.Çeçen. – İstanbul: Togan Yayınçılık, – 2014. – 567 s.
11. Osmanli Devleti ile İran arasında yapılmış olan sulhun devamli olmasının istenmesi Çıldır valisi Sabit paşanın Sadarete yazdığı tahrirat (Çıldır: 23 iyul 1800) // Başbakanlık Osmanlı Arşivleri (BOA), Hatt-i-Hümayun fondu (HAT), g.161, b.6721F
12. Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasibetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy) 1578-1914, I kitab / – Ankara: Başbakanlik Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanliği Yayınları, – 1992. – 427 s.
13. Osmanli Devleti Ile Azerbaycan Türk Hanliklari Arasindaki Münasebetlere Dair Arşiv Belgeleri Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy II (1575-1918) / – Ankara: Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı Yayınları, – 1993. – 279 s.
14. Osmanli Devleti ile Kafkasya, Türkistan ve Kırım Hanlıkları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri (1687-1908) / – Ankara: Başbakanlik Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı Yayınları, – 1992. – 240 s.
15. Saydam, A. Kırım ve Kafkas Göçleri (1856-1876) / A.Saydam. – Ankara: Türk Tarih Kurumu, – 2010. – 235s.
16. Umudoğlu, V.U. Kuzey Azerbaycanın çar Rusyası tarafindan işğali ve sömürgeçilige karşı mücadele (1801-1826) // Aktaran C.Yavan, Türk Dünyası Araşdırmaları sayı, 124, – İstanbul, – 2000. – s. 55-76;
17. Umudlu, V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğal olunması və müstəmləkəçilik əleyhinə mübarizə / V.Umudlu. – Bakı: Elm, – 2004. – 183 s.
18. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, – İstanbul: TDV Yayınları, – c.IV, – Gence, – 1991. – 766 s.

**Аннотация**
**Завоевание Гянджинского ханства царской Россией в историографии Турции**
**Видади Умудлу**

Основная цель статьи – определить степень изучения в турецкой историографии оккупации царской Россией древней азербайджанской земли Гянджинского ханства в начале XIX века. Следует отметить, что оккупация Гянджинского ханства царской Россией является одной из наиболее обсуждаемых тем в историографии Турции. В статье анализируется и доводится до сведения научного сообщества, проведенного в историографии Турции, о героической борьбе Гянджинского ханства во главе с Джавад-ханом против русского завоевания. Турецкие историки, которые отличались объективностью в отношении исследуемой проблемы, пытались выносить суждения на основе архивных документов. В статье также использовались архивные документы и книги на основе архивных документов.

**Ключевые слова:** Северный Азербайджан, царская Россия, Гянджинское ханство, Джавад хан, оккупация, турецкие историки.

**Abstract**

**The conquest of the Ganja khanate by tsarist Russia in the historiography of Turkey**

**Vidadi Umudlu**

The main goal of the article is to determine the degree of study in Turkish historiography, the occupation by the tsarist Russia of the ancient Azerbaijani land of the Ganja Khanates, at the beginning of the 19th century. It should be noted that, the occupation of the Ganja Khanate by tsarist Russia is one of the most discussed topics in the historiography of Turkey. The article analyzes and brings to the attention of the scientific community, carried out in the historiography of Turkey, about the heroic struggle of the Ganja Khanate led by Javad Khan against the Russian conquest. The Turkish historians, who differed in their objectivity in relation to the problem under investigation, tried to make judgments based on archival documents. The article also used archival documents and books based on archival documents.

**Keywords:** Northern Azerbaijan, Tsarist Russia, Ganja Khanate, Javad Khan, occupation, Turkish historians.

*Məqalə redaksiyaya daxil olmuşdur: 07.03.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 11.04.2020*
*Çapa qəbul edilmişdir: 08.05.2020*

**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№2 (6)/2020, səh. 25-31**


UOT 355/359

# AZƏRBAYCAN ORDUSUNDA KADR TƏMİNATI VƏ TEXNOLOGİYALARI

**f.-r.ü.f.d. Möhübbət Rəsulov**
*Silahlı Qüvvələrin Hərbi Akademiyası*

***Xülasə.*** Məqalədə Azərbaycan Ordusunda kadr təminatının məzmunu açıqlanır, kadr təminatı prosesləri, tətbiq olunan texnologiya və idarəetmə metodlarının, həmçinin onların tətbiqi prosesində yaranan problemlərin təhlili verilir, qarşıda duran prioritet məsələlər tədqiq edilir.
**Açar sözlər:** kadr təminatı, kadr işi, kadr texnologiyaları, insan potensialı, insan resursları, elmi idarəetmə.

Dünyada baş verən köklü islahatlar Silahlı Qüvvələrdə (SQ-də) də adekvat proseslərin həyata keçirilməsini zəruri edir. SQ-nin fəaliyyətinin səmərəliliyi kadr potensialının formalaşdırılması və saxlanması, yüksək rəhbər vəzifələrə müasir elmi təfəkkürlü, peşəkar, qarşıya çıxan ziddiyyətləri dəf edə bilən, sürətli qərar qəbul etməyi bacaran, dayanıqlı mənəvi-əxlaqi keyfiyyətlərə malik hərbi qulluqçuların təyin edilməsi probleminin həll edilmə səviyyəsindən asılıdır.

Müasir xidməti-döyüş fəaliyyətinin mürəkkəb və dinamik xarakteri, bu fəaliyyətlərdə yeni texnologiyaların tətbiqi, yeni silah-sursat və hərbi texnika növlərinin silahlanmaya daxil edilməsi, bununla əlaqədar təşəbbüskar və müasir düşüncəli mütəxəssislərə tələbat, hərbi xidmətdə ənənəvi metod və formalardan informasion, inkişafetdirici və düşündürücü formalara keçilməsi, həmçinin hərbi qulluqçuların passiv icraçıdan aktiv iştirakçıya çevrilməsi tendensiyası peşəkar hərbi kadrların yetişdirilməsi sisteminin təkmilləşdirilməsini, bu məqsədlə yeni metod və vasitələrin tətbiqini zəruri edir.

AO-da müasir dövrün tələblərinə uyğun olaraq aparılan islahatlar bir sıra hərbi-kadr problemlərinin həllini və bu istiqamətdə yeni yanaşmaların ortaya qoyulmasını şərtləndirir. “SQ-də kadr siyasəti konsepsiyası”nda [1] nəzərdə tutulan müddəalar hərbi qulluqçuların peşəkarlığının artırılmasına, zabit nüfuzunun, həmçinin bütövlükdə SQ-nin döyüş hazırlığının və döyüş qabiliyyətlərinin yüksəldilməsini təmin edən tədbirlərin həyata keçirilməsinə imkan verir.

SQ-də müasir hərbi-kadr siyasətinin reallaşması mexanizmlərinin tədqiqi idarəetmə praktikası və nəzəriyyəsində əsas problemlərdən biridir.

**Kadr təminatı.** SQ-də insan resurslarının idarə edilməsi (İRİE) sisteminin kadr təminatı dedikdə, kadr xidmətinin zəruri kəmiyyət və keyfiyyətə malik şəxsi heyəti (kadr orqanlarında xidmət keçən hərbi qulluqçular, dövlət qulluqçuları və mülki işçilər) başa düşülür. SQ-də kadr işinin səmərəliliyi kadr orqanlarında çalışan personalın peşəkarlığından və səriştəliliyindən asılıdır. Kadr orqanı işçilərinin səriştəsi onların İRİE üzrə rəhbəredici sənədlərin (qanunlar, qərarlar, sərəncamlar, təlimatlar, əmrlər və s.) tələblərini bilmə səviyyəsi, kadr işində təcrübəsi, bacarıq və vərdişləri ilə müəyyən olunur. Hər bir təşkilatda olduğu kimi, SQ-də də kadr işinin keyfiyyəti kadr orqanı işçilərinin peşəkarlığından asılıdır.

Apardığımız araşdırmaların nəticəsində müəyyən edilmişdir ki, SQ-nin kadr orqanlarında hələ də peşəkarlığı lazımi səviyyədə olmayan kadr orqanı işçiləri vardır. Bunların bir qismi kadr xidmətinə yeni qəbul olunmuş kifayət qədər təcrübəsi olmayan zabitlərdir və onlar digər hərbi uçot ixtisaslarından “kadrlarla iş” hərbi uçot ixtisasına dəyişmişlər. Bu kateqoriyalı hərbi qulluqçuların kadr orqanlarında yerləşdirilməsinin obyektiv səbəbləri vardır. Bir çox ölkələrin ali təhsil sistemində sırf “kadrlarla iş” ixtisası nəzərdə tutulmadığından həm mülki, həm də hərbi təşkilatlarda kadr orqanlarının ştatları digər ixtisaslardan olan mütəxəssislərlə komplektləşdirilir.

Kadr işində yeni tendensiyaları (kadrların idarə edilməsində taktiki yanaşmadan strateji yanaşmaya keçilməsi) və müasir tələbləri nəzərə alsaq, təcrübəsi olmayan şəxslərin kadr orqanlarında fayda verəcəyini düşünmək doğru deyil. SQ-də digər hərbi uçot ixtisaslarından “kadrlarla iş” hərbi

uçot ixtisasına keçirilən zabitlər, bir qayda olaraq, hərbi hissələrdə kadr bölmə rəisinin köməkçisi vəzifəsinə təyin olunurlar. Həmin zabitlər təhsil aldıqları hərbi uçot ixtisasları üzrə nəzəri biliklərə və praktik vərdişlərə yiyələnsələrdə, kadr orqanlarının qarşısında qoyulan tapşırıq və vəzifələr, həmçinin kadrların idarə edilməsi üzrə fəaliyyətlər haqqında səthi bilgilərə malik olurlar. Kadrların idarə edilməsinin nəzəri əsaslarını (metodları, prinsipləri və vasitələri) dərindən bilməməsi və praktik təcrübəyə malik olmaması həm onların özləri, həm də rəisləri üçün böyük çətinliklər yaradır. Bir tərəfdən hərbi hissənin təyinatını, strukturunu, şəxsi heyətə qoyulan tələbləri, vəzifələrin xüsusiyyət və tələblərini bilmə zəruriliyi, digər tərəfdən son dövrlər elmi-texniki tərəqqinin sürətlə inkişafı, yeni texnologiyaların yaranması, yeni növ silah, sursat və texnika növlərinin silahlanmaya daxil edilməsi, həmçinin idarəetməyə strateji yanaşma meyillərinin artması kadr işçiləri qarşısında yeni vəzifə və tələblər qoyur.

Yuxarıda sadaladığımız problemlər bir çox xarici ölkələrin silahlı qüvvələrində mövcuddur. Bu problemlərin müvəffəqiyyətli həlli bütün səviyyəli idarəetmə subyektlərini düşündürür. Kadr orqanlarına yeni qəbul olunan zabitlərin yetişdirilməsi və gələcəkdə müvəffəqiyyətlə xidmətini davam etdirməsi üçün aşağıdakı metoddan istifadə etmək olar.

SQ-də insan resurslarının idarə edilməsi üzrə mütəxəssislərin (hərbi hissələrin kadr bölmə rəisləri və onların köməkçiləri) ixtisas hazırlığının səviyyəsinin yüksəldilməsi məqsədilə ildə ən azı bir dəfə "hərbi kadrlarla iş" hərbi uçot ixtisası üzrə ixtisasartırma kursları təşkil edilə bilər. Bu kursların təşkil edilməsinin məqsədi, kadr bölmə rəislərinin köməkçilərinə insan resurslarının idarə edilməsi üzrə nəzəri metodoloji biliklərin verilməsi və praktik vərdişlərin aşılanmasıdır. Kursun davametmə müddəti, planı və proqramı SQ-nin yuxarı idarəetmə orqanlarının qərarı əsasında müəyyən edilir, dərslər müvafiq idarələrinin aparıcı mütəxəssisləri (hərbi qulluqçular və dövlət qulluqçuları) tərəfindən aparılır. Kursda tədris olunan mövzular nəzəri və praktik xarakterlidir. Kursun başlanmasına ən azı bir ay qalmış iştirakçıların sayı, kursun keçirilmə vaxtı, müddəti, yeri, proqramı müəyyənləşdirilir, müvafiq vəzifəli şəxs tərəfindən təsdiq olunur. Kursun sonunda dinləyicilərdən test üsulu ilə imtahan götürülür və müvəffəqiyyət qazanmış namizədlərə sertifikat verilir. Kursun effektivliyini və namizədlərin məsuliyyətini artırmaq məqsədilə yekunda imtahan keçirilir. Onların topladığı balların miqdarından asılı olaraq qeyri-müvəffəq qiymət alan namizədlər "hərbi kadrlarla iş" hərbi uçot ixtisasından uzaqlaşdırılaraq ilkin hərbi uçot ixtisaslarına qaytarıla bilərlər.

Kadr orqanı işçilərinin peşəkarlıq səviyyəsinin artırılması metodlarından biri də kadr işinin planlı yoxlanılmasının həyata keçirilməsidir. SQ-də kadr orqanı işçilərinin fəaliyyətinə nəzarət məqsədilə ildə iki dəfə kadr işinin planlı yoxlanılması həyata keçirilə bilər. Yoxlamada əsas məqsəd kadr orqanı işçilərinə metodiki yardımın göstərilməsidir. Yoxlama zamanı kadr orqanı işçilərinin praktik fəaliyyəti, tələb olunan uçot və normativ sənədlərin mövcudluğu və aparılması keyfiyyəti üzə çıxarılmaqla yanaşı, onların normativ hüquqi sənədlərin (rəhbəredici sənədlərin) tələblərini bilmə səviyyəsi, peşə bilikləri, bacarıq və vərdişlərinin keyfiyyət göstəriciləri də müəyyənləşdirilir. Kadr orqanı işçilərinin fəaliyyətinin yoxlanılmasının nəticəsi "Yoxlama aktında" əks olunur [2].

Dövlət hərbi kadr siyasətinin əsas elementlərindən biri də onun reallaşmasının *təşkilati-iqtisadi təminat mexanizmidir*. Bu mexanizm hərbi kadr xidmətinin strukturunu, funksiyalarını, onun fəaliyyətinin forma və metodlarını, kadr işinin məqsəd və tapşırıqlarının işlənməsini (hazırlanmasının, müəyyənləşməsinin), müvafiq fəaliyyətlərin bilavasitə həyata keçirilməsi və onlara nəzarət edilməsi prosesini tənzimləyir [3].

Hərbi kadrların formalaşdırılması sisteminin fəaliyyətinin təşkilati-iqtisadi mexanizmində hərbi qulluqçuların peşə-vəzifə və ixtisas strukturuna, eləcə də funksional vəzifələrinə əsaslanan müasir tələblərin obyektiv qiymətləndirilməsi önəmlidir.

Hərbi İRİE-nin *elmi informasiya təminatının* əsas məqsədi, SQ-nin müvafiq struktur bölmələrində formalaşan və reallaşan hərbi kadr siyasətinin infrastruktur subyektlərinin səmərəli qarşılıqlı təsirini təmin edən informasiya fazası (ordu və donanmada hərbi kadr potensialı haqqında birləşdirilmiş məlumat bazasının mövcudluğu, zabit kadrların (xüsusilə yüksəkrütbəli)

monitorinqinin aparılması, kadr resurslarının təhlili və s.) yaratmaqdır. Şəkil 1-də insan resurslarının idarə edilməsinin təminatının tərkibi verilmişdir.




**Şəkil 1. İnsan resurslarının idarə edilməsinin təminatları**

Hərbi İRİE-nin *tədris metodiki təminatı* tədris prosesinə müasir innovasiya proqramları və texnologiyalarının tətbiqi, tədris prosesinin elmi metodiki vəsait, tədris proqramı, trenajorlar, həmçinin tədris prosesində müasir tələblərə cavab verən hərbi peşə təhsili standartlarının dəstəklənməsinə istiqamətlənir.

Təhsilin innovativliyinin təmin olunmasında qarşıya çıxan əsas ziddiyyət müasir dünyada biliklərin sürətli inkişafı ilə bağlı olaraq onların öyrənənlər tərəfindən mənimsənilməsindəki uyğunsuzluqdur [4].

Tədris prosesinin təkmilləşdirilməsinin perspektiv istiqamətlərindən biri müxtəlif innovasiya texnologiya və metodlarından istifadə etməklə kompüterləşmədir. Tədris prosesində informasiya-kommunikasiya texnologiyalarının aktiv tətbiqi professor-müəllim heyətində təhsilalanların idrak (qavrama) fəaliyyətinin idarə edilməsi üçün tamamilə yeni imkanlar yaradır.

Hərbi kadr siyasətinin hüquqi bazası hərbi kadrlarla iş qaydasını, hərbi xidmətin müddətini, hərbi kadr hazırlığının formalarını, silahlı qüvvələrdə xidmət keçmənin digər qaydalarını, həmçinin hərbi qulluqçulara xidmət zamanı və xidmətdənkənar vaxtlarda qoyulan tələbləri və standartları (normaları) müəyyən edir.

Bütövlükdə, SQ-də kadr siyasətinin formalaşması və reallaşması mexanizmləri yüksək peşəkarlığa malik hərbi kadr heyətinin formalaşdırılmasının müxtəlif normativlərini əks etdirir.

SQ-də insan resurslarının idarə edilməsi üzrə fəaliyyətlər kadr texnologiyalarının köməyi ilə reallaşdırılır [5].

Kadr texnologiyaları (KT) personalın statusu və xarakteristikasına görə ardıcıl fəaliyyətlər, üsullar, əməliyyatlar məcmusu olub, işçinin xidməti vəzifəsinin icra xarakterinə uyğunluğu, onun əməyinin səmərəliliyi, işgüzar, peşəkar və şəxsi keyfiyyətlərin işin tələblərinə uyğunluğunun müəyyən edilməsi və onun əsasında hərbi qulluqçuların planlaşdırılması, seçilməsi, yerləşdirilməsi (vəzifəyə təyin olunması), hazırlanması, yenidən hazırlanması, karyera inkişafı, qiymətləndirilməsi prosesləri həyata keçirilir.

İRİE prosesi o halda texnoloji olur ki, o dəqiq, real nail oluna bilən məqsəd, metodiki işlənmiş prosedur və qaydalar əsasında həyata keçirilir. Bunun üçün rəhbərlərin və kadr xidməti mütəxəssislərinin müəyyən peşəkar bilik və təcrübəyə malik olması əsas şərtdir. Həmçinin yerinə yetirilən işin səmərəliliyinin müntəzəm olaraq qiymətləndirilməsini aparmaq üçün kadr fəaliyyətini nizamlayan sənədlərin varlığı zəruridir.

Fəaliyyət subyekti kimi ümumi idarəetmə texnologiyalarının təsir obyekti insandır. İdarəetmə texnologiyaları insanın davranışına, əlverişli idarəetmə mühitinin yaradılmasına, mütəşəkkilliyə, intizama, etibara təsir göstərməklə idarəetmənin məqsədlərinə uyğun olaraq, personalın əməyə

münasibətinin dəyişməsini və müəssisənin sosial kapitalının formalaşmasını təmin edir. İnsan həm də təşkilatda, peşə qabiliyyətli olması ilə sosial rol oynayır.

Kadr texnologiyaları əsasında təşkilatda insanın peşə təcrübəsinin tələbləri və çoxaldılması mexanizmi formalaşır. Onların təsir obyekti insanın ixtisas (peşə) qabiliyyətidir ki, bu da onun peşəkar inkişafının nədən asılı olması, vəzifə statusunun dəyişməsi, imkanlarının reallaşması və əməyinin adekvat mükafatlandırılması haqqında tam məlumat almağa imkan verir.

Hər bir KT-nin prinsipləri, prosedur məxsusiyyətləri, səmərəlilik meyarları vardır və onlar hamısı müəyyən tələblərə cavab verməlidir: sosial şərtlənmə, müvafiq şərtlərin varlığı; nəticənin əsaslandırılmış olması və məqsədyönlülüyü; KT-nin məqsədlərinə nailolma imkanı; qənaətcillik və informasiya təminatlı olması; səmərəli kadr qərarlarının qəbulu üçün şərtlərin təmin edilməsi; normativ müəyyənliliyi (normativ hüquqi aktların varlığı); hüquqi ziddiyyətsizlik (ziddiyyətin olmaması); təşkilatla personalın məqsədinin uzlaşması; kadr qərarları ilə nəticənin fərdiləşdirilməsi.

KT-nin hüquqi və normativ şərtini "Əmək məcəlləsi", Qanunlar, Prezident sərəncamı, Nazirlər kabinetinin qərarları və lokal normativ hüquqi aktlar müəyyən edir.

KT-nin reallaşma mexanizmləri onların tətbiqini təmin edən aşağıdakı əsaslara söykənir:

*Elmi əsaslar*: müəssisənin daxili və xarici mühitinin daim dəyişməsi şəraitində personalın fəaliyyət xüsusiyyətlərini nəzərə almaqla KT tətbiqi üzrə metodik göstərişlərlə təmin edilir.

*Təşkilati əsaslar:* idarəetmənin təşkilati strukturunun və vəzifəli şəxslərin KT-nin işlənməsi, reallaşdırılması və təkmilləşdirilməsi üzrə səlahiyyətlərini, kompetensiya və məsuliyyətini müəyyən edir. Təşkilati əsaslar KT-nin inzibati – sənəd təminatı KT-nin prosedur xarakterini müəyyən edən (əmr, sərəncam, plan, təlimat, proqram) imkanları yaradır.

*Maddi maliyyə əsasları:* maddi təminat və maliyyələşmə KT-nin (personalın qiymətləndirilməsi, proqram təminatı, müstəqil ekspertlərin əmək haqqı) maddi təminatı və maliyyələşməni təmin edir.

*İnformasion əsaslar:* bu və ya digər KT-nin zəruriliyi, onların innovativliyini, praktikada lazımlılığını, hüquqi nizamlamada zəruriliyini, göstərilən nəticəni verə biləcəyini, həmçinin maddi maliyyə təminatının təhlilini müəyyən edən kadr üzrə məlumatların toplanması, saxlanması və ümumiləşdirilməsinə imkan verən kadr proseslərini və münasibətlərini nəzərdə tutur.

*Peşəkar kadr əsasları*: idarəetmə personalının qarşısına qoyulmuş məqsədlərə nail olmaq üçün KT-dan istifadə təşkilatın faktiki imkanlarını müəyyən edir. O təmin edir: kadr işinin reallaşmasında kadr idarəetmə xidmətinin mütəxəssislərinin hazırlığını; kadr texnoloji təsirin subyekti rolunda çıxış edən rəhbərlərin kadr mədəniyyətinin müəyyən səviyyəsini; personalın (kadr-texnoloji təsirin subyekti) kadr texnologiyalarına şüurlu münasibətini; təşkilatda öz şəxsi məqsədlərinə nail olmaq üçün onların əhəmiyyətini qiymətləndirmək qabiliyyətini.

Kadr texnologiyalarından istifadənin səmərəlilik şərtləri kimi: elmi işlənmə və metodiki təmin edilmə, təcrübədən keçirilmə; hüquqi müəyyənlik və normativ təminatlılıq; məlumatların emalının sənədli və informasion analitik məqsədyönlülüyü; personalın şəxsi keyfiyyətlərindən və fəaliyyət şərtlərindən asılı olaraq kadr texnologiyalarının tətbiqində məxsusiyyətlərin nəzərə alınması; texnologiyalardan istifadənin nəticələri üzrə qərarların mühümlüyü; texnologiyaların tətbiqinin maliyyə təminatlı olmasını qeyd edə bilərik.

KT qarşılıqlı surətdə bir-bir ilə bağlıdır və bir-birini tamamlayır, real idarəetmə praktikasında onlardan biri digəri olmadan əksər hallarda reallaşdırıla bilmir. Onlara kadr texnologiyalarının bazası kimi də baxmaq olar.

Beləliklə, KT İRİE strukturuna daxildir, özünün spesifikası, təsir obyekti var və mühüm idarəetmə funksiyasını yerinə yetirir [6], hərbi xidmətdə tətbiq olunan normativ hüquqi əsaslarla həyata keçirilir ki, bu ona legitimlik verir. Bu o deməkdir ki, KT nəticələrinin tətbiqi və istifadəsi üzrə kadr xidmətinin mütəxəssis və rəhbərinin fəaliyyəti ciddi reqlamentlənir; KT-nin məzmunu əlçatan və kimə tətbiq olunması onlar tərəfindən anlaşılan olmalıdır; KT insanların hüququnu pozmamalı, şəxsi ləyaqətini alçaltmamalı, onların xidmətinə aid olmayan informasiyanın (sağlamlığı

ilə bağlı) əldə edilməsi və yayılmasına gətirməməlidir; KT-nin tətbiqi hüququ o şəxslərə aiddir ki, onların vəzifə borcudur aiddir və bunun üçün onlar kifayət qədər ixtisaslaşmaya malikdir.

Hərbi xidmətdə KT-nin tətbiqinin normativ hüquqi bazası hərbi xidmət keçməni nizamlayan qanunlar, sərəncamlar, qərarlar və əmrlərdir.

Qeyd etmək lazımdır ki, dövlət mülkiyyətində olmayan müəssisələrin çoxunda kadr texnologiyalarının heç də hamısı tətbiq edilmir. Lakin onların əksəriyyətində attestasiya, vəzifələrin konkurs əsasında tutulması, kadr ehtiyatının yaradılması və istifadəsi üzrə kadr texnologiyaları vardır. Hazırda bir çox ölkələrdə kadrların karyera inkişafı, kadrların rotasiyası, ixtisas (dərəcə) imtahanları (güc strukturunda) və s. bir sıra normativ sənədlərlə tənzimlənir.

KT rəhbərlərə və kadr xidməti işçilərinə təşkilatda kadr münasibətləri, kadr proseslərinin vəziyyəti haqqında məlumat əsasında personal üzrə zəruri fəaliyyətləri həyata keçirməyə imkan verir. Bu fəaliyyətlərin xarakteri, məzmunu, istiqaməti müxtəlif ola bilər – işçilərin cəlb edilməsindən, işdən xaric etməyə qədər.

Müxtəlif müəssisələrdə kadr texnologiyalarından istifadənin özünəməxsusluğu vardır. Bütün hallarda kadr texnologiyalarının nəticələrindən normativ sərhədlər çərçivəsində istifadə edilir.

İRİE texnologiyalarının reallaşdırılmasında təsir üsulundan asılı olaraq, əsasən, inzibati, iqtisadi, sosial-iqtisadi, sosial-psixoloji idarəetmə metodlarından istifadə edilir.

İdarəetmə metodu təşkilatın məqsədlərinə nail olmaq üçün personala idarəedici təsir üsullarıdır.

İnzibati metodlar personala idarəedici təsir olub, hakimiyyətə, səlahiyyətə, intizama və cəzalandırmaya əsaslanır.

SQ-də inzibati metodların:

– təşkilati təsiri: təlimatlar, normativlər, metodik vəsaitlər;
– inzibati təsiri: töhmət, cərimə sanksiyaları, hərbi xidmətdən azad edilmə;
– sərəncamverici təsiri: əmrlər, sərəncamlar, normativ sənədlər;
– stabilləşdirici təsiri: peşə standartları, vəzifə təsvirləri, daxili normativ hüquqi aktlar, sərəncamlar vasitəsilə həyata keçirilir.

Hərbi idarəetmədə sosioloji metodlar (SPM) (anketləşdirmə, testləşdirmə, sorğu, müsahibə və s.) vacib rol oynayır, belə ki, hərbi kollektivdə hərbi qulluqçunun yeri, əhəmiyyəti və rolunu müəyyən etməyə, liderləri üzə çıxarmağa imkan verir, onların dəstəklənməsini təmin edir. Hərbi qulluqçuların motivasiyasını son nəticə ilə əlaqələndirir, hərbi kollektivdə ziddiyyətlərin həllini və səmərəli kommunikasiyanı təmin edir.

SQ-də insan resurslarının idarə edilməsinin sosial psixoloji metodları mənəvi motivasiyaya əsaslanır və hərbi qulluqçuların sosial aktivliyini yüksəltmək məqsədilə tətbiq olunur. Onların köməyi ilə hərbi qulluqçuların şüuruna, sosial etnik, dini və digər maraqlarına təsir edilir və hərbi xidmətin mənəvi stimullaşması həyata keçirilir.

SPM özündə sosial psixologiyanı və insanı öyrənən digər elmlər tərəfindən işlənmiş müxtəlif formalı üsul və vasitələri saxlayır.

İdarəetmənin SPM-ni aşağıdakı kimi təsnifatlandırmaq olar: kadrların idarə edilməsində geniş istifadə olunan metodlar (test, anket, müsahibə, söhbət, sorğu); ekstremal problemlərin həlli üçün mütəxəssislərin həyata keçirdiyi tədqiqat metodları: açıq müşahidə, eksperiment; aktiv təlim metodları: işgüzar oyunlar, idarəedici şərait.

Ümumiyyətlə, SQ-də idarəetmənin ən güclü metodu kimi yaradıcılıq məsələlərinin həlli nəzəriyyəsi (YMHN) sisteminin tətbiqi mümkündür [6].

YMHN əsası 1946-cı ildə H.S. Altşuller tərəfindən işlənmişdir. Onun əsas ideyaları: optimal və superoptimal həllin (qərarın) axtarılması və işlənməsi obyektiv qanunauyğunluqlara əsaslanmalıdır; bu proses konkret şəxsin subyektiv münasibətindən (onun intuisiyasından, anadan gəlmə istedadından və s.) asılı olmamalıdır.

YMHN-nin məqsədi təsadüfi elementləri ( qəfil və qabaqcadan gözlənilməz, bilinməyən, kor-koranə seçim və insanın əhvalından (kefindən) asılı olaraq variantların atılması və s.) istisna etməklə qərar (həll) axtarışı prosesini sürətləndirməkdir. YMHN-nin məqsədlərindən biri də psixoloji

inersiyanı (durğunluğu) aradan qaldırmaq və yaradıcı təfəkkürü gücləndirməklə işlənən qərarın səviyyəsini və keyfiyyətini yüksəltməkdir. Bu gün YMHN texniki sahələrdə daha çox tətbiq edilir, lakin onun əsas prinsiplərini dövlət idarəçiliyində, hərbi idarəetmədə, siyasətdə və s. sahələrdə idarəetmə qərarlarının qəbulu zamanı tətbiq etmək olar.

SPM personalla işdə konkret şəxsə istiqamətlənir, insanlın daxili aləmini, intellektini, hisslərini, həyat tərzini, davranışını, daxili potensialını zəruri istiqamətə yönləndirmək məqsədilə tətbiq edilir.

SPM-in tətbiqi hərbi kollektivdə səmərəli psixoloji mühit formalaşdırmaq üçün personalla işin yeni istiqaməti olan psixoloji planlaşdırmaya əsaslanır, insanın hərtərəfli inkişafı konsepsiyasının zəruriliyindən qaynaqlanır, hərbi kollektivin deqradasiyasını, mənfi tendensiyaları aradan qaldırır. Psixoloji planlaşdırmanın məqsədi inkişaf məqsədlərinin müəyyənləşdirilməsi, səmərəlilik meyarlarının, psixoloji normaların, psixoloji mühitin planlaşdırılması metodlarının işlənməsi və son nəticəyə nail olunmasıdır.

AO-da İRİE sisteminin və onun əsas metodlarının təkmilləşdirilməsi sistemli təhlil, dekompozisiya, cari və strateji məqsədlərin strukturlaşdırılması, ekspert analitik, təcrübə (sınaq), balanslaşdırma metodları vasitəsilə reallaşdırıla bilər.

Son olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Ordusunun İRİE sistemində personalın effektiv seçilməsi üsulları, təhsil və ixtisasartırma, təltif, mükafatlandırma, stimullaşdırma və motivasiya, korporativ mədəniyyət, sosial faktorlar və bu kimi digər məsələlərin aktuallığına əsaslanan metod və prinsiplər tətbiq olunur.

## Nəticə

Azərbaycan Ordusunun qarşısına qoyulan vəzifələri yüksək səviyyədə həyata keçirə bilən kadr ehtiyatının formalaşdırılması və gələcəkdə daha da inkişaf etdirilməsi məqsədilə müəyyən edilmişdir:

– kadr siyasəti onun fəaliyyətlərini hərtərəfli təmin edən təminatlar (kadr, sosial-iqtisadi, informasiya, maddi-maliyyə, hüquqi və s.) vasitəsilə həyata keçirilir;

– kadr təminatının bütün elementləri normativ-hüquqi aktlarla möhkəmləndirilir;

– kadr təminatı hərbi xidmətin spesifikası, funksiyaları və xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilir;

– insan resurslarının idarə edilməsi kadr siyasətinin tələblərini nəzərə alaraq, kadr texnologiyalarının tətbiqi ilə həyata keçirilir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublıkası Silahlı Qüvvələrində kadr siyasəti konsepsiyası. – Bakı: Hərbi Nəşriyyat, – 2016. – 16 s.

2. Azərbaycan Ordusunda kadr orqanlarının fəaliyyəti haqqında Təlimat. – Bakı: Hərbi Nəşriyyat, – 2018. – 105 s.

3. Вейлл, П. Искусство менеджмента. / Пер. с англ. Козыревой И.Б. – М.: Новости, – 1998. – 224 с.

4. Piriyev, H., Rəsulov, M., Ağayev, Ş. Hərbi təhsil sistemində innovasiya texnologiyaları // Milli Təhlükəsizlik və Hərbi elmlər, – 2017. № 4(3), – s. 6-12.

5. Смолкин, А.М. Менеджмент: основы организации: Учебник / А.М.Смолкин. – М.: ИНФРА-М, – 2002. – 248 с.

6. Тартыгашева, Г.В. Механизмы регулирования кадровых процессов и отклонений в органах государственной власти / Г.В.Тартыгашева. – М.: Государственная служба России: проблемы становления и развития, – 2001. – с. 217.

**Аннотация**
**Кадровая поддержка и технологии в Азербайджанской Армии**
**Мохуббат Расулов**

В статье описывается содержание кадрового состава в армии Азербайджана, анализируются кадровые процессы, применяемые технологии и методы управления, а также проблемы, возникающие в процессе их применения, а также рассматриваются приоритетные вопросы.

**Ключевые слова:** кадровая поддержка, кадровая работа, кадровые технологии, человеческий потенциал, человеческие ресурсы, научный менеджмент.

**Abstract**
**Personnel support and technologies in the Azerbaijani Army**
**Mohubbat Rasulov**

The article describes the content of staffing in the Azerbaijani Army, analyzes staffing processes, applied technology and management methods, as well as the problems that arise in the process of their application, and explores the priority issues.

**Keywords:** personnel support, personnel work, personnel technologies, human potential, human resources, scientific management.

*Məqalə redaksiyaya daxil olmuşdur: 15.02.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 14.03.2020*
*Çapa qəbul edilmişdir: 11.04.2020*

**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№2 (6)/2020, səh. 32-38**
***HƏRBİ-XÜSUSİ ELMLƏR*** ***MILITARY SPECIAL SCIENCES***

UOT 355/359

# HEYDƏR ƏLİYEV İRSİNDƏ LİDERLİK XÜSUSİYYƏTLƏRİ

**polkovnik Rəşad Tahirov**
*Silahlı Qüvvələrin Hərbi Akademiyası*
E-mail: rashad_tahirov1975@yahoo.com

***Xülasə.*** Əsl siyasi lider yaranmaqda olan tələbatı, tarixin gedişatını qabaqcadan görən və düzgün yol göstərən şəxsdir. Böyük şəxsiyyətlər yaşayıb yaratdıqları, fəaliyyət göstərdikləri zamanlarda siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə irəliyə aparmaqla adlarını əbədi olaraq tarixə yazmışlar. Müasir Azərbaycanın memarı Heydər Əliyev belə lider idi və məhz onun fenomenal liderlik keyfiyyətləri sayəsində Azərbaycan qarşılaşdığı hərbi-siyasi böhrandan çıxdı, davamlı və sabit inkişaf yolunu tutdu, dünya dövlətləri arasında etibarlı tərəfdaşa çevrildi və bu gün də böyük uğurlar əldə edir.

**Açar sözlər:** lider, liderlik, cəsarət, uzaqgörənlik, iradə, qətiyyət, özünəinam, təşəbbüskarlıq, xarizmatik.

Lider, cəmiyyətə və insanların həyat tərzinə görünən, hiss olunan və fərqli təsir göstərməyi bacaran bir şəxsdir. Bəşəriyyət tarixboyu irəliyə dahi liderlərin çiyinləri üstündə getmişdir. Böyük liderlər öz ölkəsinin gələcək inkişaf yollarını əvvəlcədən görə bilmiş, həmin ali məqsədə çatmaq üçün xalqını mübarizəyə səfərbər etməyi bacarmışlar. Cəmiyyətin, insan həyatının inkişafı qanunlara əsaslansa da, onların reallaşmasında ayrı-ayrı tarixi liderlərin rolu danılmazdır. Bir çox fəlsəfi və sosioloji nəzəriyyələrdə lider cəmiyyət tarixinin hərəkətverici qüvvəsi kimi qəbul olunur. Amma xalqı təşkil edən tək-tək adamların cəmiyyətdəki ictimai-siyasi yeri eyni olmadığı kimi, onların mənəvi-fiziki keyfiyyətləri, qavrayışı və qiymətləndirmə aparmaq imkanları və qabiliyyəti də eyni deyildir. Ona görə, sözsüz ki, onların cəmiyyətə verə biləcəkləri də fərqlidir. Bunun nəticəsidir ki, müxtəlif sferalarda insanları malik olduqları qabiliyyətinə görə fərqləndirmək olur. Həyatın bu və ya digər sahələrində xüsusi istedada malik olan insanların mövcudluğu da liderlik fenomeninin reallığından xəbər verir. Liderlik bir tərəfdən liderin cəlbedici ideyalar irəli sürməsini, insanlara fəal və ciddi təsir göstərməklə onları idarə etməsini, digər tərəfdən liderə inanmağı, ona tabe olmağı, insanların onun ardınca getməyə hazır olmasını, qəbul etdiyi qərarlarda bilavasitə iştirakını əks etdirir. Tarixin müxtəlif mərhələlərinə nəzər salsaq, milyonların içərisində öz uzaqgörənliyi, qətiyyətliliyi və iradəsi ilə seçilən liderlərin, fenomenal şəxsiyyətlərin baş verən hadisələrə təsir imkanları, bu hadisələrin istiqamətini düzgün məcraya yönəltmək bacarığı səhifə-səhifə göz önündə canlanar. Xalqlarının, eləcə də bəşəriyyətin tarixində xüsusi xidmətlərə malik belə şəxsiyyətlərin nadirən olması təsadüfi deyil, onlar mövcud zəruri şəraitin ifadəsi kimi tarixi inkişafın həlledici dövrlərində ortaya çıxırlar və onlara olan ehtiyacların ödənilməsində ictimai-tarixi rollarını oynayırlar. Həmin dahi şəxslərdən biri də, öz liderliyi ilə dünyanı heyran etmiş, onun siyasi elitasında ən uca zirvələrdən birini tutmuş, Azərbaycanı parçalanmaq, məhv olmaq təhlükəsindən qorumuş və qeyri-adi liderlik keyfiyyətlərinə malik olmuş Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev idi.

Liderlik funksiyasını öz şəxsi nüfuzu, yüksək təşkilatçılığı, fəallığı, təşəbbüskarlığı, uzaqgörənliyi, cəsarəti, yaradıcılığı və enerjisi ilə fərqlənən, xüsusi idarəçilik və xarizmatik keyfiyyətə malik və problemləri həlletmə qabiliyyətində olan şəxslər yerinə yetirirlər. Lider insanların hiss və qəlblərinə təsir edərək, onların böyük hörmət və sevgisini qazanır [1]. Bunlara əlavə olaraq, siyasi liderlər qərar tutduğu şəraitin mahiyyətini və xarakterini başqalarına nisbətən daha dəqiq qiymətləndirməyi bacaran, hadisələrin gedişini dəyişdirməyə, siyasi prosesləri istiqamətləndirməyə qadir olan şəxsiyyətdir. O, böyük işlərin görülməsi, cəmiyyətin səfərbər edilməsi, tarixi şəraitin tələblərinə uyğun olaraq müvafiq addımların atılması istiqamətində daha böyük istedad, daha düzgün yanaşma nümayiş etdirir. Görkəmli akademik Ramiz Mehdiyevin

"Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi" kitabında bu barədə qeyd etmişdir: *"Lider funksiyasını öz üzərinə götürmüş şəxsiyyət taleyüklü, milli problemləri həll etmək üçün ayağa qalxmış xalq kütlələrinin öndəri rolunu yerinə yetirir. Belə şəxsiyyət heç kəsin bacarmadığı əməllərə və fəaliyyətə qadirdir. O, cəsarətlidir, qorxub çəkinmir, millətin və dövlətin tərəqqisi naminə riskə getməyi bacarır"* [2, s.39].

Bəşəriyyətin mövcudluğu dövründə tarix səhnəsində çoxlu sayda böyük liderlər yaşamış və fəaliyyət göstərmişdir. Bunlar dövlətin idarə edilməsində, hərb işində, təşkilatçılıqda, yüksək nailiyyətlər əldə edərək tarixdə iz buraxmış insanlardır. Mövcudluq tarixində böyük liderlər, rəhbərlər yetişdirə bilməyən xalqların milli ideologiyasından da danışmaq mümkün deyil. Güclü lideri olan millət və ölkələr yüksək inkişaf yolu keçmiş və tarixi uğurlar əldə etmişdir. Lev Tolstoy demişdi: *"Böyük millətlər böyük adamları yetişdirir"* [3, s.12]. Xalqımız çoxəsrlik tarixində Vətənin azadlığı və inkişafı naminə əzmlə mübarizə aparan bir çox görkəmli liderlər olmuşdur. Azərbaycan xalqının qədim dövlətçilik ənənələrindən danışarkən, görkəmli dövlət və ictimai-siyasi liderlərin tarixdəki rolları da mütləq qeyd edilməlidir. Cavanşir, Şəmsəddin Eldəgiz, Uzun Həsən, Şah İsmayıl, Nadir şah və digər görkəmli dövlət xadimləri Azərbaycan xalqının zəfər salnaməsinə şanlı səhifələr yazmış, parlaq qələbələrə, böyük nailiyyətlərə imza atmışlar. Xalqımızın bu ulu, nəhəng övladları içərisində öz möhtəşəmliyi ilə yüksəkdə duran şəxsiyyətlərdən biri də Heydər Əliyevdir. Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi çox görkəmli sima, dövlət idarəçiliyi sahəsində son dərəcə böyük və təcrübəli siyasət adamı, dahi lider idi. Onun zəngin və mənalı həyat yolu elə şərəfli bir tarixdir ki, gələcək nəsillər bu yolunun hər anını, hər səhifəsini öyrənəcək, ondan ibrət götürəcəklər.

Heydər Əliyevdən miras qalan təcrübənin təhlili və qiymətləndirilməsi onu göstərir ki, hər bir xalqın tarixində dahi liderlərin böyük rolu vardır və belə şəxsiyyətlər tarixin inkişafına təkan verməyə qadirdirlər. Əsl siyasi lider keyfiyyətlərini bütün parlaqlığı ilə nümayiş etdirən Ümummilli Lider xalqı səfərbər etməklə çox qısa müddətdə müasir siyasi və iqtisadi inkişaf ideyalarını reallaşdırmağa müvəffəq oldu. Bu günün zirvəsindən baxdıqda, o illərdə Heydər Əliyevin fenomenal liderlik keyfiyyətləri daha qabarıq sezilir. Ulu Öndər XXI əsrin həqiqi lideri kimi, fərqlənməyə müvəffəq oldu. Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsi üçün Heydər Əliyevin göstərdiyi böyük xidmətlər, onun bir lider kimi malik olduğu potensialın ifadəsidir.

Dahi liderlər o zamanlar tarix meydanına çıxırlar ki, konkret zaman kəsiyində cəmiyyət qarşısında dayanan möhtəşəm vəzifələrin həlli üçün bütün xalqı hərəkətə gətirəcək və istiqamətləndirəcək bir rəhbərə ehtiyac duyulur. Heydər Əliyevə xalq etimadının göstərilməsi və respublikanın rəhbərliyinə dəvət edilməsi də konkret tarixi ehtiyacdan doğurdu. XX əsrin 90-cı illərindən etibarən Azərbaycan xalqının tarixində tamamilə yeni bir mərhələnin başlanğıcı qoyuldu. İstər keçmiş SSRİ daxilində cərəyan edən dağıdıcı proseslər, istərsə də respublika daxilində mərkəzin ədalətsiz siyasətinə qarşı baş qaldıran genişmiqyaslı hərəkatlar son nəhayətdə Azərbaycan xalqının öz müstəqilliyini bərpa etməsinə zəmin yaratdı. Bununla da Azərbaycanın müstəqil inkişafına, milli-mənəvi və tarixi dəyərlərin dirçəlişinə, xalqın öz taleyini və gələcəyini əlinə almasına, dünya birliyi arasında öz yerini tutmasına nail olundu. Amma müstəqilliyin ilk illərinin təcrübəsi göstərdi ki, bu müstəqilliyi qoruyub inkişaf etdirmək, qazanılmış olan fürsətlərdən xalqın bu günü və gələcəyi naminə bəhrələnmək, dövlətlər sırasında layiqli yer tutmaq elə də asan bir məsələ deyil. O vaxt hakimiyyətdə olan qüvvələrin təcrübəsizliyi, səriştəsizliyi və milli maraqlardan uzaq olan siyasəti nəticəsində yaranan dərin böhran ölkəni çox böyük fəlakətlərlə üzbəüz qoydu. Sosial, iqtisadi, siyasi hərbi böhran hökm sürürdü və ölkəni xaos, anarxiya, hərc-mərclik bürüdü. Azərbaycan torpaqlarının 20%-ə qədəri Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt edildi və ölkə məhv olmaq təhlükəsi ilə üzləşdi. O illərdə baş verən iqtisadi tənəzzül ölkəmizi çox çətin vəziyyətə salmışdı, praktiki olaraq sənaye və kənd təsərrüfatı sektorları dağıdıldı. Beynəlxalq aləmdə ölkənin əvvəllər mövcud olan nüfuzu ən aşağı həddə düşdü və nəticədə Azərbaycan dünyanın siyasi səhnəsində təkləndi.

Gənc respublikanın qarşılaşdığı hərbi-siyasi böhran, xalqın gündən-günə ağırlaşan həyat tərzi, dövlətçiliyin sınağa çəkilməsi cəmiyyətin həyatında dəyişikliklər yarada biləcək fenomen şəxsiyyətin ali siyasət meydanına gəlməsini tələb edirdi. Məlumdur ki, Azərbaycanı bu dərin və təhlükəli

böhrandan böyük dövlət xadimi Ulu öndər Heydər Əliyev çıxardı. Xalqın tələbi ilə Azərbaycanın rəhbərliyinə qayıdan Ulu öndər Heydər Əliyev ölkənin ağır günlərində bütün xalqı öz ətrafında birləşdirən və onun gücünü düzgün istiqamətləndirən Ümummilli Liderə çevrildi. Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik olan Heydər Əliyevin müdrik daxili və xarici strateji kursu ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial və psixoloji böhran və sarsıntılardan çıxararaq, müstəqilliyin əbədi yolu ilə inamla irəliləməsi üçün möhkəm zəmin yaratdı. Onun gəlişi ilə Azərbaycanın müstəqilliyi dönməz xarakter aldı, çox keçmədi ki, Azərbaycan daxili parçalanmadan, vətəndaş müharibəsi təhlükəsindən, xaos və özbaşınalıqlardan xilas oldu, daxili və xarici təhdidlərin qarşısının alınması üçün ciddi tədbirlər həyata keçirildi, real ordu quruculuğunun əsası qoyuldu, dövlətin siyasətinə və bütünlükdə dövlət quruculuğuna yeni məzmun verildi, xalqın dinc və əmin-amanlıq içində yaşayışına obyektiv imkanlar yaradıldı. Bir sözlə, Ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyinin xilaskarına çevrildi.

Azərbaycanın Ümummilli lideri Heydər Əlirza oğlu Əliyev dahilərə məxsus olan liderliyin aşağıdakı xarakterik xüsusiyyətləri diqqətləri cəlb etmişdir: siyasi uzaqgörənlik, cəsarət və qətiyyət, polad iradə, dərin təfəkkür və ensiklopedik bilik, özünə inam, böyük səbir, fenomenal yaddaş, təşəbbüskarlıq, cazibədar natiqlik – öz ideya və fikirlərini sadə dildə xalqa çatdırmaq məharəti.

Heydər Əliyev uzaqgörən lider kimi hər zaman böyük rəğbət və ehtiramla xatırlanır. Uzaq və böyük planlar qurmaq Ümummilli Liderimizin siyasi rəhbərliyinin mühüm cizgisi idi. O, bir neçə on il bundan sonra görüləcək işləri bu gün həyata keçirməyi və çoxgedişli kombinasiyalar qurmağı bacaran nadir keyfiyyətlərə malik uzaqgörən siyasətçi və təcrübəli dövlət xadimi idi [4, s. 116]. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələri öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdi. Təsadüfi deyil ki, onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü və obyektivliyi, hər cəhətdən ölçülüb-biçildiyindən ətraflardakıları heyrətləndirmiş, siyasət aləminin patriarxı adını qazandırmışdır [5].

Hələ Azərbaycan keçmiş Sovetlər Birliyin tərkibində olduğu bir dövrdə mühüm siyasi, iqtisadi və ideoloji əhəmiyyət kəsb edən tarixi qərarların qəbul edilməsi, həqiqətən, böyük uzaqgörənlik və cəsarət tələb edirdi. Cəsarətli və uzaqgörən siyasətçi, müdrik dövlət rəhbəri olan Heydər Əliyev Azərbaycanın müstəqillik üfüqlərini hələ sovet hakimiyyəti illərində respublikaya rəhbərlik etdiyi dövrlərdə yaxşı görürdü. 1969-cu ilin iyulunda Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanın taleyində və tarixində dönüş başlandı. Xalqımızın mənəvi-əxlaqi dəyərlərinə söykənən genişmiqyaslı və cəsarətli tədbirlərin həyata keçirilməsi insanlarda nəinki milli ruhun və özünüdərkin oyanışını şərtləndirdi, həmçinin onların ictimai fəallığı və işgüzarlığının yüksəlməsinə təkan verdi. Milli qürur hissinin güclənməsi, milli şüurun yüksəlməsi sosial-iqtisadi və mədəni həyatın bütün sahələrinin dirçəlişi üçün zəmin oldu. Azərbaycanı müstəqillik idealına tərəf aparmaq üçün Heydər Əliyevin qarşısında o zaman iki əsas vəzifə dururdu: birincisi, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirib müstəqil ölkə kimi yaşaya biləcək bir səviyyəyə qaldırmaq idi. Ona görə 1969–1982-ci illəri müstəqilliyin iqtisadi əsaslarını yaratmaq mərhələsi adlandırmaq olar. Azərbaycana rəhbərlik etməyə başladığı ilk gündən o zaman ən geridə qalmış respublikalardan biri sayılan Azərbaycanı qısa vaxt ərzində keçmiş Sovet İttifaqının ən qabaqcıl respublikaları səviyyəsinə qaldıran, sürətli inkişafını təmin edən bu yorulmaz insanın gördüyü böyük quruculuq işlərinə bu gün tarixin prizmasından nəzər saldıqda onun cəsarətinə, təşəbbüskarlığına və uzaqgörənliyinə heyrət etməmək olmur. İkinci vəzifə isə ölkənin milli elmi potensialın yüksəldilməsi, ixtisaslı kadrlara olan ehtiyacın ödənilməsi olmuşdur. Bu səbəbdən ölkəmizin sonrakı taleyində və inkişafında mühüm rol oynayan yüzlərlə azərbaycanlı gənc oxumaq üçün keçmiş Sovetlər İttifaqının ən güclü ali məktəblərinə göndərildi. Bu uzaqgörən addım vətənpərvər, dövlətinə və millətinə sadiq olan yüksəkixtisaslı mütəxəssislərin respublikamızın bütün dövlət strukturlarında müxtəlif vəzifələrdə yer almasına gətirib çıxardı. Bu baxımdan hərbi kadrları xüsusi qeyd etmək lazımdır. Fitri istedadı və iti fəhmi hesabına ölkəmizin perspektiv müstəqilliyini proqnozlaşdıran Heydər Əliyev, hələ Sovet imperiyasının dünyaya meydan

oxuduğu dövrdə milli zabit kadrlarının gələcək dövlətçilik baxımından vacibliyini nəzərə alaraq, onların yetişdirilməsi istiqamətində məqsədyönlü addımlar atmağa başlamışdı.

Həmin dövrdə Azərbaycan ildə təxminən 60 min gənci ordu sıralarına göndərirdi. Ancaq onların əksəriyyəti inşaat batalyonlarında xidmət keçirdi. Hərbi hissələrdə azərbaycanlı zabitləri isə necə deyərlər, barmaqla saymaq olardı. Müttəfiq respublikalarda hərbi tədris məktəbləri, əsasən, Rusiya, Ukrayna və Belarusiyada fəaliyyət göstərirdi. *"Bunları görəndə, düşünürdüm ki, yaxşı, biz Sovet İttifaqının bərabərhüquqlu müttəfiq respublikasıyıq, böyük səlahiyyətlərimiz var. Biz nə üçün ordudan təcrid olunuruq?"* – bu sözləri mərhum Heydər Əliyev 2003-cü il aprelin 21-də, Cəmşid Naxçıvanski adına hərbi məktəbin 30 illik yubileydə çıxış edərkən demişdi. [6] Ona görə də Ümummilli Liderin həyata keçirmək istədiyi əsas məsələlərdən biri azərbaycanlılar arasında hərbi kadrların yetişdirilməsi idi. Sovet rejiminin ən güclü vaxtlarında Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılmasına rəsmi Moskva müxtəlif bəhanələrlə qarşı çıxırdı. Təsadüfi deyil ki, həmin dövrdə Bakıya təşrif buyuran çeşidli komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını "əsaslandırmağa" çalışırdılar. Amma H.Əliyev bu cəhdlərin qarşısını qətiyyətlə almağı bacardı. 1971-ci ildə Moskvanın etdiyi etirazlara baxmayaraq, onun böyük hünəri və cəsarəti nəticəsində Azərbaycanda Çəmşid Naxçıvanski adına hərbi lisey yaradıldı və həmin liseyi gələcək müstəqil Azərbaycanın hərbi kadrları üçün güclü qaynağa, mənbəyə çevirə bilmişdi. Bu liseyin yaradılması azərbaycanlılar arasında hərbi sahəyə marağın kütləvi xarakter almasına səbəb oldu. 70-ci illərdə həmin məktəbin kursantı olan gənclər bu gün müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin komandirləri, generallarıdır və onlar ölkənin hərb salnaməsinə yaddaqalan səhifələr yazmışdır. Təkcə onu demək kifayətdir ki, ölkəmiz Ermənistanın təcavüzünə məruz qalan zaman adıçəkilən təhsil ocağının məzunları erməni işğalçılarına qarşı vuruşlarda əsl qəhrəmanlıq nümunələri göstərmişdir. Çox sonralar, 2003-cü ilin aprel ayında həmin liseyin 30 illik yubileyində Heydər Əliyev deyirdi: *"Bu məktəbi yaradanda heç ağlıma gətirə bilməzdim ki, 30 ildən sonra mən yenə də bu məktəblə bir yerdə onun yubileyini keçirəcəyəm. Ancaq bu, mənə qismət olub və çox şadam ki, həqiqətən belə şərəfli iş mənə nəsib olubdur. 1972–1973-cü illərdə məktəbə daxil olmuş gənclər, uşaqlar indi burada çıxış edirlər. İndi onlar generallar, polkovniklərdir. Korpusa komandanlıq edirlər, böyük hərbi hissələrə komandanlıq edirlər"* [7].

Heydər Əliyev polad iradəli şəxsiyyət idi, millətin və dövlətin tərəqqisi yolunda riskə getməyi bacarırdı və canından keçməyə belə hazır idi. Sovet qoşunlarının 1990-cı ilin 20 yanvarında Bakıda törətdiyi qanlı qırğınla əlaqədar Heydər Əliyev ertəsi gün Kreml rejiminin təqiblərinə və səhhətinin ağır olmasına baxmayaraq, özünün və oğlu İlham Əliyevin həyatını riskə qoyaraq imperiyanın paytaxtı Moskvada, Azərbaycanın daimi nümayəndəliyinə gedərək orada bəyanat vermiş, SSRİ hakimiyyətinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi qırğın əməliyyatını pisləmişdi. Daha sonra Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası üzvlüyündən bəyanatla çıxaraq, ona qarşı olan təqiblərdən çəkinmədən, Azərbaycana – anadan olduğu doğma Vətəni Naxçıvana getmiş və həmin ildə Azərbaycan Ali Sovetinə deputat seçilmişdi. Tezliklə muxtar respublikaya blokada şəraitində rəhbərlik onun üzərinə qoyuldu. Ulu Öndərin burada gerçəkləşdirdiyi zəruri tədbirlərlə Naxçıvan işğaldan xilas edildi, qəbul edilmiş tarixi qərarlarla dövlətçiliyimizin bərpası naminə ciddi addımlar atıldı.

Azərbaycanı sovet keçmişinə bağlayan telləri qıran, müstəqillik simvollarını xalqa qaytaran da məhz Ümummilli Lider oldu. 90-cı illərin əvvəlində Naxçıvan Muxtar Respublikasına rəhbərlik edən Heydər Əliyev zamanın diktəsi ilə siyasi proseslərdə fəal iştirak etmiş, Azərbaycanın dövlət müstəqilliyinə real zəmin formalaşdırmışdır. Azərbaycan xalqı yaxşı bilir ki, SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə, Muxtar Respublikada Sovet İttifaqının qorunub saxlanmasına dair referendumun keçirilməsinə yol verilməmişdir. Naxçıvan Muxtar Respublikası keçmiş SSRİ-nin qalıb-qalmaması barədə səsvermə prosesində iştirakdan imtina edən yeganə məkan oldu. Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmış, cümhuriyyət dövrünün atributları bərpa olunmuşdu. Azərbaycanın müstəqillik rəmzi olan üçrəngli bayrağımız hələ 1991-ci ilin 17 noyabrında ilk dəfə olaraq məhz Naxçıvan Muxtar Respublikasının rəsmi bayrağı kimi qəbul

edildi. SSRİ-nin mövcud olduğu bir dövrdə belə bir qərarın qəbul və icra edilməsi tam mənası və məntiqi ilə de-fakto SSRİ-nin tərkibindən çıxmaq, ən azı bu dövlətin çərçivəsində müstəqil dövlət qurumu yaratmaq demək idi. Bütün bunlar yüksək siyasi səriştə və qeyri-adi cəsarət, həmçinin uzaqgörənlik tələb edirdi ki, bunu da Ulu öndər Heydər Əliyev nümayiş etdirdi. Nəticədə, müstəqil Azərbaycan Respublikası yarandı. Müstəqil Azərbaycanın keşiyində xalqın arxalandığı Heydər Əliyev dayandı.

Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra, erməni işğalçılarının aramsız hücumları, AXC-Müsavat iqtidarının səriştəsiz siyasəti, Cənubda "Talış Muğan Respublikası"nın elan edilməsi, şimalda "Sadval" təşkilatının ərazi iddiaları və Gəncədə Surət Hüseynova məxsus hərbi hissənin əməlləri həmin dövrdə ölkəmizin dəhşətli siyasi kataklizmlər mərhələsində olduğunu bir daha təsdiqləyir. Ümummilli Liderin belə bir vəziyyətdə 1993-cü il iyunun 9-da xalqın təkidli istəyinə səs verərək Bakıya qayıtması isə onun nə qədər qətiyyətli, prinsipial, heç bir riskdən çəkinməyən, dövlətinin taleyinə biganə qalmayan fenomen şəxsiyyət olduğunu bir daha təsdiqləyir. O vaxt Azərbaycanı, Azərbaycan xalqını böyük bəladan, dəhşətli fəlakətdən Heydər Əliyev fenomeni, Heydər Əliyev cəsarəti və müdrikliyi qoruyub saxladı. Əgər bu böyük şəxsiyyət olmasaydı, Azərbaycanı heç bir qüvvə qurtara bilməzdi.

Bu gün ölkənin istər regionda, istərsə də dünyada tutduğu mövqeyə və rola nəzər salsaq tam əminliklə söyləmək olar ki, Heydər Əliyevin uzaqgörən və cəsarətli siyasəti nəticəsində əldən getməkdə olan müstəqilliyimiz, milli azadlığımız qorunub saxlanıldı, ölkədə hakimiyyət böhranına son qoyuldu, digər torpaqlarımızın düşmən işğalına məruz qalmasının qarşısı alındı. Azərbaycanda bugünkü sürətli inkişafın kökündə dayanan sabitlik qısa zaman kəsiyində bərqərar oldu və ölkə öz tarixi missiyasını yerinə yetirmək imkanını əldə etdi. Onun qeyri-adi əzmkarlığı, iradəsi və siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcridolunma təhlükəsi aradan qaldırılmış və ölkə dünya dövlətləri arasında özünə layiq yer qazanmışdır. Qısa müddətdə Ulu Öndərimizin uzaqgörən müdrik siyasəti nəticəsində Azərbaycanın beynəlxalq imici dəyişdi, ölkəmiz dünyanın siyasi və iqtisadi arenasının fəal subyektlərindən birinə çevrildi. Ölkə mötəbər beynəlxalq strukturlara siyasi və sosial-mədəni cəhətdən inteqrasiya olunaraq, 150-dən çox dövlətlə diplomatik əlaqələr qurdu. Bütün bunlar Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya birliyinin baxışlarının dəyişməsində də mühüm rol oynamaqla yanaşı, beynəlxalq ictimaiyyətin ölkəmizin ərazi bütövlüyünə, ədalətli mövqeyinə daha böyük dəstək verməsinə səbəb olmuşdur. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə başqa bir dövlətin ərazisinin güc tətbiq etmək yolu ilə ələ keçirilməsinin yolverilməzliyi və Azərbaycanın ərazi bütövlüyü, suverenliyi vurğulanmış, Dağlıq Qarabağ Azərbaycanın bir hissəsi kimi tanınmış, zəbt olunmuş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin qeyd-şərtsiz çıxması çağırışı əksini tapmışdır. Habelə ATƏT və Avropa Şurasının müvafiq sənədləri və qərarlarında Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını təsdiqlənir. Bütün bunlar Heydər Əliyevin uğurlu uzaqgörən və düşünülmüş siyasəti sayəsində baş vermişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi (10 may 2004-cü il) kimi: *"Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Artıq, demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledicidir. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə həyata keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilmişdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir"* [8].

Ümummilli Liderimiz Heydər Əliyevin siyasi uzaqgörənliyinin və siyasi iradəsinin məntiqi nəticəsi olaraq, 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin dinamik inkişafına güclü təkan verdi. "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlər görülməyə

başlandı. Daha sonra Azərbaycan neftinin dünya bazarlarına nəqli istiqamətində müstəsna əhəmiyyət kəsb edən tədbirlər görüldü və mühüm əməkdaşlıq layihələri gerçəkləşdirildi.

Heydər Əliyevin fitri liderlik istedadı nüfuzedici natiqlik bacarığında da özünü göstərmişdi. Bu bacarıq Ulu Öndərə insanların beyninə və qəlbinə asanlıqla yol tapmağa, geniş xalq kütlələri ilə istənilən səviyyədə ünsiyyət qurmağa və onları öz arxasınca aparmağa imkan verirdi. Onun dərin məntiqli nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi dinləyənləri məftun edirdi. ABŞ-ın keçmiş prezidentlərindən olan Corc Buş isə demişdir: *“Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm”* [9].

Müasir siyasi texnologiyalarda lider üçün xarizma məsələsi çox vacib şərt hesab edilir. Heydər Əliyevin həyat və fəaliyyətinə qısa nəzər salmaq kifayətdir ki, onun xarizmatik lider və unikal tarixi şəxsiyyət kimi formalaşmasını şərtləndirən bir sıra səciyyəvi cəhətlər aydın görünsün. Tarixi təcrübə təsdiqləyir ki, dövlət müstəqilliyinin qorunub saxlanılması, onun qazanılmasından daha ağrılı və çətin prosesdir. Belə bir ziddiyyətli və mürəkkəb mərhələdə dövlətin xilası məhz xarizmatik liderlərdən asılı olur. 1993-cü ilin iyununda ölkədə yaşanan təlatümlər də təsdiqlədi ki, yalnız dəmir iradəyə, fitri idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik xarizmatik lider Azərbaycanın dövlət müstəqilliyini qorumaq, möhkəmləndirmək və yaşatmaq kimi ağır missiyanın öhdəsindən uğurla gələ bilər. Məhz Ulu Öndər xarizmatik liderliyi sayəsində Azərbaycan məhv olmaqdan, parçalanmaqdan, xalqımız bərpa etdiyi müstəqilliyini yenidən itirmək təhlükəsindən xilas oldu.

Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, səbat, diqqət kimi cəhətlər Heydər Əliyevin təbiətinə xas olan xüsusiyyətlər idi. Bu xüsusiyyətlər onun insanlara sevgisini, humanist duyğularını üzə çıxarır, eyni zamanda, Heydər Əliyevi insanlara daha da sevdirir, onu xarizmatik liderə çevirirdi. Cənab İlham Əliyev demişdir: *“Mən prezidentə xalqın məhəbbətini, xalqın inamını öz gözümlə gördüm, çünki prezidentin bütün bölgələrə səfərlərində mən onun yanındaydım. Mən bildim ki, xalq Heydər Əliyevə inanır, Heydər Əliyevi dəstəkləyir, Heydər Əliyevi sevir və Heydər Əliyevə alternativ görmür”* [9].

Görkəmli Amerikalı yazıcı-publisist Çon Maksvell *“Liderliyin inkaredilməz 21 qanunu” kitabın da belə yazmışdı: “Liderin miqyası onun özündən sonra qoyub getdiyi irslə ölçülür”.*

## Nəticə

Unudulmaz Liderimiz Heydər Əliyevin miras qoyduğu zəngin irs, misilsiz sərvət, ölməz ideyalar bu gün də yaşayır və bizi inamla gələcəyə aparır. Bu dövlətin banisi sayılan Heydər Əliyevin bizə miras qoyub getdiyi müstəqilliyimizin gündən-günə möhkəmlənməsi, ölkəmizin dünya dövlətləri sırasında öz layiqli yerini tutması üçün misilsiz işlər görülmüşdür və görülür. Azərbaycanın bu gün əldə etdiyi bütün nailiyyətlərin kökündə Heydər Əliyevin yeni Azərbaycanı qurmaq və yaratmaq ideyaları, onun müstəqilliyini əbədiləşdirmək arzuları dayanır. O, xalqa və Vətənə sonsuz sevgisi, dövlətçiliyə hədsiz sədaqəti ilə indiki və gələcək nəsillərə örnək ola biləcək bir fəaliyyət nümunəsi, əsl siyasi liderlik məktəbi miras qoymuşdur. O, dahi lideri kimi Azərbaycanın gələcəyini fikirləşərək banisi olduğu dövlətçilik irsinin əbədiliyini təmin edəcək, qüdrətli varis və lider yetişdirmişdir. Bu gün Ulu Öndərin ölkəmizin inkişafı sahəsində başladığı nəhəng işlər, möhtəşəm layihələr – daxili sabitliyin inkişaf etdirilməsi və faktiki olaraq, siyasi həmrəyliyin və milli birliyin möhkəmləndirilməsi, iqtisadiyyatımızın dinamik inkişafı, xalqımızın sosial rifahının yüksəlməsi Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin gərgin əməyi və siyasi iradəsi ilə həyata keçirilir. Ölkəmiz Heydər Əliyev yolu ilə qətiyyətlə irəliləyir və Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir inkişaf tariximizin yeni salnaməsi yaranır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Why love is at the heart of leadership: [Electronic resource]. – Last updated 04.03.2020, URL: https://humanpsychology.com.au/why-love-is-at-the-heart-of-leadership.

2. Mehdiyev, R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi / R.Mehdiyev. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, – 2001. – 276 s.
3. Плеханов, Г.В. Избранные философские произведения / Г.В.Плеханов. – Москва: Госполитиздат, – т.II. – 1956. – 333 с.
4. Məhərrəmov, A. Xalqa layiqli xidmət məramı: [Elektron resurs] / Azərbaycan Respublikasi Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası, Məqalələr 2009-2014. – 05.03.2020. URL: https://dq.mia.gov.az/upload/2.pdf.
5. Tarixi yazan və yaradan şəxsiyyət: [Elektron resurs]. – 08.03.2020. URL: http://www.anl.az/down/meqale/kaspi_az/2018/iyun/596738.htm.
6. Nəsirov, E. Heydər Əliyev siyasi kursu: innovativ və kreativ inkişafa aparan yol / [Elektron resurs]. – 10.03.2020. URL: http://www.anl.az/down/meqale/xalqqazeti/2012-/dekabr/ 283389.htm
7. İsmayılov, S. Heydər Əliyevin yaşayan və yaşadan ideyaları / [Elektron resurs], – 12.03.2020. URL: http://anl.az/down/meqale/azerbaycan/-azerbaycan_aprel2009/75205.htm.
8. Nağıyev, M. Heydər Əliyev qətiyyəti Azərbaycanı inkişaf və tənəzzül məngənəsindən çıxararaq, inkişaf və yüksəliş yoluna ucaldıb / [Elektron resurs], – 14.03.2020, URL: http://www.anl.az/down/meqale/ses/2016/may/488964.htm.
9. Abdullayev, M. Müstəqillik kursunun memarı: [Elektron resurs]. – 06.04.2020. URL: http://xalqqazeti.com/az/news/22058.

**Аннотация**
**Особенности лидерства в наследии Гейдара Алиева**
**Рашад Тахиров**

Настоящий политический лидер – это человек, который предвидит возникающие потребности, ход истории и показывает правильный путь. Великие личности навсегда вписали свои имена в историю, продвигая политические, экономические и другие процессы на благо своих народов. Таким лидером является архитектор современного Азербайджана Гейдар Алиев, и именно благодаря его феноменальным лидерским качествам Азербайджан вышел из военно-политического кризиса, прошел путь устойчивого и стабильного развития, стал надежным партнером среди государств мира и сегодня добивается больших успехов.
**Ключевые слова:** лидер, лидерство, смелость, предусмотрительность, воля, решительность, уверенность в себе, инициативность, харизматичность.

**Abstract**
**Features of leadership in the legacy of Heydar Aliyev**
**Rashad Tahirov**

A true political leader is a person who anticipates emerging needs, the course of history and shows the right path. Great personalities forever inscribed their names in history, promoting political, economic and other processes for the benefit of their peoples. Heydar Aliyev is a best example of political leader and thanks to his phenomenal leadership qualities, Azerbaijan has overcome the military-political crisis, embarked on the path of sustainable and stable development, has become a reliable partner among the countries of the world and today is making great strides.
**Keywords:** leader, leadership, courage, foresight, will, determination, self-confidence, initiative, charisma.

*Məqalə redaksiyaya daxil olmuşdur:* 08.05.2020
*Təkrar işlənməyə göndərilmişdir: 23.05.2020*
*Çapa qəbul edilmişdir: 12.06.2020*

**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№2 (6)/2020, səh. 39-44**
***HƏRBİ-XÜSUSİ ELMLƏR*** ***MILITARY SPECIAL SCIENCES***

UOT 355/359

# AİLƏ FAKTORUNUN KURSANTLARIN MÜVƏFFƏQİYYƏT GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİ

**baş-leytenant Reyhan Maniyeva**
*Silahlı Qüvvələrin Hərbi Akademiyası*
E-mail: psixo_logiya@mail.ru

***Xülasə.*** Məqalədə kursantların Hərbi Liseydə xidməti tədris və əməyi əhatə edən mürəkkəb fəaliyyət növü kimi təhlil edilir. Kursantların müvəffəqiyyət göstəricisinə təsir edən amillərin öyrənilməsi aktual problemlərdəndir. Kursantların sosial-demoqrafik məlumatlarının onların tədris və intizam göstəricilərinə təsirini aydınlaşdırmaq üçün eksperimental-psixoloji tədqiqat aparılmış və ailə formasından asılı olaraq onların intizam və tədrisində alınan nəticələr müqayisəli şəkildə təhlil edilmişdir. Tam və natamam ailəli kursantların tədris göstəricilərində olmasa da, intizam göstəriciləri arasında statistik əhəmiyyətli fərq aşkarlanmışdır. Məqalədə ailə formasından asılı olaraq kursantların intizam göstəricilərində statistik əhəmiyyətli fərqin səbəbi araşdırılır.

**Açar sözlər:** kursant, təhsil və xidməti fəaliyyət, müvəffəqiyyət, tədris, intizam, tam ailə, natamam ailə, statistik təhlil, reqressiya.

Hərbi xidmətə qədər artıq formalaşmağa başlamış kursant şəxsiyyəti sabit xarakter daşımır, əksinə dinamik olub hərbi təlim, təhsil, tərbiyə prosesində daha da inkişaf edir. Hərbi Liseydə təhsil almağa başlayan kursant gələcəyin zabiti olmaq üçün müəyyən inkişaf yolu keçməlidir. Hərbi xidmət – həm tədrisi, həm də əməyi əhatə edən mürəkkəb fəaliyyət növüdür. Hərbi təhsil hərbi xidmətin böyük bir hissəsini təşkil edir, kursantlar bilik və vərdişlər aşılayır.

Hərbi təhsil müəssisəsinə qəbul olmaq üçün bütün yoxlanış və imtahanlardan keçən kursant tamamilə yeni bir mühitə düşür. Bu zaman ona hərbi təhsil müəssisəsinə xas olan müxtəlif amillər təsir edir:

Bioloji amil – yuxu vaxtının məhdudlaşdırılması, yeməklərin çeşidlərində, miqdar və keyfiyyətində məhdudiyyət, sistematik fiziki fəaliyyət (sıra hazırlığı, bədən tərbiyəsi dərs saatlarının artması).

Sosial-psixoloji amil – ünsiyyət iyerarxiyası, tabelilik, davranış normalarının ciddi şəkildə tənzimlənməsi, ehtiyac və maraqların həyata keçirilməsində məhdudiyyətlər, gün rejiminin ciddi tənzimlənməsi, daxili naryadların aparılması, hərbi forma, məlumat əldə etməyə qoyulan məhdudiyyətlər, valideynləri və dostları ilə ünsiyyətdə məhdudiyyətlər, qrup fəaliyyətlərinin üstünlük təşkil etməsi, ciddi intizam, eynicinsli mühitdə ünsiyyət, asudə vaxtın məhdud olması, sərbəst məişət həyatına keçid, daim müşahidə və nəzarət altında olmaq, kazarma yaşayış şəraiti.

Pedaqoji amil – ənənələrin mənimsənilməsi, keyfiyyətlərin formalaşmasıdır: fərdi intizam və çalışqanlıq, məsuliyyət, əmrləri dəqiq və vaxtında yerinə yetirməyə hazırolma, qətiyyət, dözümlülük və özünü idarəetmə, müəllimlərin dəyişməsi, hər bir müəllimin tələblərində fərq, özünə xidmət bacarıqlarının əldə edilməsi.

Kursantların Hərbi Liseydə təhsili zamanı onların müvəffəqiyyət göstəriciləri tədris və intizam meyarları əsasında ölçülür.

Hərbi kollektivlərdə də uğurlu fəaliyyətin təminatçısı hərbi nizamnamə normaları çərçivəsində fəaliyyətdir ki, qrupdaxili subordinasiya, qarşılıqlı hörmət və s. prinsiplərə əsaslanan normal davranış hərbi qrupda tarazlığın əldə olunmasına yönəlməlidir [1, s.82].

Hərbi intizam – yüksək döyüş qabiliyyətli və hazırlıqlı ordunun əsas şərtidir. Ümumdövlət intizamı kimi hərbi intizam da eyni hüquqi və mənəvi prinsiplərə əsaslanır. Bütün Azərbaycan vətəndaşları kimi hərbi qulluqçular Azərbaycan Respublikasının qanunlarının tələblərinə şüurlu surətdə ciddi riayət edirlər. Bununla yanaşı, silahlı qüvvələrdə hərbi intizamın öz xüsusiyyətləri var.

Silahlı Qüvvələr sıralarına daxil olarkən Hərbi And içən hərbi qulluqçular Vətənə sadiq olmaqla yanaşı, çətinliklərə dözməyə, intizamlı olmağa da and içirlər və andı pozarlarsa, Azərbaycan Respublikasının qanunlarına əsasən, məsuliyyət daşımağa hazır olduqlarını dərk edirlər. Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi intizam "İntizam Nizamnaməsi" ilə tənzimlənir.

İntizam – hərbi qulluqçunun emosional-iradi aktlarının qarşılıqlı əlaqə sistemidir, hərbçilər tərəfindən şüurlu və şüursuz olaraq həyata keçirilir [2, s.50].

İnsan psixi proseslərinin intellektual, emosional və iradə kimi üç sferasının olduğunu nəzərə alaraq, intizamlılığı da komponentlərə ayırmaq olar:

1. İntizamlılığın intellektual komponentinin mühüm xarakteristikaları bunlardır: hərbi qulluqçuların öz vəzifə borclarını bilməsi, yüksək təşkilatçılığın zəruriliyinin dərk edilməsi və müəyyənləşdirilmiş qaydalara daim əməl olunması, bu və ya digər hərəkətin nəticələrini proqnozlaşdırmaq və qabaqcadan görmək bacarığı və s.

2. İntizamlılığın emosional komponenti bir çox hallarda insanın sinir sisteminin vəziyyəti ilə müəyyən edilir. Gündəlik hərbi xidmət zamanı hərbi qulluqçularda mənfi emosiyalar (sıxıntı vəziyyəti, ümidsizlik, həyəcan, frustrasiya, narahatçılıq və s.) əmələ gəlir ki, bunlar da onların hərbi xidmətinə mənfi təsir göstərir. Sinir sistemi güclü olan hərbi qulluqçular bu vəziyyətin öhdəsindən asanlıqla gəlsələr də, zəif sinir sistemi olanlarda mənfi emosiyalar uzun müddət qalır bu da onların intizamlıq səviyyəsinin aşağı düşməsinə səbəb olur.

3. İntizamlılığın iradəlik komponenti. Bu komponenti nəzərdən keçirərkən hərbi qulluqçunun kollektivdə davranışına özünənəzarət növlərini müəyyən etmək vacibdir: birinci olaraq səthi özünənəzarət – hərbi qulluqçunun davranış və hərəkətlərini qüsursuz hesab edərək yol verdiyi səhvləri analiz etməməsi, ikinci olaraq dərin özünənəzarət – daim öz hərəkətlərini etalon hərəkətlərlə tutuşdurmaqla düzgün davranışı təmin etməsi, üçüncü olaraq ali özünənəzarət – hərəkət və davranışlarını konkret vəziyyətdə yarana biləcək nəticələr nəzərə alınmaqla proqnozlaşdırması nəzərdə tutulur [3, s.287].

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi intizam hərbi qulluqçuların şüurluluğuna və vətənpərvərlik borclarını dərindən dərk etmələrinə, xalqımızın beynəlmiləlçilik ənənələrinə sadiq olmalarına, Vətənə sonsuz məhəbbət bəsləmələrinə və hərbi intizamın tələblərinə şüurlu surətdə tabe olmalarına əsaslanır. Bunun nəticəsidir ki, hərbi intizam hərbi qulluqçularda sadiqlik, dürüstlük, mətinlik, dözümlülük və s. kimi müsbət keyfiyyətlər formalaşdırır.

Təlim-təhsil müəssisəsinin əsas məqsədi təkcə müəyyən biliklər ötürməkdən ibarət deyil. Təlim-təhsil müəssisəsi, həm də şəxsdə dəyərlər sisteminin, kollektiv davranış formalarının, mənəvi normaların formalaşdığı ictimai yerdir.

Təlim-təhsil vasitəsilə insanlar təbii və ictimai hadisələrin başvermə qanunauyğunluqlarını dərk edirlər. Onların beynində maddi aləmin, obyektiv gerçəkliyin elmi görünüşü yaradılır. Beləliklə, onlar dərk olunmuş obyektiv gerçəklik qanunlarından cəmiyyət və şəxsiyyətin xeyrinə istifadə yollarını öyrənir. Nəticədə, dərs prosesində biliklərə yiyələnməklə şəxs psixi hadisələri, idrak proseslərini səmərəli şəkildə inkişaf etdirir. Bundan başqa elmi dünyagörüşü inkişaf edir ki, bu da şəxsdə müsbət şəxsi keyfiyyətlərin inkişafına təkan verir. Elmi dünyagörüşü insanın sosial mövqeyindən asılı olmayaraq, elmi biliklərlə yanaşı, özündə əqidə, baxış və davranışı da birləşdirir.

Hərbi təhsil dövlət təhsil standartlarına uyğun biliyə, bacarığa və dünyagörüşünə malik olan, xalqını və Vətənini sevən, Azərbaycan Respublikasının təhlükəsizliyini və müdafiəsini təmin etmək üçün yaradılan silahlı qüvvələrin və digər silahlı birləşmələrin qarşısında qoyulan vəzifələri yerinə yetirməyi bacaran kadrların hazırlanmasına yönəlmişdir. Hərbi təhsil və təlimin əsas məqsədlərindən biri də gələcəyin zabiti olan kursantlara çətin, mürəkkəb həyat və döyüş situasiyalarını ağrısız və asanlıqla dəf etməyi aşılamaqdır.

Kursantın şəxsiyyəti liseydə təhsilinə qədər artıq formalaşmağa başlamış olsa da, bu proses hərbi təhsil müddətində də davam edir. Hərbi Liseydə kursantın şəxsiyyətinə təsir edən amillərdən biri kimi təlim və tərbiyə prosesinin əsas məqsədi aşağıdakılardır:

– kursantların intellektual, mədəni, əxlaqi və fiziki inkişafını təmin etmək;

– hərbi işin ilkin bilik və bacarıqlarının kursantlara öyrədilməsi;
– kursantlarda vətənpərvərlik hissinin tərbiyə olunması və Vətənin müdafiəsinə hazırlanması;
– hərbi borca sədaqət hissinin və təlimə intizamlı münasibətin formalaşdırılması;
– kursantlarda yüksək mənəvi-psixoloji, işgüzar və təşkilati keyfiyyətlərin, fiziki dözümün və möhkəmliyin inkişaf etdirilməsi.

Təhsil prosesi yalnız təhsilalanın müəyyən fəaliyyət növünə hazırlaşmasından ibarət deyil o, insanın cəmiyyətdə statusunada təsir göstərir. Təhsil çox vaxt sosial pilləkənlərdən yuxarıya doğru hərəkət və sosial mobillik üçün əsas rol oynayır. Təhsil, həmdə praktik və simvolik əhəmiyyətə malikdir.

Hərbi Liseydə təhsil alan kursantlar bilməlidirlər ki, yalnız möhkəm hərbi intizama malik olmaqla dərslərdə, təlimlərdə və gələcək döyüşlərdə yüksək nəticələr əldə edəcəklər.

Sadalanan müvəffəqiyyət göstəriciləri müəyyən amillərdən asılı olaraq müsbət və ya mənfi istiqamətdə dəyişə bilər. Kursantların müvəffəqiyyət göstəricilərinə bir çox amillər təsir edir ki, bunları aşağıdakı kimi sıralaya bilərik:

– iqtisadi amillər;
– sosial amillər;
– psixofizioloji amillər;
– tədris prosesinin təşkili xüsusiyyətləri.

İqtisadi amil dedikdə, hər bir kursantın ailəsindəki maddi vəziyyəti, mənzil şəraiti, onların tələbatlarının ödənilmə dərəcəsi nəzərdə tutulur. Təbii ki, kursantlar bir-birindən maddi imkanlarına görə fərqlənirlər, bu da onların müvəffəqiyyətinə birbaşa təsir edən özünəinamı formalaşdırır.

Sosial amil kimi kursantların tərbiyə aldıqları ailə, onun formaları, valideynlərin təhsil səviyyələri və s. nəzərdə tutulur.

Psixofizioloji amil dedikdə, hər bir kursantı digərindən fərqləndirən fərdi psixi xüsusiyyətlər nəzərdə tutulur. Belə ki, bu xüsusiyyətlərdən asılı olaraq kursantların Hərbi Liseyə adaptasiyası, tədris metodlarını mənisəməsi də fərqli olur.

Tədris prosesinin təşkili xüsusiyyəti dedikdə, tədris proqramının mənimsənilməsi üçün kursantlarda motivasiyanın yaradılması nəzərdə tutulur. Deməli, kursantları hərbçi kimi formalaşdırmaq və düzgün istiqamətə yönəltmək üçün onları bu fəaliyyətə təhrik edən davamlı motivlər olmalıdır. Hərbi təhsil müəssisəsinə gələn kursantların təhsil səviyyəsini artırmaq üçün xüsusilə onların motivasiya sahəsinə diqqət yetirərək düzgün istiqamətə yönləndirilməsi vacibdir [4, s. 61].

İnsanın bütün həyatı boyu formalaşan və inkişaf edən tələbatlarının ödənilməsinə, motiv və məqsədlərinə nail olmasına yönəldilmiş xüsusi fəallığı motivasiya komponenti təşkil edir. A.Maslou insan motivasiyası nəzəriyyəsini təqdim etmişdir. O, bütün insan tələbatlarının ardıcıl struktura malik olduğunu göstərmiş və fizioloji (hava, su, qida və s.) tələbatlardan sonra psixoloji tələbatların dörd (təhlükəsizlik, məhəbbət, hörmət, özünü aktuallaşdırma) səviyyəsini və əsas koqnitiv tələbatlar olan – bilmək və dərk etmək arzusunun, estetik tələbatların da vacib rolunu qeyd etmişdir [5, s.60-79].

Kursantların müvəffəqiyyət göstəricilərinə təsir edən amillərdən biri də məhz ailədir.

Şəxsiyyətin əsasını qoyan cəmiyyətin ilkin struktur vahidi ailədir. Ailə elə bir qurumdur ki, burada ailə üzvləri bütün tərəfləri və cəhətləri ilə əhatə olunmuşdur. Bütün şəxsi, mənəvi, əxlaqi keyfiyyətlər öncə ailədə formalaşır. Ailədə böyüməkdə olan nəslin tərbiyəsi prosesində valideynlərin şəxsi münasibətləri, istifadə etdikləri ən mükəmməl tərbiyə üsulları ailə münasibətlərinin tərbiyəvi səmərəliliyini tənzimləyir və xüsusi rol oynayır.

Ailədaxili və onun ətrafındakı psixoloji iqlim uşaqların şəxsiyyətinin formalaşmasında, eyni zamanda ünsiyyət mədəniyyətinin inkişafında prioritet istiqamətlərdən biridir.

Ailə münasibətləri, hər şeydən əvvəl, uşaqların emosiya və hisslərinə təsir göstərir. Yaş artdıqca uşaqlar həmin münasibətləri mənimsəyir, nəticədə, onların xarakter əlamətləri formalaşır.

Pedaqoji istiqamətdə aparılmış bir çox tədqiqatlarda M.M.Mehdizadə, Ə.Y.Seyidov, M.Ə.Muradxanov, İ.Vəlixanlı, Y.R.Talıbov, H.M.Əhmədov, Ə.Ə.Ağayev, Ə.Ş.Həşimov,

S.M.Quliyev, A.N.Abbasov, H.Ə.Əlizadə, R.L.Hüseynzadə, V.M.Rzayev, K.H.Camalov, A.O.Xarçev, A.Q.Xripkova, A.S.Makarenko, A.V.Suxomlinski və başqaları ailədaxili münasibətlər, ailədə valideyn-övlad münasibətləri, uşaqların tərbiyə edilməsində ailənin vəzifələri, onların bu sahədə dövlət və cəmiyyət qarşısında məsuliyyət hissləri, ailə etikasının gözlənilməsi və s. məsələlər araşdırılmışdır.

Belə ki, kursantların ailə vəziyyətlərinin onların müvəffəqiyyət göstəricilərinə nə dərəcədə təsir etdiyini aydınlaşdırmaq üçün bu məlumatların statistik təhlili aparılmışdır.

Ailə ilə əlaqədar sosial və psixoloji yönümdə tədqiqat aparan, ailə münasibətlərinin formalaşmasına aydınlıq gətirən alimlərdən Ə.Bayramov, Ə.Əlizadə, H.Əlizadə, B.Əliyev, S.Allahverdiyeva, Ə.Baxşəliyev, Q.Əzimli, Ə.Qədirov, M.Həmzəyev və başqalarını göstərmək olar. Onlar öz tədqiqatlarında ailənin formalaşmasının psixoloji qanunauyğunluqları, şəxsiyyətin sərbəst dəyərlərinin gerçəkləşməsi istiqamətində ailənin rolu, ailə münaqişələrinin psixoloji səbəbləri və başqa məsələlər barədə mühüm fikirlər söyləmişlər.

Ailənin iki başlıca tipi vardır: sadə və mürəkkəb. Demoqraflar belə hesab edirlər ki, hazırda ən geniş yayılmış ailə tipi nuklear ailədir. Nuklear ailə sadə ailəyə deyilir. O iki nəsildən – ata, ana və uşaqlardan ibarətdir. Uşaqlardan hər hansı biri evlənirsə (ərə gedirsə) və valideynləri ilə birlikdə yaşayırsa, ailənin tipi dəyişir, nuklear ailə mürəkkəb ailəyə çevrilir. İki və daha çox nuklear ailə birlikdə yaşayırsa, o mürəkkəb ailə sayılır.

Demoqrafiyada müasir ailəni səciyyələndirmək məqsədilə sadə (nuklear) və mürəkkəb ailə ilə yanaşı, həm də tam və natamam ailə anlayışlarına da müraciət edirlər.

Tam ailə dedikdə, ata, ana və uşaqlar olan ailələr nəzərdə tutulur. Valideynlərdən hər hansı birinin yoxluğu (ailədən getməsi, ər-arvadlıq münasibətlərinin kəsilməsi, valideynlərdən hər hansı birinin ölümü, boşanma, ata-analardan hər hansı birinin itkin düşməsi və s.) natamam ailəni meydana gətirir. Natamam ailədə verilən tərbiyə isə bir çox hallarda kamil, bitkin olmur.

Respondentlərin doğulma yeri və ailə vəziyyətinin onların tədris və intizam göstəricilərinə təsirini ölçmək üçün xətti reqressiyadan istifadə edilmişdir. Kursantların doğulma yerinin onların tədris və intizam göstəricilərinə təsiri öyrənilmişdir.

Beləliklə, iştirakçıların doğulma yerinin tədris göstəricilərinə ($F(1.296) = 3.071$, $p<0.08$, $R^2 = 0.010$) və intizam göstəricilərinə ($F(1.303) = 3.551$, $p<0.06$, $R^2 = 0.012$) təsiri araşdırıldıqda, statistik əhəmiyyətli təsir aşkarlanmamışdır.

**Cədvəl 1. Respondentlərin doğulma yerinin tədris və intizam göstəricilərinə təsiri**

| | Qeyri-standart faktorlar | | Standart faktorlar | | | 95% CI üçün B | |
|---|---|---|---|---|---|---|---|
| | B | SE | β | t | P | Aşağı sərhəd | Yuxarı sərhəd |
| Tədris | 0.002 | 0.001 | 0.101 | 1,752 | 0.08 | 0.000 | 0.005 |
| İntizam | -0.106 | 0.057 | -0.108 | -1.884 | 0.06 | -0.218 | 0.005 |

$R^2$ əmsalı asılı olmayan dəyişkənin asılı olan dəyişkənə təsirini ölçmək üçün istifadə olunur. Doğulma yerlərinin tədris ($R^2$ = 1%) və intizam ($R^2$ = 1,2%) göstəricilərinə olan təsir faizinə baxdığımızda çox kiçik rəqəmlər aşkarlanmışdır. Bu da onu bildirir ki, kursantların doğulduqları bölgə ilə onların tədris göstəriciləri arasında hər hansı bir asılılıq yoxdur.

Respondentlərin ailə vəziyyətlərinin tədris göstəricilərinə ($F(1.296) = 0.030$, $p<0.86$, $R^2 = 0.000$) və intizam göstəricilərinə ($F(1.303) = 7.078$, $p<0.008$, $R^2 = 0.023$) təsiri araşdırıldıqda, tədris göstəricilərinə deyil, intizam göstəricilərinə statistik əhəmiyyətli təsir aşkarlanmışdır. Həmçinin ailə vəziyyətinin intizam göstəricilərinə təsir faizinə baxdığımızda, $R^2$ = 2,3% nəticə görülmüşdür.

**Cədvəl 2. Respondentlərin ailə vəziyyətinin tədris və intizam göstəricilərinə təsiri**

| | Qeyri-standart faktorlar | | Standart faktorlar | | | 95% CI üçün B | |
|---|---|---|---|---|---|---|---|
| | B | SE | β | T | P | Aşağı sərhəd | Yuxarı sərhəd |
| Tədris | 0.014 | 0.081 | 0.101 | 0.174 | 0.86 | -0.145 | 0.173 |
| İntizam | -8.824 | 3.317 | -0.151 | -2.660 | 0.008 | -15.351 | -2.297 |

*Statistik əhəmiyyətli nəticənin altından xətt çəkilmişdir.*

Respondentlərin ailə vəziyyətinin intizam göstəricilərinə təsiri statistik əhəmiyyətlilik daşıyır. Bununla yanaşı, ailə vəziyyətinin intizam göstəricisinə təsiri tərs mütənasib formada aşkarlanmışdır.

Bu nəticələr onu göstərir ki, natamam ailəli kursantlarla tərbiyəvi söhbətlərin mütəmadi aparılması və onlara nəzarətin daha güclü olması intizam göstəricilərinin yüksək olmasına gətirib çıxarır. Bundan əlavə, natamam ailədən olan kursantların ailə vəziyyətlərinə görə digər kursantlardan fərqlənməmək üçün çalışması da bu nəticələrin alınmasında başqa bir səbəbidir.

İnsanın insan tərəfindən qavranılması prosesində müxtəlif effektlər müşahidə olunur ki, onlardan biri də oreol effektidir.

Oreol effektinin mahiyyəti ondan ibarətdir ki, biz hər hansı bir adamı yaxşı adam kimi tanıdıqda sonradan onun nöqsanlarını, adətən, görmürük, davranışını, əməllərini, eləcə də ayrı-ayrı keyfiyyətlərini yaranmış ilk xoş təəssürat əsasında qiymətləndiririk və əksinə adam yeni kollektivdə, qonşular arasında özünü pis adam kimi tanıtdıqda, onun hətta yaxşı əməllərinə də inanmırıq [6, s.220].

Bundan başqa, komandirlərin kursantlarla apardıqları tərbiyəvi işə də diqqət ayırmaq lazımdır. Belə ki, Liseyə yeni qəbul olunmuş kursantların şəxsi məlumatları ilə tanış olduqdan sonra komandirlər natamam ailəli kursantları nəzarət altına alaraq onlarla mütəmadi tərbiyəvi və motivasiya söhbətləri aparır ki, bu da kursantların intizamının müsbətə doğru dəyişməsinə təkan verir.

Digər bir səbəb kimi hərbi kollektivdə əsas amillərdən hesab olunan nüfuzun qorunmasıdır. Artıq natamamlıq yaşamış kursant liseyə daxil olan zaman bunu ətrafdakılara hiss etdirməməyə və tam ailəli kursantlardan geri qalmamağa çalışır. Həmçinin onlarda olan natamamlıq kompleksinin nəticəsi olaraq səhv etməyə ehtiyat edirlər. Bunun nəticəsi olaraq onların intizam göstəriciləri digər tam ailəli kursantların intizam göstəricilərindən daha yüksək olur.

## Nəticə

Beləliklə, təhlil edilən ədəbiyyatlardan alınan nəticələrə əsasən, kursantların Hərbi Liseydə təhsili müddətində müvəffəqiyyətini onların tədris və intizam göstəricisi müəyyənləşdirir.

Hərbi intizam dedikdə, kursantların günün nizam qaydalarına uyğun olaraq fəaliyyətinin təmin edilərək onlarda sadiqlik, dürüstlük, mətinlik, dözümlülük və s. kimi müsbət keyfiyyətlər formalaşdırmaq nəzərdə tutulur. Hərbi təhsil və təlimin əsas məqsədlərindən biri də gələcəyin zabiti olan kursantlara çətin, mürəkkəb həyat və döyüş situasiyalarını ağrısız və asanlıqla dəf etməyə kömək olacaq bilik, bacarıq və vərdişləri aşılamaqdan ibarətdir.

Hər bir şəraitində olduğu kimi hərbi təhsil müəssisələrində də kursantların müvəffəqiyyət göstəricilərinə təsir edən müxtəlif amillər vardır. Bu amillərdən biri kimi ailə faktoru nəzərdən keçirilmiş və aparılan statistik təhlil nəticəsində ailə faktorunun tədrisə olmasa da, intizama müəyyən qədər təsir etdiyi aşkarlanmışdır. Alınan nəticəyə əsasən onu qeyd etmək olar ki, natamam ailəli kursantların intizam göstəricilərinin tam ailəli kursantlarla müqayisədə yüksək olması natamam ailəli kursantların daha çox intizamsızlığa meyilli ola biləcəyi kimi fikirlərinin dəyişməsinə əsas verir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Şəfiyeva, E. Zabit hazırlığının sosial-psixoloji problemləri / E.Şəfiyeva. – Bakı: Elm, – 2008. – 281 s.
2. Əliyev, N.A. Hərbi qulluqçularla fərdi-psixoloji hazırlığın aparılması metodikası / N.A.Əliyev, S.S.Gözəlov. – Bakı: AAHDM, – 2003. – 123 s.
3. Военная психология / Под.ред. А.Г.Маклакова. – СПб.:Питер, – 2004. – 464 с.
4. Şəfiyeva, E. Zabit Hazırlığının sosial-psixoloji məsələləri / E.Şəfiyeva. – Bakı: Elm, – 2006. – 332 s.
5. Маслоу, А. Мотивация человека / А.Маслоу. – СПб.: Питер, – 2003. – 352 с.
6. Bayramov, Ə. Hüquq Psixologiyası / Ə.Bayramov. – Bakı: "Təhsil", – 2012. – 656 s.

**Аннотация**
**Влияние фактора семьи на успеваемость курсантов**
**Рейхан Маниева**

В статье анализируются служба курсантов в Военном училище как сложная деятельность охватывающий обучение и труда. Известно, что факторы влияющие на успеваемость курсантов считается одним из самых актуальных, но малоизученных проблем.

Для выяснения влияния социально-демографической информации курсантов на их учебную и дисциплинарную эффективность было проведено экспериментально-психологическое исследование и в зависимости от формы семьи полученные результаты по дисциплине и учебе были сравнительно проанализированы. В отличие от учебных результатов выявлена статистически значимая разница между показателями дисциплины у курсантов полных и неполных семей. В статье исследуется причина выявления статистически значимых различий в показатели дисциплины у курсантов в зависимости от формы семьи.

**Ключевые слова**: кадет, учебная и служебная деятельность, успеваемость, учеба, дисциплина, полная семья, неполная семья, статистический анализ, регрессия.

**Abstract**
**The influence of the family factor on student performance**
**Reyhan Manieva**

The article analyzes the service of cadets at the Military Lyceum as a complex activity encompassing training and labor. It is known that factors affecting the performance of cadets are considered one of the most relevant, but little learned problems.

To determine the impact of socio-demographic information of cadets on their educational and disciplinary effectiveness an experimental psychological study was conducted and depending on the form of the family, the results of discipline and study were relatively analysed. Unlike the educational results, a statistically significant difference between the discipline indicators of full and single-parent cadets has been revealed. The article explores the reason for identifying statistically significant differences in discipline indicators in cadets depending on the form of the family.

**Keywords:** cadet, educational and service activities, academic performance, study, discipline, full family, single-parent family, statistical analysis, regression.

*Məqalə redaksiyaya daxil olmuşdur: 10.03.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 11.04.2020*
*Çapa qəbul edilmişdir: 02.05.2020*

**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№2 (6)/2020, səh. 45-48**
***HƏRBİ-XÜSUSİ ELMLƏR*** ***MILITARY SPECIAL SCIENCES***

UOT 355/359

# "KOROĞLU" DASTANININ HƏRBİ LEKSİKASI

**leytenant Elnarə Cavadova**
*Silahlı Qüvvələrin Hərbi Akademiyası*
E-mail: e-cavadova@mail.ru

***Xülasə.*** Məqalədə "Koroğlu" dastanının dilindən danışılır. Bu məqsədlə dastanın dilindəki hərbi sözlər ön plana çəkilir. "Koroğlu" dastanının hərbi leksikasının zənginliyini təsdiq edən çox sayda sözlər təhlil edilir. Eyni zamanda bir sıra sözlərin həm savaş, müharibə, həm də ov, sınaq məqsədi daşıması ilə bağlı mülahizələr dastanın dilindən alınan örnəklərlə əsaslandırılır. Qeyd edilir ki, dastanın dilindəki hərbi sözlərin tarixi çox qədimdir. Məsələn, "basmaq" (qalib gəlmək) felinin hərbi məzmun daşıması göstərilir və onun əsasında hansı sözlərin yaranması bildirilir. Bundan başqa, "Koroğlu" dastanının dilindəki hərbi sözlər qruplaşdırılır və bu sözlərin ictimai-siyasi leksikada əhəmiyyəti haqqında danışılır.

**Açar sözlər**: dil, söz, leksika, ifadə, savaş.

Dilin lüğət tərkibində ictimai-siyasi leksikanın da müəyyən qədər yeri vardır. İctimai-siyasi mahiyyət daşıyan sözlərin öyrənilməsi onların aid olduğu tarixi mərhələnin xüsusiyyətlərini üzə çıxardığından və həmin dövrün ədəbi dil normalarına aydınlıq gətirdiyindən aktualdır. Cəmiyyətdə gedən inkişaf və dəyişmələr dilə təsir edir, iqtisadi, siyasi, mədəni və sosial istiqamətdə leksik-qrammatik vahidlər yaranıb formalaşır, beləliklə, dildə bir sıra dəyişmələr baş verir. Bu prosesin öncə dilin leksikasında baş verməsi təbiidir, ona görə ki, dilin lüğət tərkibi heç vaxt tarixə biganə qalmamışdır.

Dilin ictimai-siyasi leksika sistemində hərbi sözlər də iştirak edir. Həmin sözlərin araşdırılması bir tərəfdən ictimai-siyasi leksikanın hərtərəfli öyrənilməsində, digər tərəfdən isə aid olduğu əsərin dil-üslub keyfiyyətlərinin müəyyənləşdirilməsində əhəmiyyətlidir. Xalqımızın bədii təfəkkürünü ifadə edən maraqlı folklor örnəklərindən biri olan "Koroğlu" dastanının dili, bu baxımdan, diqqəti çəkən qaynaqlardandır. "Koroğlu" eposu Azərbaycan xalqının ictimai-siyasi görüşlərinin, ayrı-ayrı tarixi hadisələrə fəlsəfi-etik baxışlarının axarında zənginləşmişdir" [1, s.27].

Folklor örnəkləri yarandığı dövrün dil-üslub xüsusiyyətlərini yetərincə qoruyub saxlaya bilməsə də, xalqın tarixini yaşada bilir. "İctimai hadisə olan dil tarixi kateqoriyadır. Bu baxımdan da dilin mənsub olduğu xalqın tarixinin daşıyıcısı olduğunu iddia etmək, xalqın elm, mədəniyyət və mənəviyyatının inkişaf yolunu özündə əks etdirdiyini söyləmək heç də əsassız deyildir. İctimai həyatın müxtəlif sahələrini bütün çalarları, əlvanlığı, tam spektri ilə özündə təcəssüm etdirən dil xalqın həyatını, onun tarixini, ictimai-iqtisadi, siyasi, elmi və mədəni əlaqələrini yaşadan əbədi varlığa çevrilir" [2, s.291]. Bu mənada, "Koroğlu" dastanının dilindəki hərbi sözlər əsərin yarandığı dövrün mənzərəsini müəyyən qədər təqdim edə bilir. Dastanda hərbi anlayışlarla bağlı "*qılınc*" sözü aktivliyi ilə seçilir. Burada haqqında danışılan qılınc adi əşya deyil, ildırım parçasından düzəldilmişdir. Əsərdə "Misri" qılıncın düzəldildiyi daşın Rövşən (Koroğlu) tərəfindən tapıldığı göstərilir. Rövşən uşaqlıqda çöldə oynayarkən tapdığı balaca, ağır, parıltılı daşı bir buzova atır. Daş buzova dəyməsə də, onun yeli buzovu öldürür. Atası Alı kişi daşın ildırım parçası olduğunu yəqinləşdirir və ondan qılınc düzəltdirir: "Usta yeddi günə daşdan bir qılınc qayırdı. Elə ki qılınc hazır oldu, usta baxdı ki, nə qılınc?.. Vallah, bu elə bir qılınc oldu ki, almaz kimi par-par parıldayır, gün kimi yanır, ay kimi işıq salır" [1, s.53]. Xalq qılıncın seçkinliyini bildirmək üçün dastana ustanın ona sahiblənmək istəməsi epizodunu da daxil etmişdir. Qılıncın özəllikləri onu Rövşənə təqdim edən Alı kişinin nitqində öz əksini tapır: "Rövşən, al bu qılıncı belinə bağla. Bu qılınc özgə qılınclara bənzəməz. Adi qılınc deyil. Bu qılınca ildırım qılınc deyərlər. Bu, elə bir qılıncdı ki, qabağında heç bir şey dayanmaz. Hər nəyə vursan, kəsər, tökər" [1, s.54].

Qılıncın qədim zamanlardan bəri savaş aləti olması məlumdur. Xalqımızın tarixində elə hərbi sözlərlə qarşılaşırıq ki, onlar həmişə düşmənə qarşı işlədilən savaş aləti anlayışını ifadə etməyib. Həmin sözlər ən qədim dövrlərdə ov, ərzaq mübarizəsi məqsədilə istifadə edilən əşyaları ifadə etmiş, sonralar hərbi niyyətlə işlədilmişdir. Lakin qılıncın hərbi sursat olması bir çox qaynaqlardan bəllidir. “Koroğlu” dastanında qılınc vətənpərvərlik, xalqsevərlik, qoruyuculuq amalı ilə düşmənə qarşı sıyrılan alət olmaqdan başqa, həm də sınaq vasitəsidir ki, igidlərin qəhrəmanlığı onu işlətmək bacarığı ilə aydınlaşır. Dastanda vətənpərvərliyin güclü olması Alı kişinin oğluna müraciətində də verilmişdir: “Bu qılınc ilə sən xanlara, bəylərə, paşalara qan udduracaqsan. Bu qılınc ilə müxənnəslər, namərdlər, qarı düşmənlər sənin əlindən dad çəkəcəklər. Bu qılınc ilə sən qalalar sındıracaqsan, qəflələr, karvanlar dağıdacaqsan. Ancaq bunun ildırım qılınc olduğunu heç kəsə bildirmə. Bundan sonra bunun adına “Misri” qılınc deyərsən. Nə qədər ki sən Qıratın belindəsən, qılınc da sənin belindədi, heç bir düşmən sənə bata bilməyəcək” [1, s.54].

“Koroğlu” dastanı təsdiq edir ki, qılıncdan həmişə yaxşı məqsədlər üçün istifadə edilməyib. Belə ki, Həsən xanın qılınca münasibəti Koroğludan fərqlidir. Xan bu qılınc ilə xalqın sakit, zəhmətkeş nümayəndəsi olan Alı kişiyə hücum etmək istəyir.

Dastanın dilindəki “şeşpər” və “kəməd” sözləri də hərbi leksika örnəklərindən biridir. Dəli Həsənlə görüşündə döyüşmək istəməyən, lakin davasız keçinməyin mümkünsüzlüyünü görən Koroğlu deyir:

*Acıqlanma, Dəli Həsən,*
*Misri qılınca qataram.*
*Atılaram şeşpər kimi*
*Bağrın başına bataram.*

*Namərd nədi özün öyə?*
*Meydanda mərd igid söyə?*
*Qaçıb çıxar olsan göyə,*
*Kəmənd tullayıb tutaram* [1, s.61].

Dastanın dilindən belə məlum olur ki, hərbi alətlər təkcə düşmənə qarşı döyüşdə lazım olmur, həm də dostlarla tanışlıqda, igidləri Çənlibelə yığmaqda əhəmiyyət daşıyır. Və get-gedə döyüşlərdə işlənən hərbi sursatların sayı çoxalır. Yəni dastandakı hərbi sözlər qeyd edilənlərlə məhdudlaşmır. Əsərin ikinci qolunda “Koroğluynan Dəli Həsən”, [1, s.59-64] deyilir: “Dəli Həsənlə Koroğlu dava eləyəsi oldular. Qılınclarını çəkib bir-birinə hücum elədilər. Qılıncdan murad hasil olmadı, əmuda əl atdılar. Əmuddan murad hasil olmadı, nizəyə əl atdılar. Nizədən də kar aşmadı. Axırda atdan düşdülər, güləşməyə başladılar” [1, s.62]. Buradan məlum olur ki, hazırda idman növlərinin biri ilə bağlı anlayışı ifadə edən “güləş” sözü bir zamanlar hərbi məzmuna malik olmuşdur.

“Koroğlu” dastanının dilində qarşılaşdığımız hərbi leksika örnəklərindən biri də ox və kamandır. Dastanın beşinci qolunda “Koroğlunun Türkman səfəri”, [1, s.85-104] “bir qılınca yeddi boyun kəsən” Koroğlu durnalara müraciətindən sonra düşünür: “Mən göylə gedən bu qatar durnanın başçısını vursam, onda düşmanı da basa biləcəyəm. Bu, mənim üçün bir sınaq olsun. Bunu deyib kamanını çilləyə mindirdi, qatar durnanın başçısını nişan aldı. Ox yayından çıxan kimi durnanın başçısının ürəyinin başından keçdi” [1, s.100].

“Koroğlu” dastanında ox və yaydan igidlərin qəhrəmanlıq dərəcəsini müəyyənləşdirmək üçün də istifadə olunduğu müəyyən olunur. Bu baxımdan, “Koroğlunun Ərzurum səfəri” adlanan yeddinci qol diqqəti cəlb edir [1, s.110-126]. Bu qolda Koroğlu Dəmirçioğlunun igidliyini dəlilərə bildirmək üçün bir almanın üzərinə üzük taxıb onun başına qoyur: “Koroğlu Qıratı yəhərləyib mindi, əlinə yay-ox aldı. Qıratı qızılquş kimi cövlana gətirdi. Yay-oxu çilləyə mindirdi. Bir-birinin dalınca qırx ox atdı. Yaydan çıxan oxların hamısı üzüyün halqasından keçdi, heç biri xata eləmədi. Yayınmadı. Koroğlu oxları atanda Dəmirçioğlu nə yerindən qımıldanmadı, nə rəngi qaçdı, nə gözləri qırpındı” [1, s.113].

Məlumdur ki, hərbi sözlər hər bir dilin leksik tərkibində xüsusi mövqeyə malikdir. Dildə tarix baxımından müasir və qədim sözlərin varlığı təbiidir. "Hərbi anlayışlara uyğun leksik vahidlər də dilin ən qədim dövrlərindən yaranmağa başlamışdır". Belə ki, sinifli cəmiyyətin yaranması ictimai-siyasi leksikanın formalaşmasını əsaslandırmışdır. Bir çox qaynaqlar hərbi sözlərin qədim zamanlardan başlayaraq müxtəlif tarixi mərhələlərdə zənginləşdiyini göstərir.

Araşdırmalardan məlum olur ki, hərbi məzmun daşıyan leksik-qrammatik vahidlərdən "ox" sözünün tarixi qədimdir. Mənbələrdə bu əşya həm ov, həm də savaş aləti kimi diqqəti çəkir. "Koroğlu" dastanında da oxdan ov məqsədilə istifadə məqamları vardır. "Koroğlunun Türkman səfəri"ndə Koroğlunun Eyvazla gəldiyini görən Nigar xanım deyir:

*Koroğlu oxunu qurub,*
*Sevib seçib tərlan vurub,*
*Qıratın tərkində durub,*
*Eyvazı pişvaz eyləyin* [1, s.103].

Nigar xanımın mənzum nitqində "Ox atar namərd düşmana" misrası da vardır. Həmin hissədə hərbi sözlərdən olan "ordu" lekseminə də rast gəlirik:

*Ordu basan, qala yıxan,*
*Pəncəsində pələng sıxan,*
*Qəniminə qarşı çıxan*
*Eyvazı pişvaz eyləyin* [1, s.104].

Maraqlıdır ki, "Koroğlunun Türkman səfəri"ndə savaş mənalı sözlərdən biri də "xəncər"dir. Bu qolda Koroğlunun Ərəb Reyhanla qarşılaşması səhnəsində deyilir: *"Koroğlu onu başına qaldırıb yerə vurdu, sinəsinə çöküb xəncərini boğazına dayadı. Ərəb Reyhan bir dəfə də olsun, nə dinmədi, nə ağlamadı, nə də aman istəmədi. Koroğlu xəncəri yerinə qoyub ayağa durdu"* [1, s.103].

Hərbi leksika nümunələrindən biri də "silah" sözünün sinonimi olan "yaraq" leksemidir. Bu sözün əsasında dilimizdə "yaraqlanmaq" feli yaranmışdır. "Koroğlu" dastanında yaraq sözü ilə tez-tez qarşılaşmaq olar: "Koroğlu gördü, Dəmirçioğlu o qədər yaraq götürübdü ki, altında tərpənə bilmir" [1, s.114].

Dastanın dilindəki "basmaq" feli qədim ümumtürk dili vahidlərindən biri kimi əsərin aktiv leksikasına daxildir. "Bu feil kökü əsasında türk dillərində xeyli hərbi termin yaranmışdır" [3, s.92]. Bu mənada, *basqınçı* (basqın edən, hərbi müdaxilə məqsədilə hücum edən), *basqaq/baskak* (igid, cəsur, qəhrəman), *basmac* (quldur) sözlərini örnək gətirmək olar.

## Nəticə

Beləliklə, "Koroğlu" dastanının leksikası üzərində aparılan araşdırma XVI–XVII yüzilliklərdə *qılınc, əmud, nizə, güləş, ox, yay, kaman, çillə, şeşpər, xəncər, ordu, qala* (məlumdur ki, qədim dövrlərdə qalalar düşməndən müdafiə məqsədi daşıyırdı) kimi hərbi sözlərin dilimizin fəal leksikasına aidliyini göstərir. Dastanın dilində hərbi sözlərin işlənməsi XVI–XVII yüzilliklərdə ictimai-siyasi leksikanın varlığını və zənginliyini təsdiq edir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Abbaslı, İ. Koroğlu / İ.Abbaslı. – Bakı: Lider, – 2005. –533 s.
2. Mirzəliyeva, M. Dilin lüğət tərkibi. Təşəkkül, inkişaf və təkmilləşmə. Türk dillərinin tarixi-müqayisəli leksikologiyası məsələləri / M.Mirzəliyeva. – Bakı: Kitab aləmi, – I c. – 2004. – 331 s.
3. Məmmədli, Y. Azərbaycan dilinin hərbi leksikası / Y.Məmmədli. – Bakı: Universitet Nəşriyyatı, – 1997. – 145 s.

**Аннотация**
**Военная лексика эпоса “Кёроглу”**
**Эльнара Джавадова**

В статья говорится о языке эпоса “Кёроглу”. С этой целью военные слова на языке эпоса находятся на переднем крае. Анализируются многочисленные слова, подтверждающие богатство военного словаря эпоса “Кёроглу”. Размышления о назначении ряда слов В статье о войне, войне, охоте, а также ряд соображений, касающихся эпоса с моделью, полученной из характер испытаний. Отмечается, что история военных слов в языке эпоса очень древняя. Например, глагол “завоевать”, как показано, несет военное содержание, а слова основаны на том, что означает слово и его вооруженные силы. Кроме того, сгруппированы военные слова в эпосе “Кёроглу”, и обсуждается важность этих слов в социально-политической лексике. Делается вывод о невозможности представить социально-политическую лексику без военных слов.
**Ключевые слова**: язык, слово, лексика, выражение, война.

**Abstract**
**The military vocabulary of “Koroglu” epos**
**Elnara Cavadova**

The article is about the language of the epos "Koroglu". To this end the military words in the language of the epos are forefront. Numerous words are analyzed that confirm the richness of the military vocabulary of the Koroghlu epos. Reflections on the purpose of a number words In the article of war, war, hunting, as well as a number of considerations regarding the epos with a model derived from the nature of the tests. It is noted that the history of military words in the language of the epos is very ancient. For example the verb “conquer” is shown to carry military content and the words are based on that is what the word and its military. In addition, military words in the "Koroglu" epos language are grouped, and the importance of these words in the socio-political lexicon is discussed. It is concluded that it is impossible to imagine socio-political lexicon without military words.
**Keywords**: language, word, lexics, expression, war.

*Məqalə redaksiyaya daxil olmuşdur: 14.02.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 14.03.2020*
*Çapa qəbul edilmişdir: 11.04.2020*

**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№2 (6)/2020, səh. 49-56**


UOT 004.9

# AVTOMATLAŞDIRILMIŞ İDARƏETMƏ SİSTEMLƏRİNİN KİBER TƏHLÜKƏSİZLİYİ

**tex.e.d. Elçin Kərimov**
**Sevinc Musayeva**
*Azərbaycan Texniki Universiteti*
E-mail: e_kerimov.fizik@mail.ru

***Xülasə.*** Məqalədə hərbi informasiya əməliyyatlarının konseptual məsələlərinə baxılır. İnformasiya əməliyyatlarının məqsədi, vəzifəsi və tərkibi müəyyənləşdirir. Avtomatlaşdırılmış idarəetmə sistemlərinin (AİS) funksional və informasiya komponentləri analiz edilir.
**Açar sözlər:** informasiya müharibəsi, informasiya əməliyyatları, kiber əməliyyatlar, AİS, informasiya təhlükəsizliyi doktrinası.

Avtomatlaşdırılmış idarəetmə sistemlərində (AİS) kompüter şəbəkəsi və verilənlər bazası kimi müasir informasiya texnologiyalarının (İT) istifadəsi zamanı informasiyanın dəyəri artır, belə ki, informasiya məlumatlanma dərəcəsini artırmağa, müxtəlifsəviyyəli komandanlıq, hərbi idarəetmə orqanları və kəşfiyyat arasında qarşılıqlı əlaqəni yaxşılaşdırmağa və bununla da öz informasiya üstünlüyünü reallaşdırmağa imkan verir.

İT-nin inkişafı və onlar əsasında yaradılanların AİS-ə tətbiqi, qoşunların sürətlə informasiya yüklü silah, hərbi texnika (HT), yüksək dəqiqliklə malik kəşfiyyat və məhvetmə vasitələri ilə təmin edilməsi, informasiya mübarizəsi silahlı qüvvələrin ümumi qəbul edilmiş və ənənəvi idarəetmə modelində köklü dəyişikliklərə səbəb oldu.

Əsas tərkib hissəsi informasiya və texnoloji üstünlüyün nailiyyətləri olan əməliyyatlar ön plana çıxdı. Bu tendensiyalar özünü NATO-nun Balkanlar, Əfqanıstan və İraqda apardığı hərbi əməliyyatlar zamanı daha aydın şəkildə göstərdi [1].

Hazırda NATO-ya üzv ölkələr, ÇXR və Rusiya kimi böyük hərbi potensiala malik dövlətlər özünün kiber təhlükəsizliyinin təmin edilməsi probleminə çox ciddi yanaşırlar. Sözügedən oblastda liderlik, sözsüz ki, informasiya qarşıdurması strategiyasının əsaslarını hələ 1992-ci ildə irəli sürmüş ABŞ-a məxsusdur [2-5].

ABŞ-ın Silahlı Qüvvələrinin qərargah rəisləri komitəsi tərəfindən təsdiq edilmiş "İnformasiya əməliyyatları" sənədində Amerika hərbi rəhbərliyinin informasiya əməliyyatlarının hazırlanması, həyata keçirilməsi, informasiya qarşıdurmasının məqsədi və əsas prinsiplərinə dair baxışları, həmçinin belə əməliyyatların sülh və müharibə şəraitində hazırlanmasına cavabdeh olan vəzifəli şəxslərin vəzifə borcları göstərilmişdir [6]. Sənəddən göründüyü kimi, informasiya əməliyyatları düşmən tərəfin informasiya-kommunikasiya şəbəkələrinin və kompüter sistemlərinin müdafiəsini, eyni zamanda düzgün qərar qəbul etməsini çətinləşdirmək və yaxud tamamilə mümkünsüz etmək üçün maddi və mənəvi resurslarına təsir göstərən kompleks tədbirləri əhatə edir. Belə əməliyyatlar, əsasən, 5 tərkib hissəsindən ibarətdir [7]:

- radioelektron mübarizə (electronic warfare);
- psixoloji əməliyyatlar (psychological operations);
- informasiya-kommunikasiya şəbəkələrində əməliyyatlar (computer network operations);
- hərbi dezinformasiya (military deception);
- operativ təhlükəsizlik (operations security).

Sülh və müharibə şəraitində informasiya əməliyyatlarının uğurlu başa çatması üçün vacib olan köməkçi elementləri də təyin olunmuşdur:

- informasiya dayanıqlılığı (information assurance);
- fiziki təsir (physical attack);

– əks-kəşfiyyat (counter intelligence);
– fiziki təhlükəsizlik (physical security);
– verilənlərin toplanması və istifadə olunması (combat camera);
– ictimaiyyətlə əlaqə (public affairs);
– mülki-hərbi əməliyyatlar (civil-military operations);
– ictimai diplomatiyanın Müdafiə Nazirliyinin strukturları tərəfindən dəstəklənməsi (defense support to public diplomacy) [8].

ABŞ-ın Müdafiə Nazirliyinin D 3600.01 direktivi informasiya əməliyyatlarının əsas funksiya və məqsədlərini təyin etdi ki, bu direktiv tam olaraq radioelektron mübarizənin, informasiya-kommunikasiya şəbəkələrində əməliyyatların, psixoloji əməliyyatların, hərbi dezinformasiya və operativ təhlükəsizliyin kompleks tətbiq olunmasını göstərir [8]. İnformasiya əməliyyatları "informasiya təsiri, səhv qərar qəbuletmə, kompüter sistemlərinin işinin pozulması, informasiyanın təhrif olunması, verilənlər bazasının dağıdılması və düşmənin onlardan istifadəsinin qarşısının alınması, öz informasiyasının və informasiya infrastrukturunun müdafiəsini təmin etməklə eyni zamanda düşmənin verilənlər bazasından və kompüter sistemlərindən informasiyanın çıxarılması" məqsədilə aparılır. Sənəd informasiya əməliyyatlarının üç kateqoriyaya bölünməsini ehtiva edir (Şəkil 1). Belə direktiv sənədlər silahlı qüvvələrin bütün növləri üçün verilmişdir [9, s.14, 15].




**Şəkil 1. ABŞ Silahlı Qüvvələrinin informasiya əməliyyatlarının kateqoriyaları**

2009-cu ildə ABŞ-da Silahlı Qüvvələrinin kibernetik komandanlığı yaradılmışdır (USCYBERCOM). Bu komandanlığın yaradılması zamanı bütün növ silahlı qüvvələrin kiber-komandanlığını özündə birləşdirən birləşmiş döyüş komandanlığı modelindən istifadə edilmişdir (Şəkil 2) [10].

ABŞ Ali komandanlığının fikrincə, belə struktur ABŞ-ın bütün növ silahlı qüvvələrinin imkanlarından effektiv istifadə etmək imkanı verir və ümumqoşun əməliyyatları aparılarkən onların maraqları nəzərə alınır.

Təşkilati cəhətdən komandanlığın tərkibinə mərkəzi qüvvədən əlavə quru qoşunlarının (Cyberspace Task Force), HHQ-nin (AFCOC), HDQ-nin (FLTCYBERCOM), dəniz piyadaları və sərhəd mühafizəsinin analoji komandanlıqları da daxildir. Onlar həm öz kompüter şəbəkələrinin müdafiəsini, həm də ABŞ SQ-nin maraqları daxilində kibernetik əməliyyatların aparılmasını təmin edir.

Quru qoşunları kiberkomandanlığının əməliyyatlar, döyüş hazırlığı və mobilizasiya (Directorate of Operations, Readiness and Mobilization – DORM) idarəsinin tərkibində yaradılmışdır. Gözlənilir ki, imkanları genişləndirmək məqsədilə bu idarənin daxilinə aşağıdakı profil hissələr köçürüləcəkdir:

– quru qoşunların strateji komandanlığının kosmik və raket əleyhinə komandanlığı (Space And Missile Defense Command / Army Forces Strategic Command);
– kəşfiyyat və ordu təhlükəsizliyi komandanlığı (Intelligence And Security Command);
– telekommunikasiya texnologiyalarının inkişafı komandanlığı (Network Enterprise).




**Şəkil 2. ABŞ SQ kibernetik komandanlığının strukturu**

Yeni təşkilat qarşısında informasiya sistemlərinin idarəsi, kiberfəzada əməliyyatların həyata keçirilmə siyasətinin işlənilməsi üzrə quru qoşunları (QQ) qərargahının səylərinin birləşdirilməsi tapşırıqları qoyulmuş və həmçinin kiberfəzada hərbi əməliyyatların aparılmasına perspektivli taktiki və strateji vasitələrin yaradılması üçün resursların təmin edilməsi və tələblərin təsdiq olunması tapşırılmışdır [11].

Hazırda ABŞ-ın Quru Qoşunlarının döyüş hazırlığı və doktrinaları üzrə komandanlığının (TRADOC) kompleks imkanlarının inkişafı qrupu (Integrated Capabilities Devolopment Team – ICTD) tərəfindən ABŞ QQ-nin 2010 – 2024-cü illər üçün kiberfəzada qarşısına qoyulan məsələlər spektrini təyin edən baza sənədləri işlənilmişdir, əsasən də tammiqyaslı kiber vasitələrlə – əməliyyatların keçirilməsi (Cyber Electronics In Full-Spectrum Operations Concept) konsepsiyası yaradılmış və onların perspektiv istiqamətləri müəyyənləşdirilmişdir.

Kollektiv kibermüdafiə konsepsiyasını işləməklə paralel NATO-da bununla bağlı işlər görüldü. 2010-cu ilin noyabrında Alyansın sammitində "Kiber müdafiə oblastında hərəkət planları"nı hazırlamaq qərara alınmışdır. Burada NATO-nun kiber insidentlərə reaksiya mərkəzinin yaradılmasına mühüm yer ayrılacaqdır.

2009-cu ilin oktyabrında ABŞ konqresi üçün Northrop Grumman qrupunun hazırladığı "ÇXR-in kiber müharibə aparması və kompüter şəbəkələrində istifadə imkanları" məruzəsində göstərilir ki, Çin Xalq Azadlıq Ordusunda (ÇXAO) detallarına qədər dəqiq işlənilmiş düşmənin kompüter infrastrukturuna hücumun tətbiq doktrinası mövcuddur. Artıq ÇXAO-da hərbi konflikt zamanı bu əməliyyatları yerinə yetirən xüsusi hissələr yaradılmışdır. Bu hissələrdə olan döyüşçülərin sayı gizli saxlanılır, lakin ekspertlərin rəyinə görə, onların sayı 30 mindən az deyil. Şəbəkə fəzasında hücum əməliyyatlarının koordinasiyası üzrə tapşırıqlar ÇXAO-nun baş qərargahının radioelektron mübarizəyə cavabdeh olan 4-cü şöbəsinin üzərinə qoyulmuşdur [9;12].

Rusiya Federasiyasının informasiya sferasında milli təhlükəsizliyə təhdidlərin neytrallaşdırılması və maraqların müdafiəsi üçün "Rusiya Federasiyasının informasiya təhlükəsizliyi doktrinası"na əsasən, dövlətin informasiya təhlükəsizliyini təmin edən sistem yaradılmışdır ki, bu sistemdə Müdafiə Nazirliyi icra hakimiyyətinin federal orqanları və digər dövlət orqanları ilə birlikdə əsas elementlərdən biridir.

Rusiya Federasiyasının milli təhlükəsizliyinin təmin edilməsi maraqları məsələləri həll edilərkən Silahlı Qüvvələr informasiya təsiri obyektinə çevrilir. Bu şəraitdə Silahlı Qüvvələr öz informasiya təhlükəsizliyini kifayət qədər yüksək səviyyədə təmin etməlidir ki, bu da ölkənin milli təhlükəsizliyinə təminat verəcəkdir.

Rusiya Federasiyasının Silahlı Qüvvələrinin informasiya obyektlərinin növləri Şəkil 3-də göstərilmişdir [13].




**Şəkil 3. RF-in informasiya obyektlərinin növləri**

ABŞ SQ-də şəbəkə qarşıdurması informasiya qarşıdurmasının ayrı bir növü kimi qeyd olunmuşdur. Bunun üçün qüvvə və vəsaitlərin çoxsəviyyəli strukturu yaradılır:

– birinci səviyyə – sadə şəbəkələrə qarşı aktiv hərəkətlər;

– ikinci səviyyə – çoxsəviyyəli strukturlaşmış idarəetmə sistemlərinə qarşı "hərtərəfli hücumların" həyata keçirilməsi;

– üçüncü səviyyə – kriptodayanıqlı, yaxşı mühafizə olunan AİS-ə koordinasiyalı "zərbələrin" endirilməsi.

NATO-ölkələrinin əksəriyyətində, eləcə də Aİ-nin Silahlı qüvvələrində bu istiqamətdə informasiya qarşıdurması mükəmməlləşdirilir.

AİS-nin kiber təhlükəsizliyinin təmin edilməsi – informasiyanın mühafizəsi, kompüter və şəbəkələrin xarici təsirlərdən qorunması, düşmən tərəfdən zədələnməsi və ya tamamilə sıradan çıxarılması kimi tədbirləri nəzərdə tutur. Belə infrastrukturun ən zəif elementləri Şəkil 4-də göstərilmişdir [14].

Şəbəkə qarşıdurması inkişafının nəzərdən keçirilən aspektlərindən belə nəticəyə gəlmək olar ki, AİS-in kiber təhlükəsizliyi AİS-də saxlanılan, emal edilən və ötürülən informasiyanın informasiya-texniki xarakterli təhlükələrdən mühafizə vəziyyətidir.

AİS-in kiber təhlükəsizlik subyektləri dedikdə, yüksəkranqlı hərbi idarəetmə orqanları, onlara aid olan qoşun və hissələr, həmçinin, müxtəlif tip hərbi birləşmələr (MTHB) və onların struktur bölmələri başa düşülür.

AİS-in kiber təhlükəsizlik obyektləri (xarici və daxili təhlükələrdən mühafizə olunmalı informasiya obyektləri) aşağıdakılardır:

– dövlət sirri olan məlumatları saxlayan AİS-in informasiya resursları və digər informasiyalar;

– silahlı qüvvələrin bütün növlərinin avtomatlaşdırılmış sistemləri, qoşun növləri, MTHB və onların struktur bölmələri;

– informasiya – hesablama sistemləri;

– AİS-in hesablama texnikası vasitələri;

– telekommunikasiya və rabitə vasitələri sistemləri;

– informasiya və telekommunikasiya texnologiyaları;

– texnoloji proseslər;

– texnoloji informasiya və idarəetmə informasiyası;

– proqram təminatı (ümumi sistem və xüsusi proqram təminatları (PT));

– informasiyanın mühafizəsi vasitələri (İMV);

– İMV-in effektivliyinə nəzarət vasitələri.




**Şəkil 4. Hərbi təyinatlı AİS-in infrastruktur elementləri**

AİS-in informasiya-texniki xarakterli təhlükəsi dedikdə, AİS-in vəziyyətinə, onun obyektlərinə, işlədiyi mühitə və ya informasiyasına yolverilməz ziyan vuran və ya onun funksiyasını tələb olunan keyfiyyətlə apara bilməyəcək, informasiya-texniki təsirlər göstərən şərait və faktorların cəmi başa düşülür.

AİS-in kiber təhlükəsizliyinin təmin olunmasının elmi-texniki problemlərinin nəzərdən keçirilməsi zamanı onları məqsədəuyğun şəkildə iki yerə ayırmaq lazımdır: daxili və xarici. Hərbi təyinatlı AİS-in kiber təhlükəsizliyinin xarici elmi-texniki problemlərinin səbəbi dövlətin yurisdiksiyasından kənarda yerləşən istənilən subyektlər tərəfindən aparılan, onun döyüş hazırlığının zəifləməsinə gətirən mütəşəkkil texniki-informasiya təsirləridir. Əsas problemlər sırasında aşağıdakılar qeyd olunmalıdır:

– bir sıra ölkələrdə informasiya qarşıdurması konsepsiyasının işlənilməsi, bu ölkələr tərəfindən informasiya silahının yaradılması, həmçinin həmin ölkələr tərəfindən informasiya sferasında üstünlük əldə etmək maraqları naminə kəşfiyyatın müxtəlif növlərinin aparılması;

– dövlətin informasiya obyektlərinə xarici dövlətlər tərəfindən texniki-informasiya təsiri;

– qabaqcıl ölkələrin texnoloji üstünlüyünün artması, digər ölkələrin özlərinin informasiya infrastrukturu obyektlərinin işləməsi üçün xarici texnika alınması asılılığının genişlənməsi və xarici ölkələrin yerli, rəqabətədavamlı müasir informasiya texnologiyalarına qarşı əks-təsir imkanlarının artması.

AİS-in kiber təhlükəsizliyinin təmin olunmasının daxili elmi-texniki problemlərinin səbəbi dövlətin yurisdiksiyasında istənilən subyektlər tərəfindən aparılan, onun döyüş hazırlığının zəifləməsinə gətirən mütəşəkkil texniki-informasiya təsirləridir.

Beləliklə, AİS-in kiber təhlükəsizliyinin təmin edilməsi AİS-in obyektlərinə təhlükəni aşkar və ləğv edən (neytrallaşdıran), riskləri və mümkün olan ziyanı azaldan informasiya təhlükəsizliyi subyektlərinin fəaliyyəti olmalıdır.

Bu zaman hərbi təyinatlı AİS-in kiber təhlükəsizliyinin təmin olunmasının əsas məsələləri aşağıdakılardır:

– AİS-in kiber təhlükəsizliyinə təhdidlərin və onların mənbələrinin sistematik olaraq aşkar edilməsi və aradan qaldırılması;

– informasiya sahəsində vahid dövlət siyasətini həyata keçirən AİS-in kiber təhlükəsizliyinin təmin olunmasının yeni üsul və metodlarının işlənilməsi mövcud olanların isə mükəmməlləşdirilməsi də nəzərə alınmaqla təhlükələrin aşkar olunması, qiymətləndirilməsi, proqnozlaşdırması, neytrallaşdırması və tamamilə ləğv edilməsi sistemlərinin inkişafı və təkmilləşdirilməsi;

– AİS-in kiber təhlükəsizliyinə olan təhdidlərə effektiv əks-təsir;

– AİS-in kiber təhlükəsizliyinin təmin olunması oblastında hərbi-texniki siyasətin əsas istiqamətlərinin və həmçinin bu siyasətin həyata keçirilməsi ilə bağlı tədbir və mexanizmlərin işlənilməsi;

– AİS-in kiber təhlükəsizliyinin təmin olunması sisteminin effektivliyinin qiymətləndirilməsinin metod və kriteriyalarının işlənilməsi;

– AİS-in kiber təhlükəsizliyinin təmin olunması üzrə normativ-hüquqi bazanın mükəmməlləşdirilməsi;

– AİS-in kiber təhlükəsizliyinin təmin olunması oblastında hərbi idarəetmə orqanlarının fəaliyyətinin koordinasiyası;

– AİS-in kiber təhlükəsizliyinin təmin olunmasının elmi-praktiki əsaslarının işlənilməsi;

– AİS-in kiber təhlükəsizliyinin təmin olunmasına istiqamətlənmiş proqramların işlənilməsi və həyata keçirilməsi;

– baza informasiya mühafizə olunan kompüter texnologiyalarının yaradılması;

– informasiyanın sızması, ələ keçirilməsi, məhv olunması, təhrif edilməsinə səbəb olan informasiya təsirlərinin aşkarlanması, qarşısının alınması, tamamilə ləğv edilməsi və AİS-in fəaliyyəti zamanı informasiya ötürülməsinin dayanması;

– kriptoqrafik vasitələr də daxil olmaqla informasiya təhlükəsizliyi vasitələrini istifadə etməklə informasiya mühafizəsinin təşkili;

– informasiyanın təhlükəsizliyi tələblərinə uyğun Müdafiə Nazirliyinin informasiya mühafizəsi vasitələrinin sertifikatlaşdırma sistemlərinin təkmilləşdirilməsi;

– informasiya mühafizəsi, proqram təminatı vasitələrinin, onların işlənilməsi texnologiyalarının sertifikasiyası və informasiya təhlükəsizliyi tələblərinə uyğun olaraq tətbiq olunması;

– AİS-in mühafizə vasitələrinin, üsul və metodlarının qarşı tərəfin informasiya-texniki təsirlərinə qarşı təkmilləşdirilməsi;

– kadrların hazırlanma sisteminin təkmilləşdirilməsi.

Göstərilən məsələlərin həlli zamanı sistem mühəndisliyinin aşağıdakı əsas prinsiplərini rəhbər tutmaq lazımdır:

– kifayətlilik – kiber təhlükəsizliyin təmin olunmasına lazım olan xərclərin (kompleks tədbirlər) səviyyəsinin AİS – ə mümkün ziyandəymə qiymətinə uyğunluğu;

– komplekslik – AİS-in kiber təhlükəsizliyinin təmini vasitələrinin, müxtəlifnövlü metod və üsulların kompleks şəkildə istifadə olunması;

– kəsilməzlik – AİS-in kiber təhlükəsizliyinin təmini sisteminin istənilən şəraitdə onların mühafizəsinin təmin edilməsi;

– operativlik – AİS-ə təhlükə törədən faktor və şəraitin dəyişməsinə vaxtında reaksiya verilməsi;

– sistemlilik – AİS-in kiber təhlükəsizliyinin təmin olunmasına sistemli yanaşmanın həyata keçirilməsi;

– məqsədyönümlülük – AİS-in təhlükəsizliyinin tələb olunan səviyyəyə çatdırılması üçün məqsəd və tədbirlərin informasiya təhlükəsizliyinin təmin edilməsinin ümumi fikrinə mütləq tabe olunması.

## Nəticə

AİS-in kiber təhlükəsizliyinin təmin olunması sisteminin mükəmməlləşdirilməsi üzrə fəaliyyət sisteminin hüquqi, təşkilati, texniki və iqtisadi əsasları ilkin dərin elmi nəticələr əsasında işlənilməlidir. Xarici təcrübə və bu məsələlər haqqında digər dövlət strukturlarının fəaliyyət təcrübəsi öyrənilməli və ümumiləşdirilməlidir. Bu işdə ilk növbədə aşağıdakı tədbirlər həyata keçirilməlidir:

– AİS-in kiber təhlükəsizliyinin əsaslarının elmi-praktiki inkişafı;

– AİS-in kiber təhlükəsizliyinin təmin olunmasının normativ və hüquqi bazasının təkmilləşdirilməsi və inkişafı;

– AİS-in kiber təhlükəsizliyinin təmin olunmasının müasir vasitələrinin, üsul və metodlarının, həmçinin kompüter hücumlarının aşkar edilməsi və xəbərdarlıq sistemi tərkibindən proqram və ya aparat-proqram həllərinin inkişafı;

– AİS-in kiber təhlükəsizlik sisteminin təşkilati-ştat strukturunun təkmilləşdirilməsi;

– AİS-in kiber təhlükəsizliyinin təmin olunması oblastında mütəxəssislərin hazırlıq sisteminin inkişafı.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Бобров, А. Информационная война: От листовки до твиттера // Зарубежное военное обозрение, – 2013. №1, – с. 20-27.
2. Корсаков, Г.Б. Роль информационного оружия в военно-политической стратегии США // США и Канада: экономика, политика, культура, – 2012. №1, – с. 39-60.
3. Пашков, В. Информационная безопасность США // Зарубежное военное обозрение, – 2010. №10, – с. 3-13.
4. Роговский, Е.А. Политика США по обеспечению безопасности киберпространства // США и Канада: экономика, политика, культура, – 2012. №6, – с. 3-22.
5. Храмчихин, А.А. Стратегические концепции Китая в геополитическом аспекте // Международные научные исследования, – 2011. № 3-4, – с. 18-23.
6. AFDD 3-12, Cyberspace Operations, USAF, – 2010. – 60 p.
7. AFDD 3-13, Information Operations, USAF, – 2011. – 65 p.
8. AFPD 10-7, Information Operations, USAF, – 2006. – 29 p.
9. DoDD 3600.1, İnformation Operations, US DoD, – 2013. – 12 p.
10. Information Operations Primer. Fundamentals of Information Operations, U.S. Army War College, – 2011. – 204 p.
11. JP 3-13, Information Operations US Joint Chiefs of Staff, – 2012. – 69 p.
12. JP 3-13.1, Electronic Warfare, US Joint Chiefs of Staff, – 2007. – 115 p.
13. Vinod, A. Chinese Concepts and Capabilities of Information Warfare // Strategic Analysis, – 2006. Vol. 30. № 4, – p. 781-797.
14. Wade, N.M. The Joint Forces Operations & Doctrine / N.M.Wade. – US, Florida, Lakeland: The Lightning Press, – 2012. – 75 p.

## Аннотация
## Кибербезопасность автоматизированных систем управления военного назначения

**Элчин Керимов, Севиндж Мусаева**

В статье рассмотрены концептуальные вопросы военных информационных операций. Определены цели, задачи, составляющие информационных операций. Проанализированы функциональные и информационные компоненты автоматизированных систем управления (АСУ) военного значения.

**Ключевые слова**: информационная война, информационные операции, кибероперации, АСУ, доктрина информационный безопасности.

**Abstract**
**The cyber security of military-oriented Automated Management Systems**
**Elchin Kerimov, Sevinj Musaeva**

In the paper, the conceptual issues of military information operations have been considered. The purpose, task and contents of information operations have been defined. Functional and information components of military-oriented Automated Management Systems have been analyzed.
**Keywords:** information war, information operation, cyber operations, AMS, information security doctrine.

*Məqalə redaksiyaya daxil olmuşdur: 25.01.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 22.02.2020*
*Çapa qəbul edilmişdir: 04.04.2020*

**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№2 (6)/2020, səh. 57-65**
***MİLLİ TƏHLÜKƏSİZLİK*** ***NATIONAL SECURITY***

UOT 327

# CƏNUBİ QAFQAZDA ENERJİ TƏHLÜKƏSİZLİYİ HİBRİD TƏHDİDLƏR KONTEKSTİNDƏ

**mayor Xəyal İskəndərov**
*Silahlı Qüvvələrin Hərbi Akademiyası*
E-mail: xayal1333@gmail.com

***Xülasə.*** Enerji təhlükəsizliyinə hibrid təhdidlər, müxtəlif bölgələrdə onlara qarşı müqavimətin artırılması son on ildə tədqiqatçılar üçün ən aktual mövzulardan biri olmuşdur. Məqalədə Cənubi Qafqaz bölgəsində və ondan kənarda enerji təhlükəsizliyinə təhdidləri qiymətləndirilir. Retrospektiv təhlillər əsasında təhdid və risk faktorları müəyyənləşdirilir, enerji təhlükəsizliyi üçün şərti və struktur risklər nəzərdən keçirilir. Xəzərin enerji ehtiyatlarının nəqlini nəzərdə tutan transmilli enerji layihələrinə baxılır. Hibrid təhdidlərin enerji sektorunda tələb və təklifin təhlükəsizliyinə mümkün təsirləri təhlil edilir.

**Açar sözlər:** hibrid təhlükə, enerji təhlükəsizliyi, Cənubi Qafqaz, infrastruktur, enerji marşrutu.

## Giriş

Gürcüstanda baş verən hadisələr, Qərblə Rusiya, eyni zamanda İran arasında davam edən gərginlik birbaşa və ya dolayı yolla enerji təhlükəsizliyinə təhdid yaradır, çünki Cənubi Qafqaz həmişə toqquşan maraqların oyun meydançası olmuşdur. Qısa və ortamüddətli perspektivdə enerji ehtiyatlarının tədarükünü poza biləcək hibrid təhdidlər xüsusilə mürəkkəbdir, onları müəyyənləşdirmək və ya qarşısını almaq çox çətindir, çünki klassik təhdid metodları ilə yanaşı, müasir texnologiyaların imkanlarından da istifadə edir [1]. Buna görə də dayanıqlılığı artırmaq üçün enerji təhlükəsizliyi sahəsindəki boşluqlar ciddi şəkildə araşdırılmalıdır. Hazırda Rusiya və Qərb arasında, bilinən və bilinməyən döyüş meydanlarında, kiber məkanın virtual aləmindən tutmuş insanların zehinlərinə qədər siyasi və normativ mübarizə davam etməkdədir. Rəsmi Kremlə görə Rusiya onu siyasi cəhətdən təcrid etmək, sarsıtmaq, qeyri-sabit vəziyyətə salmaq istəyən və "super güc" kimi inkar edən Amerikanın rəhbərlik etdiyi kompaniyaya cavab olaraq belə bir mövqe nümayiş etdirir. Qərbə görə isə Moskva 1945-ci ildən sonrakı qlobal nizamın arxitekturasına və təcəssüm etdirdiyi dəyərlərə xələl gətirən neo-imperialist bir kompaniyaya başlamışdır [2].

Enerji təhlükəsizliyi məsələsi geniş şəkildə müzakirə olunsa da, Cənubi Qafqaz bölgəsi ilə əlaqədar enerji təhlükəsizliyinə hibrid təhdidlər hərtərəfli öyrənilməmişdir. Bu problemin aktuallığını sübut edir. Məqalədə məqsəd Cənubi Qafqaz regionunda və ondan kənarda enerji təhlükəsizliyinə təhdidləri təhlil etməkdir. İstifadə olunan tədqiqat metodları müqayisəli analiz və sintezdir.

## Enerji təhlükəsizliyi konsepti. Risk və təhdidlər

Enerji təhlükəsizliyinə təhdidlər XXI əsrin əvvəllərindən etibarən dövlət və qeyri-dövlət aktorlarını, təbii və texnogen fəlakətləri, daha vacib kiberhücumları əhatə etməklə çoxşaxəli xarakter daşıyır [3]. Enerji təhlükəsizliyi 2000-ci illərə qədər, əsasən, neftin fasiləsiz tədarükünü nəzərdə tutsa da, son on ildə təbii qaz enerji təhlükəsizliyində mühüm rol oynayır. Hazırda enerji mənbələri müxtəlif olduğundan, onun təhlükəsizliyinə təhdidlər də müxtəlifdir.

Enerji təhlükəsizliyinə yeni təhdidlər geosiyasi dəyişikliklərlə sıx bağlıdır. Daxili təhlükələr xarici təhdidlər qədər ölkənin rifahına ciddi təsir göstərir. Lakin bu təhdidlərin qarşısı alına və ya azaldıla bilər. Təhdidlərin müəyyənləşdirilməsi və onların enerji təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi bu təhdidlərə qarşı mübarizədə ən vacib addımdır.

Ken Koyama enerji təhlükəsizliyi ilə əlaqəli təhdid və risk faktorlarını iki qrupa bölür [4]:

1. Gözlənilməyən risklər:

– enerji təchizatının pozulması:

a) müharibə, inqilab, terror, iğtişaşlar və ya neft hasil və istehlak edən ölkələrdə baş verən hər hansı digər siyasi hadisə nəticəsində;

b) ümumi enerji təchizatı zəncirinin bir hissəsində qəza, təbii fəlakət və ya gözlənilməz hər hansı hadisənin baş verməsi nəticəsində;

– istehlakçıların təlaşa düşməsi (qiymət artımının sürətlənməsi, bazarda qarışıqlıq və s.).

2. Struktur risklər:

– müəyyən müddət ərzində tətbiq olunan siyasi-iqtisadi sanksiya və embarqolar;
– istehsalçının bazar gücü;
– resursların tükənməsi;
– enerji resurslarına tələbin uzun müddətdə davam etməsi;
– istehsalı məhdudlaşdıran investisiya çatışmazlığı;
– ətraf mühitin qorunması məsələlərindən qaynaqlanan enerji təchizatı problemləri. Bazarın tənzimlənməsi və ya digər institusional amillər.

Cənubi Qafqaz regionu ilə bağlı daha dəqiq nəticələr əldə etmək üçün məqalədə hər iki risk qrupuna aid olan müxtəlif nümunələr təhlil olunmuşdur.

**Gözlənilməyən risklər.** Bu risklər enerji təchizatının həm qısamüddətli, həm də uzunmüddətli pozulması ilə nəticələnir. Filip Verleger qeyd edir ki, 1973-cü ildən başlayaraq dünya bazarında neftin təchizatına mənfi təsir göstərən on doqquz hadisə baş vermişdir (Cədvəl 1) [5].

**Cədvəl 1. Dünya bazarında neftin təchizatına mənfi təsir göstərən hadisələr (1973–2018)**

| Hadisə | Başlama tarixi | Müddət (həftə) | Qiymət dəyişikliyi (%) | Təchizat itkisi (%) |
|---|---|---|---|---|
| Ərəb Embarqosu | Oktyabr 1973 | 4 | 231.6 | -3.3 |
| İranın neft tətili | Oktyabr 1979 | 2 | 15.1 | 0.2 |
| Səudiyyə Ərəbistanının neft hasilatını artırmaqdan imtina etməsi | Yanvar 1979 | 2 | 64.5 | -2.5 |
| Səudiyyə Ərəbistanının böyük şirkətlərə neft təchizatını azaltması | May 1979 | 1 | 30.7 | -0,2 |
| ABŞ-ın İrandakı səfirliyində girov götürmə | Noyabr 1979 | 14 | 17.8 | -0,3 |
| İran–İraq müharibəsinin başlaması | Sentyabr 1980 | 2 | 28.4 | -1,5 |
| İraqın Küveytə hücumu | Avqust 1990 | 6 | 58.4 | -0,5 |
| OPEC-in birtərəfli qaydada istehsalı azaltması | Yanvar 1999 | 12 | 43.5 | 0.1 |
| Venesuela neft tətili | Noyabr 2002 | 2 | 117.5 | -5.1 |
| Katrina / Rita qasırğaları | Avqust 2008 | 4 | 11.2 | -1.2 |
| Nigeriya istehsalında gözlənilməz azalma | 2007-ci ilin əvvəlləri | 4 | 18.8 | -1.1 |
| Çində neftə olan tələbin artması | 2007-ci ilin sonları | 6 | 31.1 | 0.7 |
| Aİ-nin 10 mq/l kükürd dizelini tətbiq etməsi | 2008-ci ilin yazı | 6 | 45.2 | -1.3 |
| Liviya istehsalının çökməsi | Yanvar 2011 | 3 | 27.7 | -0.7 |
| İkinci Liviya istehsalı | Yanvar 2014 | 3 | 15.8 | 1.3 |
| OPEC-in 2017-ci ildə istehsalı azaltması | Yanvar 2017 | davam edir | 7.8 | -1.7 |
| Harvey qasırğası | Sentyabr 2017 | 3 | 12.7 | -0.6 |
| Venesuelanın istehsalının çökməsi | Noyabr 2017 | davam edir | 12.7 | 0.5 |
| Venesuela aktivlərinin “Conoco Philips” şirkətinə birləşdirilməsi | May 2018 | davam edir | | -0.9 |

Cədvəldən göründüyü kimi, enerji tədarükünün ən qısa müddətə dayanması bir həftə, ən uzun müddətə isə üç ildən çox olmuşdur. Bundan əlavə, neft tədarükünü azaltmaq üçün mövcud müqavilənin 2020-ci ilin sonuna qədər uzadılmasına qərar verilmişdir.

Enerji təchizatının siyasi məsələlərdən qaynaqlanan kəsilməsinin müvafiq tarixi nümunələri vardır. 2006 və 2009-cu illərdə Rusiya – Ukrayna qaz mübahisələri Avropada təbii qaz təchizatı çatışmazlığına səbəb oldu. 2005-ci il Katrina qasırğası zamanı Meksika Körfəzinin neft qurğularına ciddi ziyan dəydi. 2019-cu ildə Səudiyyə Ərəbistanının neft infrastrukturuna edilən hücum, neft qiymətlərinin artımı – qlobal enerji bazarında təxminən 30 ilin ən böyük sıçrayışı ilə nəticələndi. Şübhəsiz ki, enerji təchizatındakı fasilələr ölkələrin sosial-iqtisadi inkişafına mənfi təsir göstərir. Beləliklə, enerji istehsal edən və tranzit ölkələrdə siyasi sabitliyin olması çox vacibdir. Bundan əlavə, enerji nəqlinin fasiləsizliyini təmin etmək üçün kritik enerji infrastrukturunun hibrid təhdidlərə (dövlət və qeyri-dövlət aktorları, təbii və texnogen fəlakətlər, kiberhücumlar) qarşı dayanıqlılığı artırılmalıdır.

**Struktur risklər.** Bu risklərə aydınlıq gətirmək üçün Cənubi Qafqazda, eyni zamanda regiondan kənarda baş verən hadisələrə nəzər salmaq lazımdır. Tətbiq olunan siyasi-iqtisadi sanksiyalar nəticəsində İranın qlobal enerji bazarından təcrid edilməsi struktur risklər üçün ən yaxşı nümunədir. Bu sanksiyalar təkcə İrana təsir göstərmir, eyni zamanda qlobal enerji bazarı üçün ciddi risk yaradır. Belə ki, 2019-cu ilin iyul ayında sanksiyalar səbəbindən İran neftinin ixracı gündə 100.000 barelə qədər azaldı. Vaxşurinin hesabatlarına görə, İran gündə 225.000–350.000 barel neft ixrac edə bilər [6]. Qeyd etmək lazımdır ki, 2011-ci ilin sonlarında ABŞ sanksiya tətbiq etməzdən bir qədər əvvəl İranın neft hasilatı təqribən gündə 3,6 milyon barel idi. 2012-ci ilin əvvəlində Aİ İran neftinə qadağa qoymağa başladı. Nəticədə, hasilat 2,6 milyon barelə düşdü. 2016-cı ilin əvvəlində sanksiyalar qaldırıldı və İranın neft hasilatı artmağa başladı. 2018-ci ilin əvvəlində ABŞ sanksiyaları bərpa edənə qədər İranın xam neft hasilatı 3,8 milyon barelə çatmışdı. Nəzərə alaq ki, neft hasilatı hələ də azalmaqdadır. İşçi qüvvəsi və kapital çatışmazlığı səbəbindən 2019-cu ildə Venesuelanın neft ixracı 32% azalaraq, gündəlik 1.001 milyon barelə, son 75 ildə ən aşağı səviyyəyə çatmışdır [7].

Bazar gücünün manipulyasiyası – enerji şirkətlərinin təchizatı azaltmaqla bazarda enerji resurslarının qiymətini öz xeyirlərinə artırması çox ciddi struktur risklərindən biridir. Bazar gücünə sahib olan şirkətlər çox vaxt “qiymət qoyanlar” kimi təsvir olunur. Tamar Pataraianın fikrincə, *Rusiya kimi enerji istehsal edən ölkələr resursların daşınmasında inhisarını qorumaq və qazanclarını artırmaq, istehsal və tranzit qiymətlərinə təsir göstərmək məqsədilə hər üsuldan istifadə edirlər. Buna görə də Rusiya enerji marşrutlarının şaxələndirilməsi layihələrində iştirak edən ölkələrə qarşı çıxır* [8]. Bundan əlavə, “Gazprom” bazar gücü ilə enerji bazarlarını manipulyasiya edə, Avropa ölkələrinə təsir göstərmək məqsədilə bazarlarda süni qıtlıq yarada bilər. Bu taktika 2006, 2009 və 2014-cü illərdə Ukraynaya qarşı tətbiq edilmişdir.

Enerji təhlükəsizliyi üçün başqa bir struktur risk enerji ehtiyatlarının tükənməsidir. Hazırda Cənub Qaz Dəhlizi (CQD) Aİ-nin istifadə olunmamış enerji mənbələrinə çıxışını təmin edir, çünki enerji resurslarına tələbat artmaqdadır. “Dünya Enerji Baxışı” adlı hesabat 2040-cı ilə qədər enerjiyə tələbatın hər il 1% artacağını proqnozlaşdırır. ABŞ-ın Enerji Məlumat İdarəsi, dünyanın enerji istehlakının 2050-ci ilə qədər təxminən 50% artacağını iddia edir [9]. Lakin enerji təhlükəsizliyi konsepti mütəmadi olaraq artan tələbatla birlikdə enerji istehsal edən və tranzit ölkələrin sabitliyini nəzərdə tutur və bu da öz növbəsində beynəlxalq əməkdaşlığı şərtləndirir. Ülviyyə Aydın və Dina Azğəliyevanın qeyd etdiyi kimi: *“Ukrayna və Türkiyədəki siyasi sabitliyin kəskin pisləşməsi, Azərbaycan, Qazaxıstan və Türkmənistanda enerjiyə tələbatın təhlükəsizlik riskini artırır. Nəticələr yalnız Aİ ilə Xəzər hövzəsi ölkələri arasında deyil, eyni zamanda Gürcüstan və Türkiyə kimi tranzit ölkələrlə də əməkdaşlığın vacibliyini göstərir. Alternativ olaraq, məsələn, Trans-Xəzər Boru Kəməri ilə, siyasi sabitliyi aşağı olan ölkələrdən yan keçən enerji marşrutları nəzərdən keçirilə bilər”* [10].

Enerji təhlükəsizliyi üçün əsas risklərdən biri, təchizatı məhdudlaşdıran sərmayə çatışmazlığıdır. Azərbaycan Cənubi Qafqazda enerji ixrac edən ölkədir. Rəsmi Bakı regionda reallaşmış istənilən layihənin iştirakçısıdır. Qeyd etmək lazımdır ki, bu layihələr müxtəlif ölkələr və

təşkilatlarla əməkdaşlıq sayəsində həyata keçirilmişdir. Məsələn, Aİ-nin maliyyələşdirdiyi Nabukko boru kəməri layihəsi 2013-cü ildə Rusiyadan yan keçməklə Xəzər dənizindən Avropaya qaz nəql etməli idi [11]. Beləliklə, bu proseslər Rusiya – Ermənistan – İran üçbucağında yerləşən Azərbaycan – Gürcüstan – Türkiyə ittifaqının yaradılmasını şərtləndirir. Bu gün Bakı – Tbilisi – Ceyhan, Bakı – Tbilisi – Ərzurum, TANAP, TAP və Bakı – Tbilisi – Qars kimi regional layihələr bu strateji ittifaqı gücləndirən əsas iqtisadi, siyasi və geosiyasi faktorlar hesab olunur. Gürcüstan və Türkiyədə təbii sərvətlərin kifayət qədər olmaması Azərbaycanın bölgədəki geostrateji əhəmiyyətini daha da artırır [12]. Əlbəttə ki, bu layihələrin iştirakçıları enerji marşrutlarını şaxələndirməyə çalışan Qərb ölkələridir. Lakin rus tədqiqatçılar bu layihələrə "Rusiya sərhədində yeni antimoskva enerji bloku" yaratmaq cəhdi kimi baxırlar.

## Enerji təhlükəsizliyi hibrid təhdidlər kontekstində

Bütün ölkələrin gələcəyi kritik enerji infrastrukturundan asılıdır. 2014-cü il Ukrayna böhranından sonra Avropanın ümumilikdə Rusiyanın enerji sektorundan və xüsusən təbii qazından asılılığı məsələsi yenidən gündəmə gəldi. 2014-cü ilin iyununda Rusiyanın Ukraynaya enerji təchizatını dayandırması və Avropaya qaz təchizatında fasilələrin yaranmasına səbəb olan qiymət artımı enerji marşrutlarının diversifikasiyası və Rusiyadan idxalın azalması ilə bağlı məsələləri yenidən gündəmə gətirdi [13]. Baxmayaraq ki, Xəzər hövzəsi bugünkü dünya neft hasilatının yalnız 2%-ni istehsal edir, ABŞ Enerji Departamenti və Enerji Məlumat İdarəsinin (EIA) hesabatlarına əsasən, Xəzər nefti dünya ehtiyatlarının təqribən 15%-ni təşkil edir. Eyni şəkildə, təbii qaz istehsalı dünya hasilatının yalnız 3%-ni təşkil edir, lakin Enerji İqtisadiyyatı *üzrə* Beynəlxalq Assosiasiya faktiki səviyyəni 6%-ə yaxın qiymətləndirir [14]. Bütün bu faktlar Xəzər hövzəsinin qlobal enerji təhlükəsizliyində əhəmiyyətini sübut edir. Enerji resurslarını Xəzər hövzəsindən quru yolu ilə Avropaya nəql etməyin üç variantı mümkündür: Rusiya, İran və Azərbaycan üzərindən. İran və Rusiyanın cəlb olunduğu strateji problemləri nəzərə alaraq, Azərbaycan, Gürcüstan və Türkiyədən keçən boru kəmərlərinin Avropanın enerji təhlükəsizliyində əhəmiyyəti getdikcə artır. Bu da Cənub Qaz Dəhlizinin (CQD) reallaşmasında əsas faktordur. CQD-yə Azərbaycandakı Şahdəniz 2 qaz yatağı, Cənubi Qafqaz Boru Kəməri (Azərbaycan–Gürcüstan), Türkiyədən keçən TANAP və TAP daxildir (Şəkil 1).



**Şəkil 1. Cənub Qaz Dəhlizi** [15]

Regionun geoiqtisadi roluna gəldikdə, S.E.Kornell, S.F.Starr, M.Tsereteli Cənubi Qafqazı Süveyş, Panama, Hörmüz və ya Malakka boğazları ilə müqayisə edir [16]. Coğrafi mövqeyi baxımından Cənubi Qafqaz bu regionlarla oxşar xüsusiyyətlərə malikdir. Həm Rusiya, həm də İrana tranzit ölkə kimi inamın itməsi bu regionun əhəmiyyətini artırır. Bəzi tədqiqatçıların fikrincə, regionun tranzit kimi rolu diqqət mərkəzindən kənarda qalmış və ya yetərincə qiymətləndirilməmişdir. Cənubi Qafqazdan və Orta Asiyadan Avropaya davamlı enerji nəqli regional dövlətlərin iqtisadi və siyasi müstəqilliyi üçün vacibdir. Xəzər dənizini Türkiyə üzərindən Avropaya birləşdirən boru kəmərləri sisteminin yaradılması, eyni zamanda enerji inhisarçılığını da məhdudlaşdırır. Qazaxıstanın neft, Türkmənistanın qaz ehtiyatlarının böyük hissəsi hələ istifadə edilməmişdir və Cənubi Qafqazın bu enerji resurslarının nəqlində tranzit kimi potensialı böyükdür.

Regionda Azərbaycan və Gürcüstan üçün enerji təhlükəsizliyi, əsasən, tələbin və nəqlin təhlükəsizliyi ilə bağlıdır. Tələbin təhlükəsizliyi enerji istehsalı və nəqlindən gələn sabit və müntəzəm gəlirləri nəzərdə tutur. Nəqlin təhlükəsizliyi enerji infrastrukturuna başvermə ehtimalı olan istənilən miqyasda təhdidi (fərdi cinayət, təxribat, terror və kiberhücumlardan tutmuş, böyük dövlətlərarası və regional müharibələrə qədər) ifadə edir. Enerjinin nəql olunduğu coğrafi məkanların həssaslığını nəzərə alaraq, tranzit yollarının təhlükəsizliyi enerji təhlükəsizliyinin vacib hissəsi hesab olunur.

Xəzər hövzəsindən Avropaya neft və qaz nəql edən boru kəmərləri (planlaşdırılan layihələr daxil olmaqla) əhəmiyyətli olduğu qədər də həssasdır. Rusiyanın bəzi dairələrində bu layihələrin reallaşmasına qarşı zaman-zaman qısqanclıq nümayiş etdirilmişdir [17]. Hələlik, Cənubi Qafqaz qaz bazarının Rusiya üçün ciddi təhlükə olduğunu söyləmək real deyil, çünki enerji resursları arasında çox ciddi fərq var. Buna baxmayaraq, regional enerji layihələrinin gələcək perspektivləri və onların genişləndirilməsini (Şəkil 2) Rusiya üçün ciddi çağırış hesab etmək olar. İstənilən halda, Cənubi Qafqazın enerji layihələrinə Rusiyadan birbaşa təhlükə, ən azından yaxın gələcək üçün real deyil.




**Şəkil 2. Cənub Qaz Dəhlizinin potensial genişləndirilməsi** [18]

BTC, BTƏ, Bakı–Supsa boru kəməri, TANAP və TAP-ın keçdiyi region dünyanın ən həssas və riskli bölgələrindən biridir. Azərbaycanın dünya okeanına çıxışının olmaması Gürcüstan ərazisindən geoiqtisadi koridor kimi istifadəsini şərtləndirir. Ancaq regionda Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya kimi münaqişələr hələ də mövcuddur və Türkiyənin şərqində PKK terror qruplaşmaları ilə qarşıdurma davam etməkdədir [19]. Bu riskləri nəzərə alaraq boru kəmərləri yeraltı qurulur. Yeraltı boru kəmərlərinin tikintisi maliyyə cəhətdən baha başa gəlsə də, boru kəmərlərini bir sıra fiziki təhlükələrdən qoruyur. Lakin bu tədbirlər boru kəmərlərinin təhlükəsizliyini təmin etmək üçün kifayət deyil [20].

Tamar Pataraianın iddiasına görə, Rusiya mütəmadi olaraq enerji idxal edən ölkələrdə belə bir təəssürat yaratmağa çalışır ki, Cənubi Qafqaz regionu enerji resurslarının təhlükəsiz və davamlı nəqlini təmin etmək iqtidarında deyil [21]. Mövcud təhlükəsizlik dilemması səbəbindən regionun Qərb birliyi ilə hər hansı əlaqəsi Rusiya Federasiyasının postsovet məkanında nüfuzunun itirilməsi kimi qiymətləndirilir. Rusiya postsovet məkanında Aİ-nin maraqlarını tarazlaşdırmaq və regional nəzarət mexanizminə sahib olmaq üçün Avrasiya İqtisadi İttifaqını (AİI) yaratmışdır. Şübhəsiz ki, Rusiya Cənubi Qafqazın enerji infrastrukturu üzərində üstünlüyünü itirsə, bu rəsmi Moskva üçün əhəmiyyətli iqtisadi və siyasi itkilərlə nəticələnəcəkdir. Bundan əlavə, regional güc və Avropanın əsas enerji təminatçısı statusunu itirmək, artıq siyasi və iqtisadi sanksiyalarla mübarizə aparan Rusiyaya daha ciddi zərbə vuracaqdır [22]. Buna görə "dondurulmuş münaqişələr" enerji layihələrinin reallaşmasına mane olmaq və Gürcüstanın Qərb institutlarına inteqrasiyasını əngəlləmək üçün ən yaxşı vasitədir. Abxaziya və Cənubi Osetiya "respublikalarını" de-fakto tanınması və sərhədlərində rus qoşunlarını yerləşdirməsi Rusiyanın regionla bağlı ambisiyasını nümayiş etdirir.

Bölgədə qeyri-sabitlik yaradan və enerji təhlükəsizliyinə əsas təhdid hesab olunan bir neçə səbəb var. Neft və qaz kəmərləri regionun iki ölkəsindən (Azərbaycan və Gürcüstan) keçir və hər iki ölkədə eyni problem mövcuddur: ərazi bütövlüyün pozulması. Maraqlısı budur ki, NATO üzvlüyünə can atan və qərbyönlü xarici siyasət yürüdən Gürcüstan hibrid müharibənin yeni bir formasının qurbanı ola bilər. Bəzi Qərb ölkələrinə görə boru kəmərlərinin davamlılığına zəmanət vermək üçün Gürcüstan və Azərbaycan NATO-ya daxil olmalıdır. Bununla belə, Azərbaycan Qoşulmama Hərəkatına üzv olduğundan NATO-ya üzvlüyü nəzərdən keçirmir və Gürcüstandakı mövcud dondurulmuş münaqişələr onun Alyansa üzvlüyünə mane olur. On ildən çoxdur ki, Qərb ölkələri Gürcüstana NATO üzvlüyü vəd edirlər. Lakin bu istiqamətdə hələ də hər hansı bir irəliləyiş yoxdur. Bu baxımından, NATO-nun Gürcüstandakı tərəfdarları arasında Qərbin imicinə ciddi xələl gəlmişdir. Saakaşvilli hakimiyyətdən getdikdən sonra baş verən qütbləşmə, Gürcüstanın NATO-ya daxilolma ehtimalını mümkünsüz edir. Qərb cəmiyyəti həm Azərbaycanın, həm də Gürcüstanın ərazi bütövlüyünü yekdilliklə dəstəkləyir. Ancaq işğal altındakı ərazilərə nəzarəti bərpa etmək üçün heç bir ciddi tədbir görülməmişdir. Bu o deməkdir ki, Qərb ölkələrini daha ehtiyatlı davranmağa məcbur edən bir sıra səbəblər var. Başlıca səbəb, Rusiyanın birbaşa və ya dolayı olaraq həmin münaqişələrə müdaxilə etməsidir. Bu gün Azərbaycan enerji təhlükəsizliyini təmin etməyə qadirdir və digər ölkələrin də enerji təhlükəsizliyində mühüm rol oynayır. Buna baxmayaraq, zaman-zaman boru kəmərlərini terrorla hədələyən Ermənistan təhdidi mövcuddur. Cənubi Qafqaz regionunda enerji təhlükəsizliyi üçün gözlənilməyən risklərə iki nümunə göstərmək olar: 1) 2008-ci il Rusiya – Gürcüstan müharibəsi vaxtı, rus hərbi təyyarələrinin BTC və Bakı – Supsa neft boru kəmərləri yaxınlığında bomba atması nəticəsində enerjinin müvəqqəti kəsilməsi; 2) 2016-cı ilin aprelində Ermənistanla Azərbaycan arasında cəbhə bölgəsində baş verən eskalasiya. Aprelin 5-də Dağlıq Qarabağdakı separatçı rejimin "müdafiə nazirliyi" bəyan etdi ki, İskəndər, Skud-B və Toçka-U sistemlərindən istifadə etməklə Azərbaycanın neft obyektlərinə hücum etməyə hazırlaşır [23]. Ancaq bu reallaşmadı. Ermənistan artıq Azərbaycanın işğal olunmuş ərazilərinə hava hücumu və raketdən müdafiə sistemləri yerləşdirmişdir, həmçinin Azərbaycanın neft-qaz infrastrukturuna mümkün hücum senarilərini simulyasiya etmək üçün Qarabağda mütəmadi hərbi təlimlər keçirir. Bu, öz növbəsində Azərbaycanın enerji infrastrukturunun təhlükəsizliyinə təhdiddir.

Ərazi münaqişələrindən başqa, Cənubi Qafqaz regionunda təhlükəsizliklə bağlı digər problemlər də mövcuddur. Enerji resursları müxtəlif risklərə məruz qalır, hətta onların arasında birbaşa əlaqə olmazsa "domino effekti" yarana bilər. Enerji təhlükəsizliyinə əsas təhdidlər aşağıdakılardır: siyasi qeyri-sabitlik, tətil və etirazlar, təxribat, terror və kiberhücumlar, embarqolar, enerji marşrutlarının təsadüfi və ya qəsdən bağlanması, qəzalar və s. Bu təhdid və ya təhlükələr birbaşa enerji resurslarının davamlılığını hədəfə alsa da digər sahələrə də xeyli təsir göstərə bilər [24]. Məsələn, 6 avqust 2008-ci ildə BTC boru kəmərinin Türkiyənin Refahiye qəsəbəsindən keçən hissəsində baş vermiş partlayış kiberhücumla əlaqələndirilir (Şəkil 3).




**Şəkil 3. 6 avqust 2008-ci ildə Türkiyənin Refahiye şəhərində baş verən partlayış** [25]

Enerji nəqlinin dayanması ilə nəticələnən partlayış yalnız 7 avqust 2008-ci ildə söndürülmüşdü. Boru kəmərinin fəaliyyəti 25 avqust 2008-ci ildə bərpa olunmuşdu. Kiberhücum Rusiya və Gürcüstan arasında müharibə başlamazdan bir qədər əvvəl baş vermişdi. Bloomberg yazır: “Kiberhücum boru kəmərinə dəyən ziyandan başqa, BP, Azərbaycan Respublikası Dövlət Neft Fondu və digərlərinə milyonlarla dollara başa gəldi. Hücumla bağlı məsuliyyəti kürd separatçılar üzərlərinə götürsə də, ABŞ-ın bir sıra kəşfiyyat rəsmiləri Bakı–Tbilisi–Ceyhan boru kəmərinə qarşı çıxmasını əsas gətirərək Rusiyanı ittiham etmişdilər” [26]. 2015-ci ilin dekabr ayında Xəzər dənizindəki neft platformasında baş vermiş yanğın Azərbaycan Dövlət Neft Şirkəti istehsalının 60 faizinə təhlükə yaratmışdı [27].

Maraqlar Cənubi Qafqazın sərhədləri daxilində məhdudlaşmır və regional problemlər qlobal təsir göstərə bilər. Məsələn, Ermənistanın (açıq düşmən, çünki başqa gizli rəqiblər də var) Azərbaycan və ya Gürcüstandan keçən boru kəmərlərini partlatmaqla təhdid etməsi NATO ölkəsi Türkiyəyə və Aİ və NATO üzvü olan Yunanıstan, Rumıniya və ya İtaliya kimi digər ölkələrə də təsir edir. Hibrid hücum zamanı, əsasən, milli boşluqlardan istifadə olunsa da, ona cavab reaksiyası müştərək (regional) tədbirlər tələb edir, bu da öz növbəsində enerji istehsal və istehlak edən, eyni zamanda tranzit ölkələr arasında çoxşaxəli əməkdaşlığı şərtləndirir. Beləliklə, enerji təhlükəsizliyi dövlətlərin sərhədlərini aşan bir problemdir və ona olan hibrid təhdidlər bütün enerji sistemi və kritik enerji infrastrukturunun həssaslığı ilə səciyyələnir.

## Nəticə

Cənubi Qafqaz cəmi üç kiçik ölkədən ibarətdir və Azərbaycan Respublikası regional enerji təhlükəsizliyini təmin etmək üçün kifayət qədər resurslara malikdir. Ancaq bölgənin geosiyasəti buna imkan vermir. Ermənistan bu fürsətdən yararlana bilmir, çünki Azərbaycan ərazisinin 20 faizini işğal etmiş və Xəzərin enerji ehtiyatlarının nəqli üçün tranzit ölkə olmaq şansını itirmişdir. Bunun əvəzinə, Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir. Tranzit ölkə kimi digər variantların Rusiya və İran olduğunu nəzərə alsaq, Avropa üçün Gürcüstan Azərbaycanın neft və qaz nəqli üçün ən etibarlı tranzit ölkədir. Bundan əlavə, Azərbaycan enerji ixrac edən ölkə olmaqla yanaşı, onun coğrafi mövqeyi, Transxəzər boru kəməri reallaşdığı təqdirdə, Mərkəzi Asiyanın enerji resurları üçün tranzit ölkə olmasına imkan verir. Xarici aktorların yaratdığı təhdidlərdən əlavə region üç “dondurulmuş münaqişə” sayəsində separatizm təhlükəsi ilə üz-üzədir. Cənubi Qafqazın üzləşdiyi çətinliklərin mümkün həll variantlarından biri də Qərb ölkələri və təşkilatlarından tam dəstəyin alınmasıdır. Bu dəstək nə deməkdir? Qərb Ermənistanın enerji marşrutlarını təhdid etməsinin qarşısını almaq məqsədilə regional birliyi yaratmaqda israr etməli, NATO və Aİ strukturları, eləcə də müxtəlif tərəfdaşlıq mexanizm və proqramları vasitəsilə mövcud əlaqələri genişləndirməli, enerji istehsal edən və tranzit ölkələrin hibrid təhdidlərə dayanıqlılığının artırılmasına köməklik

göstərməlidir. Ermənistanın, eləcə də Gürcüstandakı separatçı rejimlərin Avropaya enerji təchizatını pozmağa cəsarət etməsi hazırkı vəziyyət üçün inandırıcı deyil. Buna baxmayaraq, onlar Avropa enerji bazarında xaos yaratmaqda maraqlı olan bəzi digər aktorlar tərəfindən istifadə oluna bilərlər. Bu, Avropa ölkələrinin (Xəzər enerji ehtiyatlarına ehtiyacı olan) təchizat təhlükəsizliyini təmin etmək üçün düşünməli olduğu ən ciddi təhlükədir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Hagelstam, A. Cooperating to counter hybrid threats: [Electronic resource]. – 23 November 2018. URL: https://bit.ly/38NFwCO.
2. Galeotti, M. (Mis) Understanding Russia's two hybrid wars: [Electronic resource]. – 29 November 2018. URL: https://bit.ly/3bZUGH5.
3. Irie, K. The Evolution of the Energy Security Concept and APEX Energy Cooperation: [Electronic resource] / IAEE Energy Forum, Singapore Issue, – 2017. – p.38-40.
4. Koyama, K. A discussion on energy security threat and risk factors: [Electronic resource] / IEEJ Special Bulletin, – September 8, 2017. URL: https://bit.ly/2VOsCRw.
5. Verleger, P. 19 Historical Oil Disruptions And How No.20 Will Shock Markets: [Electronic resource]. – April 29, 2019. URL: https://bit.ly/2vGEpqf.
6. Lawler, A. Hit by sanctions and rising tensions, Iran's oil exports slide in July: [Electronic resource]. – July 30, 2019. URL: https://reut.rs/2vfkjoe.
7. Parraga, M. Venezuelan oil exports fell by a third in 2019 as U.S. sanctions bit: data: [Electronic resource]. – January 7, 2020. URL: https://reut.rs/2ijzwfq.
8. Pataraia, T. Energy transit and security imbalance in South Caucasus: The road between Russia and the European Union: [Electronic resource]. – June 1, 2015, https://bit.ly/2uRDK4P.
9. EIA projects nearly 50% increase in world energy usage by 2050, led by growth in Asia: [Electronic resource]. – January 3, 2020, https://bit.ly/2tz9v2v.
10. Aydin, U., Azhgaliyeva, D. Assessing Energy Security in the Caspian Region: The Geopolitical Implications for European Energy Strategy: [Electronic resource] / ADBI Working Paper 1011, Tokyo: Asian Development Bank Institute, 2019, https://bit.ly/2VQ3ael.
11. Weiss, C. European Union's Nabucco pipeline project aborted: [Electronic resource]. – July 13, 2013, https://bit.ly/2IpkkY6.
12. Mammadzada, V., Iskandarov, Kh. Azərbaycanın enerji siyasəti və transregional layihələrinin təhlükəsizliyi // Milli Təhlükəsizlik və Hərbi Elmlər, 2019. – №3 (5), – p.66-73.
13. Ibrayeva, A., Sannikov, D.V., Kadyrov, M.A. və b. Importance of the Caspian Countries for the European Union Energy Security // International Journal of Energy Economics and Policy, 2018. – Volume 8, – №3, – p.150-159.
14. O'Neil, B., Hawkins, R.C., Zilhaver, C.L. National Security & Caspian Basin Hydrocarbons // International Association for Energy Economics, – Second Quarter 2011. – p.9-15.
15. Socar and BP kick off Trans Anatolian Natural Gas Pipeline construction: [Electronic resource]. – May 28, 2014. URL: https://bit.ly/3cC548a.
16. Cornell, S.E., Starr, S.F., Tsereteli, M. A Western Strategy for the South: [Electronic resource] / Central Asia-Caucasus Institute & Silk Road Studies Program, – 2015. URL: https://bit.ly/2VVkvT4.
17. The energy security challenge in Central and Eastern Europe: [Electronic resource] / report by Ausrine Armonaite (Lithuania) Rapporteur, 175 ESCTD 18 E rev.1 fin, – November 17, 2018. URL: https://bit.ly/2IwV3LC.
18. Azerbaijan offers Iraq access to Europe gas pipelines: [Electronic resource]. – February 10, 2014. URL: https://bit.ly/2TYPGKQ.
19. Chufrin, G. The Security of the Caspian Sea Region / G.Chufrin. – UK: Oxford University Press, – 2001. – 375 p.

20. Mammadzada V., Iskandarov Kh., Gasanov A. Caspian region Geopolitical arena. Clash of interests and energy security // Civitas et Lex, 2020. – Volume 26, – №2, – p. 7-27.

21. Pataraia, T. Energy transit and security imbalance in South Caucasus: The road between Russia and the European Union: [Electronic resource]. – June 1, 2015. URL: https://bit.ly/2uRDK4P.

22. Gvelesiani, L., Mölder, H. Maintaining the security dilemma in the South Caucasus: Russia's geostrategic interests in Georgia // Sojateadlane (Estonian Journal of Military Studies), 2018. – Volume 7, – p.137-157.

23. Gurbanov, I. Four-Day Karabakh War Highlights Threats to Energy Security on NATO's Southeastern Flank // Eurasia Daily Monitor, – May 23, 2016. – Volume 13, – Issue 100. URL: https://bit.ly/2vTasU9.

24. Cîrdei, I.A., Ispas, L. A possible answer of the European Union to hybrid threats // Scientific Bulletin, 2017, Vol. XXII, №2(44), p.71-78.

25. "Baku-Tbilisi-Ceyhan was blown up Not by Kurdish Bomb But by Russian Laptop: [Electronic resource]. – December 18, 2014. URL: https://bit.ly/2OzxxR6.

26. "Protecting Critical Infrastructure from Cyber Threats": [Electronic resource]. – November 1, 2017. URL: https://bit.ly/2TFdQtm.

27. Kirişci, K., Moffatt, A. Turkey and the South Caucasus: An Opportunity for Soft Regionalism? // Regional Security Issues, – 2015, – p.67-88.

## Аннотация
## Энергетическая безопасность на Южном Кавказе в контексте гибридных угроз
**Хаял Искандаров**

Гибридные угрозы энергетической безопасности, усиление их сопротивления в разных регионах были одной из самых актуальных тем для исследователей в последнее десятилетие. В этой статье автор стремится оценить угрозы энергетической безопасности в регионе Южного Кавказа и за его пределами. На основании ретроспективного анализа выявлены угрозы и факторы риска, представлены условные и структурные риски для энергетической безопасности. Рассмотрены транснациональные энергетические проекты, связанные с транспортировкой каспийских энергоресурсов. Анализируется возможное влияние гибридных угроз на безопасность спроса и предложения в энергетическом секторе.

**Ключевые слова:** гибридная угроза, энергетическая безопасность, Южный Кавказ, инфраструктура, энергетический маршрут.

## Abstract
## Energy security in the South Caucasus in the context of hybrid threats
**Khayal Iskandarov**

Hybrid threats to energy security, increasing resistance to them in different regions have been one of the most pressing topics for researchers in the last decade. In this article, the author seeks to assess the threats to energy security in the South Caucasus region and beyond. Based on the retrospective analysis, threats and risk factors are identified, conditional and structural risks to energy security are presented. Transnational energy projects involving the transportation of Caspian energy resources are considered. The possible effects of hybrid threats on supply and demand security in the energy sector are analyzed.

**Keywords:** hybrid threat, energy security, South Caucasus, infrastructure, energy route.

*Məqalə redaksiyaya daxil olmuşdur: 10.06.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 12.06.2020*
*Çapa qəbul edilmişdir: 13.06.2020*

## ELMİ MƏQALƏLƏRİN TƏRTİB EDİLMƏSİNƏ DAİR TƏLƏBLƏR

Təqdim edilən məqalələr jurnalın elmi istiqamətinə (hərbi-nəzəri elmlər, hərbi xüsusi elmlər, hərbi təbabət, milli təhlükəsizlik) uyğun, aktual elmi problemlərə aid tədqiqatların ilk dəfə dərc olunması üçün nəzərdə tutulmuş materiallara malik olmalıdır. Məqalələr üç dildə (Azərbaycan, rus və ya ingilis) təqdim edilə bilər.

Məqalə MS WORD mətn redaktorunda 12-lik Times New Roman şrifti ilə yığılmalı, sətirlər arası məsafə 1 olmalıdır. Məqalənin birinci səhifəsinin yuxarı sol tərəfində UOT (UDK) indekslər göstərilməlidir. Mətnin əvvəlində məqalənin adı, müəllif(lər) haqqında məlumat (onların adı tam şəkildə, elmi dərəcəsi, elmi adı və hərbi xidmətdə olanlar üçün hərbi rütbəsi), müəllif(lər)in işlədiyi müəssisə(lər) və həmin müəssisə(lər)in ünvan(lar)ı, müəllif(lər)in elektron poçt ünvan(lar)ı və telefon nömrələri qara rəngli qalın şriftlə verilməlidir. Bu məlumatlardan sonra üç dildə (Azərbaycan, rus, ingilis) 5–6 sözdən ibarət açar sözlər, daha sonra isə məqalənin yazıldığı dildə qısa xülasə (100 sözdən çox olmamaqla) göstərilməlidir. Xülasədə tədqiqat işinin mahiyyəti, müəllif(lər)in aldıqları elmi nəticələr, işin elmi cəhətdən yeniliyi, tətbiqi əhəmiyyəti və s. yığcam şəkildə öz əksini tapmalıdır.

Məqalənin mətni 6–10 səhifə (A4 formatında) həcmində olmalı, səhifələrdə isə bütün tərəflərdən 20 mm boş məsafə saxlanmalıdır. Səhifələrin nömrəsi səhifənin aşağı hissəsinin sağ tərəfində qoyulmalıdır. Cədvəllər, qrafiklər, diaqramlar, şəkillər və fotolar mətnin daxilində yerləşdirilməklə məqaləyə daxil edilə bilər.

Elmi məqalədə mövzu üzrə qısa təhlil verilməli, onun aktuallığı əsaslandırılmalı, həll olunmalı məsələlər açıqlanmalı və onların həlli yolları göstərilməli, əldə edilən nəticələr, işin elmi cəhətdən yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

Elmi mənbələrə edilən istinadlar mətndə kvadrat mötərizədə verilməlidir (məsələn, [1] və ya [1, s.119]). Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndəki ardıcıllığı ilə nömrələnməlidir. Ədəbiyyat siyahısında son 10 ildə nəşr edilmiş elmi məqalələrə, monoqrafiyalara və digər etibarlı mənbələrə üstünlük verilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələbləri əsas götürülməlidir.

"İstifadə edilmiş ədəbiyyat"dan sonra məqalənin adı, müəlliflər haqqında məlumat və xülasə (məqalənin yazıldığı dildən əlavə, yuxarıda qeyd edilmiş daha iki dildə) verilməlidir.

Müəllif(lər) məqaləni çapa tövsiyə edən kafedra və ya təşkilatın iclas protokolundan çıxarışı, məqalənin A4 formatında çap olunmuş nüsxəsini, məqalənin elektron variantı yazılmış CD və ya DVD diski, eləcə də məqalə müəllif(lər)i ilə əlaqə saxlamaq üçün telefon nömrələrini təqdim etməlidir.

Redaksiyaya daxil olmuş məqalələr anonim rəyçilərin rəyindən (2 müsbət rəydən) sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə olunacaq. Təqdim olunan məqalənin dərc olunmasından imtina edildiyi halda jurnalın redaksiyası yazılı şəkildə müəllifə imtina cavabı göndərəcəkdir.

## ТРЕБОВАНИЯ К ОФОРМЛЕНИЮ НАУЧНЫХ СТАТЕЙ

Представленные для публикации в журнале статьи должны соответствовать научным направлениям (военно-теоретические науки, военно-специальные науки, военная медицина, национальная безопасность) журнала и содержать материалы отражающие результаты исследований научно-актуальных проблем, предназначенные для первичной публикации. Статьи могут быть представлены на одном из следующих языков – азербайджанском, русском или английском.

Статья должна быть подготовлена в редакторе MS WORD, шрифт Times New Roman – 12. Междустрочный интервал – одинарный. На левой верхней части первой страницы должны быть указаны индексы УДК (UOT). В начале статьи должны быть указаны в полужирным черным шрифтом название статьи, сведения об авторе(ах) (полное имя, учёная степень, учёное звание) и воинское звание для военнослужащих, место работы с указанием адреса(ов), адрес

электронный почты и номер телефона. Далее должны быть приведены ключевые слова на азербайджанском, русском и английском языках (состоящих из 5–6 слов), а затем краткая аннотация (не более 100 слов) на языке набранной статьи. В аннотации должны кратко отражаться сущность исследования, полученные научные результаты автора(ов), научная новизна работы, ее прикладное значение, и т.д.

Статья должна быть в объеме 6–10 страниц (в формате A4 машинописного текста). Поля страницы со всех сторон 20 мм. В статье могут быть размещены таблицы, графики, диаграммы, рисунки и фотографии.

В статье приводиться краткий анализ по содержанию работы, а также обосновывается актуальность темы, раскрывается решаемые задачи и указываются способы ее решения. Кроме этого, должны быть изложены полученные результаты, новизна работы, ее прикладное значение и т.д.

Ссылки на научные источники должны указываться в квадратных скобках (например, [1] или [1, с.119]). Указанный список литературы в конце статьи должен нумероваться в порядке последовательности цитируемой литературы в тексте. В списке литературы предпочтение должно отдаваться научным статьям, монографиям и другим надёжным источникам последних 10 лет.

Библиографическое описание цитируемого источника должно соответствовать требованиям Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

После раздела “Использованная литература”, кроме языка, на котором написана статья, пишется название статьи, сведения об авторе(ах) и аннотация еще на двух других языках, указанных выше.

Автор(ы) вместе со статьей должен(ы) предоставить выписку из протокола заседания кафедры или учреждения рекомендовавшего ее для публикации, один экземпляр напечатанной статьи, его электронный вариант, написанный на диске CD или же DVD, а также контактные телефонные номера.

Поступившие в редакцию статьи после рецензирования (2 положительных заключения) по представлению редактора по специальности или одного из членов редакции будут рекомендованы в печать. При отказе печатать статью редакция журнала в письменной форме уведомит об этом автора(ов).

## RULES FOR COMPILING SCIENTIFIC ARTICLES

Artıcles, submitted to be published in this journal must be appropriate to the norms and standards of researches being covered by its scope (military theoretical sciences, military special sciences, military medicine, and national security). The articles can be submitted in three (Azerbaijan, Russian and English) languages.

An article should be typed in MS WORD text edited in Times New Roman – with 12 shrift, 1 inter-line space. UDC (UOT) indexes are to be put on the left top of the first page. The topic of the article, information about the author, (full name, scientific degree, scientific position, military rank for servicemen), the names of the institutions, where the authors work for, the address of the very institutions, authors’ e-mail account and phone numbers must be given in bald black colour. After this information, keywords in three languages (Azerbaijan, Russian, English) consisting of 5–6 words, then abstract (no more than 100 words) in the language in which the article is produced are to be written. The essence of the study, scientific results achieved by the author(s), scientific significance, practicality are to be briefly written in the abstract.

The text of the article is to be 6–10 pages (A4 format) and the dimension of the pages must be from all sides 20 mm. Numbering of the pages would be on the right bottom of each page. Schemes, graphics, diagrams, pictures and photos may be included by inserting them in the text of the article.

Brief analysis is to be given, the topicality of the subject is to be proved, the issues which are going to be solved must be clarified and the ways of the solution, the results, economic efficiency and etc. are to be clearly shown in a scientific article.

The references linked to the scientific sources, must be noted in bracket at the end of the sentence, which is extracted from a source. (For example, [1] or [1, p.119]). The list of the reference at the end of the article is to be in the same sequence with the citations in the article. The sources of the late 10 years should be preferred in the reference list.

While giving the bibliographic description, the requirements of the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan should be met.

The abstract of the article is to be designed in two more languages besides the language, the article is written. The abstracts in various languages must be appropriate to the content of the article. Scientific results, topicality of the subject, essence for applicability are to be reflected in the abstract. The abstracts must be scientifically and grammatically edited. In either abstract, the full name of the article and the author must be put on.

Contact number is to be noted at the end of the article to keep in touch with the author. While the author submits the article, an excerpt from a protocol of the organization or department where he or she works, a printed copy of the article, herewith a burnt digital copy on CD or DVD are to be handed over as well.

Only twice reviewed papers will be published in the journal after being considered by the editor. When paper is rejected then author will be informed about it.

Çapa imzalanıb 11.01.2021. Ofset çap üsulu.
Formatı 60/84 ⅛. Fiziki ç.v. 8,5. Sifariş 11.

Hərbi Nəşriyyatın mətbəəsində çap olunmuşdur.
Bakı, akad. Ş.Mehdiyev 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası

№ 2(6)